RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 27 (9482) 8 FEVRAL 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



MSK-nın elan etdiyi ilkin seçki nəticəsinə görə, prezidentliyə namizədlərin topladıqları səslər:

**İlham Əliyev - 92.05 faiz**
**Zahid Oruc - 2.19 faiz**
**Fazil Mustafa - 2 faiz**
**Qüdrət Həsənquliyev - 1.76 faiz**
**Razi Nurullayev - 0.80 faiz**
**Elşad Musayev - 0.67 faiz**
**Fuad Əliyev - 0.53 faiz**

## Ən böyük qələbə, ən mütəşəkkil seçki

### Dünənki seçkilər son 20 ilin rekord göstəriciləri ilə əlamətdar oldu

Dünənki prezident seçkiləri yalnız bütöv Azərbaycanda baş tutan ilk seçki kimi tarixə həkk olunmadı. Həm də son 20 il ərzində keçirilən prezident seçkilərində qalib namizədin qazandığı səslərin və seçici fəallığının möhtəşəmliyinə görə də rekord nəticə ilə əlamətdar oldu.

3

## Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan…

### Ən yüksək seçki fəallığı bu bölgələrdə oldu

Prezident seçkilərində ölkə üzrə seçici fəallığı 76,73 faiz təşkil edib. Əhali işğaldan azad edilmiş ərazilərdə yerləşən məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılıb. Bu bölgədə yaradılan 26 seçki məntəqəsi üzrə seçici fəallığı 93 faizdən çox olub.

3

### "Exit-poll"un rəyləri rəsmi nəticəni təsdiqlədi:

## Qalib İlham Əliyevdir

*"Oracle Advisory Group":*
**İlham Əliyev - 93,9 faiz**

*"Rəy" Monitorinq Mərkəzi:*
**İlham Əliyev - 92,6 faiz**

*Sosioloji Tədqiqatlar Mərkəzi:*
**İlham Əliyev - 92,4 faiz**

3

## Heydər Əliyev Mərkəzindən Xankəndiyədək…

### İlham Əliyevin qələbəsi bütöv Azərbaycanda bayram əhvali-ruhiyyəsi yaratdı

4

# 92,05 %



# İlham Əliyevin zəfər mandatı

## Azərbaycanın yeni tarixi dövrü ümummilli etimadın təntənəsi ilə başlayır

"İlkin nəticələrə görə, seçicilərin 92 faizinin səsini qazanan İlham Heydər oğlu Əliyev seçki birincisidir" - bu rəsmi məlumat dünənlə bu günü biri-birinə bağlayan gecənin həyəcanına milyonların sevincini qatdı...

Azərbaycan xalqı Xilaskar Liderinə olan inamını növbəti dəfə rəsmiləşdirdi, ona qarşıdakı 7 il üçün ümummilli etimadın yeni mandatını - ZƏFƏR MANDATI verdi!

Xalqın yüksək fəallığı, mütləq dəstəyi ilə baş tutan prezident seçkisi artıq tarixə qovuşdu. Və eyni zamanda tariximizin növbəti şanlı səhifəsinin ilk sətirlərinə, dövlət quruculuğunun yeni inkişaf, nailiyyət salnaməsinin başlanğıcına çevrildi.

Ötəngünkü səsvermə sıradan bir siyasi aksiya deyildi. Onun mahiyyətində dövlətin və millətin sabahı ilə bağlı olan əlahiddə məqamlar, yeni intibah, zəfər yolunun aydın məramları, ən əsası isə məhz Azərbaycanın özü, taleyi, müstəqilliyi dayanırdı.

Bu, Bütöv Azərbaycanda keçirilən ilk seçki idi!

Bu, ikiəsrlik münaqişəyə son qoyan Zəfərin ilk seçkisi idi!

Bu, Müzəffər Ali Baş Komandanın qüdrətinin təcəssümü olan Xankəndidə baş tutan ilk seçki idi!

Əslində, Azərbaycan vətəndaşı 7 fevral seçkisinə təkcə Prezident seçkisi kimi yanaşmırdı!

Bu, həm də müəyyən mənada ümumxalq referendumu idi!

Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyev missiyasına xalqın növbəti etimad səsverməsi idi!

Eyni zamanda, xalqın öz Prezidentinə və iqtidarına inamını, güvənini bir daha rəsmi şəkildə müəyyənləşdirən seçki idi!

Növbəti islahatlar kursunu, yeni tarixi dövrün başlanğıcını bəyan edən və gələcəyə daha çevik, modern, səmərəli idarəçilik modeli ilə addımlayan İlham Əliyevin siyasətinə xalqın güvən səviyyəsini dəqiqləşdirən rəy sorğusu idi!

4

## Dünya liderləri İlham Əliyevi təbrik edirlər

**Dünən Azərbaycanda keçirilən prezident seçkiləri dünya ictimaiyyətinin və xarici KİV-in diqqət mərkəzində idi. İlham Əliyevin seçkilərdə qələbəsi məlum olduqdan dərhal sonra xarici ölkə rəhbərlərinin Azərbaycan Prezidentini təbrik etmələri də bunun bir daha təsdiqi oldu.**

Çin Xalq Respublikasının Sədri Si Cinpin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Aleksandar Vuçiç, Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Seyid İbrahim Rəisi, Macarıstanın Baş naziri Viktor Orban, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar böyük qələbə münasibətilə İlham Əliyevə zəng etmiş, məktub göndərmiş, "X" sosial şəbəkəsində təbrik etmişlər.

## Beynəlxalq müşahidəçilər seçki prosesini yüksək qiymətləndirirlər

Ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində iştirak üçün 760 nəfəri beynəlxalq müşahidəçi olmaqla, ümumilikdə 90 min 272 müşahidəçi qeydiyyatdan keçib. Hər biri mötəbər təşkilatlardan olan həmin beynəlxalq müşahidəçilər respublikamızın müxtəlif bölgələrində, habelə paytaxt Bakıda və işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən məntəqələrdə seçki prosesini izləyiblər. Beynəlxalq müşahidəçilər Zəfər seçkisinin tam şəffaf və demokratik təşkilini, seçici fəallığının yüksək səviyyədə olmasını qeyd ediblər.

7

## "Xilaskarımıza səs verdik"

### Keçmiş məcburi köçkünlərin seçimi Qalib Lider İlham Əliyev idi

Zaman 2020-ci il mayın 28-i, məkan "Qobu Park-3" yaşayış kompleksi...

Daha minlərlə keçmiş məcburi köçkünə yeni evlərinin açarlarını təqdim edən dövlət başçısı İlham Əliyev onilliklərdir vətən həsrəti çəkən bu insanlara tezliklə yurdlarına qayıdacaqlarının və bundan da gözəl ev-eşiklərə sahib olacaqlarının müjdəsini verir...

Zaman 2024-cü il fevralın 7-si, məkan "Qobu Park-3" yaşayış kompleksi...

Minlərlə keçmiş məcburi köçkün Qarabağ və Şərqi Zəngəzuru azad edən, Azərbaycanın suverenliyini bərpa edən, Vətəni bütövləşdirən layiqli Prezidentinə səs vermək üçün seçki məntəqələrinə axın edir...

9

## Xankəndidə seçki bayramı yaşandı

Fevralın 7-də bütün dünya Xankəndidə baş verən tarixi hadisəni izlədi. 30 ildən çox idi Xankəndidə Azərbaycanla bağlı seçki keçirilmirdi. Dünən isə Xankəndinin tarixinə qızıl hərflərlə yazıldı. Burada keçirilən demokratiya hadisəsinə dünyanın bəzi "əlindəki kartları zərərsizləşdirilmiş" ölkələri şahid oldular.

8

## Prezidentliyə namizədlər seçki qalibi İlham Əliyevi təbrik etdilər



**Zahid Oruc:**
- Seçkilərin ilkin nəticələrini Azərbaycan xalqının iradəsinin göstəricisi hesab edir və bu seçkilərdə qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevi ürəkdən təbrik edirik. Prezident İlham Əliyevə qlobal miqyasda baş verən gərginliklər fonunda dünya ilə ayaqlaşa bilən yeni Azərbaycan yaratmaq uğrunda çətin və şərəfli fəaliyyətində uğurlar arzulayırıq.



**Fazil Mustafa:**
- Prezident seçkilərinin ilkin nəticələrini tanıyır, səsvermənin ilkin nəticəsini qanuni hesab edir və Azərbaycan xalqının böyük etimadını qazanaraq Prezident seçilən İlham Əliyevi qələbə münasibətilə təbrik edirik. İnanırıq ki, xalqımızın doğru seçim etdiyi öz müsbət nəticələrini qısa zamanda göstərəcək.



**Qüdrət Həsənquliyev:**
- Nəticələrə təsir edə biləcək qanun pozuntularının olmadığını, nəticələrin vətəndaşların iradəsini ifadə etdiyini bildiririk. Seçkinin legitimliyini şübhə altına alan iddiaları qəbul etmədiyini bəyan edir, seçkidə inamlı qələbə qazanaraq yenidən ölkə Prezidenti seçilən İlham Əliyevi təbrik edir, fəaliyyətində uğurlar arzu edirik.



**Razi Nurullayev:**
- Seçkilərin ilkin nəticələrinə və "exit-poll"arın nəticələrinə görə Azərbaycan xalqının böyük etimadını qazanaraq növbəti müddətə Prezident seçilən İlham Əliyevi partiyanın, seçki qərargahının üzvləri adından təbrik edir, vətənə və millətimizə "xeyirli olsun" deyirik.



**Fuad Əliyev:**
- Seçkilərin ilkin nəticəsi onu deməyə əsas verir ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə böyük etimad göstərib. Bu qələbə münasibətilə İlham Əliyevi ürəkdən təbrik edir və Prezidentə Azərbaycanın qüvvətlənməsi, insanlarımızın rifahının daha da yaxşılaşdırılması üçün atacağı bütün addımlarda uğurlar arzulayırıq.



**Elşad Musayev:**
- Böyük tarixi sınaqdan, qalibiyyətlə başa vurduğumuz Vətən müharibəsindən sonra keçirilən bu seçkilərdə xalq yenidən öz qalib lideri olan İlham Əliyevə böyük etimad göstərdi. Seçkilərin ilkin nəticələrini legitim hesab edir və qələbə münasibətilə İlham Əliyevi səmimi-qəlbdən təbrik edirik, ona çətin fəaliyyətində uğurlar arzulayırıq.

# İlham Əliyev Xankəndidə səs verdi







Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı Seçki Dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.









## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Çin hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Əminəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcək.

Son illər Çin-Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksəksəviyyəli siyasi etimad mühiti yaranır, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Mən Çin-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm, bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzu edirəm.

Dost Azərbaycana tərəqqi, xalqınıza isə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

Hörmətli cənab Prezident, Əziz Qardaşım!

Bu gün keçirilən seçkilərdə uğur qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə millətim adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub.

Türkiyə ilə Azərbaycan arasında "Sevincdə və kədərdə birlik" ilə "Bir millət, iki dövlət" şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir.

Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm. Bu baxımdan müzəffər lider kimi seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm.

Bu düşüncələrlə seçkilərdə zəfərinizin həm qardaş Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasında prezident seçkilərinin uğurla keçirilməsi və Zati-alinizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Respublikasının suverenliyinin bərpasından sonra ölkənizin bütün ərazilərində ilk dəfə bu seçkilərin keçirilməsi daha böyük əhəmiyyət kəsb edir.

İki qonşu və müsəlman ölkəsi olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası xalqları arasındakı qədim tarixi, dini və ortaq mədəni cəhətlər, dərin mənəvi bağlar, iki ölkənin müxtəlif sahələr üzrə birgə maraqları ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi üçün möhkəm dayaqlar yaratmışdır. Əmin olduğumu bildirirəm ki, Zati-alinizin yenidən prezidentliyi dövründə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq, qardaşlıq münasibətlərinin və əlaqələrin yüksələn xətlə inkişaf etməsinə şahid olacağıq.

Allah-taaladan Sizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, qardaş Azərbaycan Respublikasının xalqına isə səadət və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Seyid İbrahim RƏİSİ,***
***İran İslam Respublikasının Prezidenti***

Zati-aliləri, möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür. Bununla yanaşı, bu nəticə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə Sizin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyiniz misilsiz nailiyyətlərə verilmiş qiymətdir.

Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq arenada həsədaparılası nüfuza sahib olmuşdur.

Serbiya Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir və heç vaxt unutmur ki, ölkəniz həqiqi dost və həyati əhəmiyyətli maraqlarımızın müdafiəçisi olduğunu dəfələrlə sübut edib. Fürsətdən istifadə edərək beynəlxalq hüququn prinsipləri və BMT Nizamnaməsinə sadiqliyinə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dəstəklə bağlı Azərbaycanın dəyişməz mövqeyinə görə səmimi minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, bizim siyasi, iqtisadi və humanitar sahələrdə strateji əməkdaşlığımız və əlaqələrimiz bir çox aspektlər üzrə genişlənmişdir. Mən tam əminəm ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Serbiya və Azərbaycan arasında uzunmüddətli və sıx tərəfdaşlıq qarşılıqlı maraqlar naminə güclənəcək və inkişaf edəcəkdir. Öz növbəmizdə Sizi əmin etmək istəyirəm ki, biz bütün sahələrdə dostluq, qarşılıqlı hörmət, etimad və dəstək prinsiplərindən çıxış edərək, daha da səmərəli və inkişaf edən əməkdaşlığın təmin olunmasına, birgə layihə və ideyaların həyata keçirilməsinə güclü şəkildə sadiqik.

Zati-aliləri, əziz dostum, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirəm.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

# İlham Əliyevi təbrik etdilər

Fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə, "Bir millət, iki dövlət" prinsipi əsasında ölkələrimizin və xalqlarımızın bundan sonra da çiyin-çiyinə irəli gedəcəklərinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

❖❖❖

Fevralın 7-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Özbəkistan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, ölkəmizin daha da inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb. Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanmasının və Azərbaycan torpaqlarının geri qaytarılmasının önəmini bir daha vurğulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Şavkat Mirziyoyevə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər, ikitərəfli münasibətlərin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

❖❖❖

Fevralın 7-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Aleksandr Lukaşenko İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Belarus Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Belarus dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

❖❖❖

Fevralın 7-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Viktor Orban İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Viktor Orbana minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunub.

❖❖❖

Fevralın 7-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İraq Prezidenti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan ilə İraq arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq əməkdaşlığın genişlənəcəyinə əminlik bildirilib.

*Prezidentin Mətbuat Xidməti*

Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi seçkilərdə qələbə qazanması münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə o, "X" sosial şəbəkə hesabında yazıb. "İlham Əliyevi Azərbaycanda keçirilən prezident seçkilərində əldə etdiyi qəti qələbə münasibətilə təbrik edirəm", - deyə Pakistan Prezidenti vurğulayıb.

Təbrikində iki ölkə arasındakı davamlı dostluğu və əməkdaşlığı daha da gücləndirməyi səbirsizliklə gözlədiyini yazan A.Alvi bildirib: "Sizin liderliyiniz tərəqqi və sabitliyə ilham verməkdə davam edir. Pakistan davamlı dostluğumuzu və əməkdaşlığımızı gücləndirməyi səbirsizliklə gözləyir. Uğurlarınızın davamlı olmasını arzulayırıq!".

❖❖❖

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Prezident İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Şimali Kipr Prezidenti bu barədə "X" sosial şəbəkəsindəki səhifəsində paylaşım edib.

Paylaşımda bildirilib: "Azərbaycan Prezidenti vəzifəsinə seçkilərdə ilkin nəticələrə görə tarixi zəfərlə yenidən prezident seçilən cənab İlham Əliyevi ürəkdən təbrik edir, seçkilərin nəticələrinin bütün qardaş Azərbaycana xeyirli olmasını diləyirəm".

❖❖❖

Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Ramzan Kadırov bununla bağlı sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Hörmətli İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Hazırda seçkilərin ilkin nəticələri məlumdur, İlham Heydər oğlu inamla lider mövqeyini tutur. Azərbaycan vətəndaşlarının bu dəstəyi onu göstərir ki, İlham Heydər oğlu öz xalqının həqiqi lideridir. Yüksək peşəkarlığı və mənəvi keyfiyyətləri, təcrübəsi və mürəkkəb qərarları qəbul etmək bacarığı onu ölkənin siyasi və sosial həyatında əvəzolunmaz liderə çevirib".

Ramzan Kadırov İlham Əliyevin "mühüm sosial-iqtisadi istiqamətlərin inkişafını ehtiva edən" səmərəli daxili siyasətini vurğulayaraq yazıb: "İlham Əliyev tərəfdaş ölkələr, xüsusən Rusiya ilə diplomatik əlaqələrin möhkəmləndirilməsi üzərində yorulmadan çalışır. Bu, qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsinə kömək edir. Əminəm ki, İlham Heydər oğlunun rəhbərliyi ilə ölkə dinamik inkişafını davam etdirəcək, sürətlə tərəqqi edərək nüfuzunu daha da artıracaq".

# Ən böyük qələbə, ən mütəşəkkil seçki

## Dünənki seçkilər son 20 ilin rekord göstəriciləri ilə əlamətdar oldu

Dünənki prezident seçkiləri yalnız bütöv Azərbaycanda baş tutan ilk seçki kimi tarixə həkk olunmadı. Həm də son 20 il ərzində keçirilən prezident seçkilərində qalib namizədin qazandığı səslərin və seçici fəallığının möhtəşəmliyinə görə də rekord nəticə ilə əlamətdar oldu.

Belə ki, 2003-cü ilin 15 oktyabrında baş tutan və seçicilərin 71,23 faizinin iştirak etdiyi seçkilərdə prezidentliyə namizəd İlham Əliyev 76,84 faizlik etimadla qalib elan olundu. 2008-ci ilin 15 oktyabrında İlham Əliyevin 88,73 faizlə qalib gəldiyi seçkilərdə əhali fəallığı 75,66 faiz olmuşdu.

2013-cü ilin 9 oktyabrında keçirilən seçkilərdə İlham Əliyev 84,54 faizlə qalib gəlmiş, seçici fəallığı isə 72,31 faiz olmuşdu. 2018-ci ilin 11 aprelində isə nəticələr belə idi: İlham Əliyev - 86,02 faiz, seçici fəallığı 74,3 faiz.

Dünənki seçkilərdə isə seçici fəallığı 76,73 faiz təşkil etdi. İlkin nəticələrə görə, İlham Əliyev seçicilərin 92 faizindən artığının səsini qazandı. Son 20 ilin ən yüksək nəticələri olan bu göstəricilər xalqın tarixin ən qüdrətli Azərbaycanının və ən möhtəşəm Zəfərinin müəllifi olan İlham Əliyevə ümummilli dəstəyinin parlaq təzahürü oldu.

*"Azərbaycan"*

# Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan…

## Ən yüksək seçki fəallığı bu bölgələrdə oldu

Dünən keçirilən prezident seçkilərində ölkə üzrə seçici fəallığı 76,73 faiz təşkil edib. Əhali işğaldan azad edilmiş ərazilərdə yerləşən məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılıb. Bu bölgədə yaradılan 26 seçki məntəqəsi üzrə seçici fəallığı 93 faizdən çox olub.



Həmçinin seçki dairələri üzrə də ən yüksək nəticə 83.28 faizlə 122 saylı Xankəndi Seçki Dairəsində qeydə alınıb. Qarabağ və Şərqi Zəngəzur əhalisini təşkil edən dairələrdə seçki fəallığı ölkə üzrə orta göstəricidən yüksək olub. Belə ki, seçici fəallığı 123 saylı Kəlbəcər seçki dairəsində 80.57 faiz, 121 saylı Laçın seçki dairəsində 79.70 faiz, 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsində 78,86 faiz, 118 saylı Ağdam şəhər seçki dairəsində 78.64 faiz, 119 saylı Ağdam kənd seçki dairəsində 78.25 faiz təşkil edib.

Naxçıvanda mövcud olan 6 seçki dairəsində də seçici fəallığı 82 faizdən yüksək olub və muxtar respublika yenə də ölkə üzrə öncül mövqeyini qoruyub.

Qeyd edək ki, paytaxtda mövcud olan 31 seçki dairəsi üzrə ən yüksək nəticələr hər biri 83 faizdən artıq göstərici ilə 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi və 15 saylı Yasamal birinci Seçki Dairəsinə aid olub.

*"Azərbaycan"*

## *"Exit-poll"un rəyləri rəsmi nəticəni təsdiqlədi:*

# Qalib İlham Əliyevdir

**Ölkəmizdə daha bir tarixi hadisə yaşandı. Yüksək seçki mədəniyyətinin formalaşdığı Azərbaycanda prezident seçkiləri demokratik, şəffaf və seçicilərin yüksək fəallığı şəraitində baş tutdu.**

"Exit-poll"ların nəticələri də Mərkəzi Seçki Komissiyasının (MSK) informasiyaları ilə demək olar ki, üst-üstə düşdü və bu da bir daha seçkilərin demokratik tələblərə uyğun keçirildiyini aydın şəkildə nümayiş etdirdi.

Dünyada demokratik idarəetmə sisteminin əsas atributlarından sayılan seçkilərin şəffaflığını təmin etmək, ictimai rəyin sözügedən prosesə münasibətini öyrənmək üçün "exit-poll" adlandırılan tədqiqat növündən istifadə edilir. "Exit-poll" Mərkəzi Seçki Komissiyasının nəticələri rəsmən elan etməsindən əvvəl ilkin nəticələri əldə etmək imkanını yaradır, səsvermənin nəticələrinə ictimai nəzarəti həyata keçirir.

### *"Oracle Advisory Group"*

**İlham Əliyev - 93, 9 faiz**

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "Oracle Advisory Group" təşkilatı ilə birgə keçirdiyi "exit-poll"un ilkin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, İlham Əliyev 93,9 faiz, Zahid Oruc 1,8 faiz, Fazil Mustafa 1,5 faiz, Qüdrət Həsənquliyev 1,2 faiz, Razi Nurullayev 0,9 faiz, Elşad Musayev 0,4 faiz, Fuad Əliyev isə 0,3 faiz səs qazanıb.

### *"Rəy" Monitorinq Mərkəzi:*

**İlham Əliyev - 92,6 faiz**

"Rəy" Monitorinq Mərkəzi də növbədənkənar prezident seçkilərinin "exit-poll" nəticələrini elan edib. Nəticələrə əsasən İlham Əliyev 92,6 faiz, Razi Nurullayev 1,6 faiz, Fuad Əliyev 0,84 faiz, Fazil Mustafa 0,58 faiz, Qüdrət Həsənquliyev 0,46 faiz, Zahid Oruc 0,37 faiz, Elşad Musayev isə 0,11 faiz səs qazanıb.

### *Sosioloji Tədqiqatlar Mərkəzi:*

**İlham Əliyev - 92, 4 faiz**

Sosioloji Tədqiqatlar Mərkəzi 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində keçirilən "exit-poll"un nəitcələrini elan edib. Nəticələrə əsasən İlham Əliyev 92, 4 faiz, Zahid Oruc 2,2 faiz, Fazil Mustafa 2 faiz, Qüdrət Həsənquliyev 1,6 faiz, Elşad Musayev 0,8 faiz, Fuad Əliyev 0,4 faiz, Razi Nurullayev isə 0,3 faiz səs qazanıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Möhtəşəm etimad, halal qələbə

## Prezidentliyə namizədlər qalib alternativlərini - İlham Əliyevi böyük seçki zəfəri münasibətilə təbrik etdilər

Dünən günün sonunda Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin ilkin nəticələrini elan etdi. İlham Əliyevin seçki zəfərinin rəsmən bəyan olunması ilə paytaxtda və bölgələrdə vətəndaşlar kütləvi tədbirlər təşkil edərək sevinclərini bölüşdülər. Seçkilərin ilkin nəticələri ilə bağlı əməkdaşlarımız prezidentliyə namizədlərlə əlaqə saxlayıblar. Onlar dünənədək siyasi rəqibləri, bu gün isə artıq yenidən prezident seçilən İlham Əliyevi qəzetimiz vasitəsilə təbrik etdilər.

**Zahid ORUC:**

*"İlham Əliyevlə mübarizə aparmaq olduqca çətin olsa da, bu seçkilər komandamıza müsbət təcrübə qazandırdı"*

Prezidentliyə namizəd Zahid Orucun adından onun seçki qərargahı bəyanat yayıb. Bəyanatda deyilir: "44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərdən sonra ölkədə hökm sürən qalibiyyət ruhunun yeni ünvanı Azərbaycanda keçirilən prezident seçkiləri oldu. 2024-cü ildə 78 ölkədə 83 seçkinin keçirilməsi və son 3 ayda 24 ölkədə növbədənkənar seçkinin elan olunması, ən əsası Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi prezident seçkilərinin keçirilməsinin düzgün ali qərar olduğunu aşkar şəkildə ortaya qoyub.

Ölkədə bütün siyasi partiyalara, müstəqil təşkilat və birliklərə, həmçinin fərdi təşəbbüskarlara böyük imkanlar yaradılaraq onların seçkidə iştirakı təmin edilib. Bu fürsətdən istifadə edərək Zahid Oruc da, prezident seçkilərində müstəqil namizəd kimi iştirak etməyə qərar verib. Təbliğat-təşviqat prosesində Azərbaycanda keçirilən prezident seçkilərinin azadlıqların tam təmin edilməsi şəraitində, əsas hüquq və azadlıqların qanunla qorunması çərçivəsində keçirildiyi müşahidə edilmişdir. Demokratik prinsiplərin qorunduğu, qanunun aliliyinə əməl olunduğu, namizədlərə heç bir təzyiqin edilmədiyi şəraitdə keçirilən ədalətli və azad seçkilər namizədlər üçün əsl rəqabət meydanına çevrilib.

Öz xalqını qalibiyyətə çatdıran, ölkəsini Qalib ölkəyə çevirən namizəd İlham Əliyevlə mübarizə aparmaq olduqca çətin olsa da, bu seçkilər komandamıza müsbət təcrübə qazandırıb və xalqla daha yaxın ünsiyyətimizə imkan yaradıb. Müşahidəçilərimizin rəyinə əsasən, seçkilərin ilkin nəticələrini Azərbaycan xalqının iradəsinin göstəricisi hesab edir və bu seçkilərdə qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevi ürəkdən təbrik edirik. Prezident İlham Əliyevə qlobal miqyasda baş verən gərginliklər fonunda dünya ilə ayaqlaşa bilən yeni Azərbaycan yaratmaq uğrunda çətin və şərəfli fəaliyyətində uğurlar arzulayırıq".

**Qüdrət HƏSƏNQULİYEV:**

*"Seçkidə inamlı qələbə qazanan İlham Əliyevi təbrik edir, fəaliyyətində uğurlar arzu edirik"*

Prezidentliyə namizəd Qüdrət Həsənquliyevin rəhbəri olduğu Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası MSK-nın ilkin nəticələrindən sonra bəyanat yayıb. Bəyanatda deyilir: "Ölkəmizdə 7 fevral 2024-cü il tarixində keçirilən növbədənkənar prezident seçkilərində əsas rəqibinin Azərbaycan torpaqlarını işğaldan azad etmiş İlham Əliyevin olacağını bildiyindən seçkilərin elan olunduğu ilk günlərdə seçkilərə qatılmağa tərəddüd etsə də ölkəmizdə köklü islahatlara ehtiyac olması zərurətini qəbul edərək, "Ədalət, Hüquq, Demokratiya" şüarı, "Böyük Dəyişikliklər" seçki proqramı ilə prezident seçkilərinə qatıldıq. Seçkilərin nəticələrinə dair hər hansı illüziyaya qapılmasaq da əzmlə mübarizə apardıq. Səsvermə prosesini izləmək məqsədilə partiyamız ölkəni əhatə edən seçki müşahidəçilərini qeydiyyatdan keçirdi. Ümumilikdə partiyanın minlərlə müşahidəçisi, seçki qərargahının üzvləri seçki prosesini müsbət xarakterizə edib və nəticələrə təsir edə biləcək qanun pozuntularının olmadığını, nəticələrin vətəndaşların iradəsini ifadə etdiyini bildirib.

Seçkilərin nəticələri İlham Əliyevin inamlı qələbəsi ilə yanaşı, sivil ölkələrdə olduğu kimi, ölkəmizdə də güclü çoxpartiyalı sisitemin yaranmasına yol açacaq ciddi siyasi islahatların aparılması zərurətini növbəti dəfə nümayiş etdirib. Seçkinin legitimliyini şübhə altına alan iddiaları qəbul etmədiyini bəyan edir, seçkidə inamlı qələbə qazanaraq yenidən ölkə prezidenti seçilən İlham Əliyevi təbrik edir, fəaliyyətində uğurlar arzu edirik".

**Fazil MUSTAFA:**

*"İnanırıq ki, xalqımızın doğru seçiminin müsbət nəticələri qısa zamanda özünü göstərəcək"*

Prezidentliyə namizəd Fazil Mustafanın rəhbərlik etdiyi Böyük Quruluş Partiyasının yaydığı bəyanatda isə bildirilir ki, BQP seçkini yüzlərlə müşahidəçi ilə canlı müşahidə edib, həmçinin veb-kameralar quraşdırılmış məntəqələr partiyanın üzvləri tərəfindən davamlı izlənilib və müşahidəçilərin gün ərzində verdiyi məlumatlar seçki qərargahında təhlil edilib.

Partiyanın seçki qərargahının üzvləri müşahidəçilərin rəyinə əsasən belə hesab edirlər ki, prezident seçkiləri demokratik rəqabət mühitində keçirilib və seçki prosesində hər hansı ciddi qanun pozuntuları qeydə alınmayıb: "Biz, prezidentliyə namizəd Fazil Mustafanın seçki qərargahı olaraq bu prezident seçkilərinin ilkin nəticələrini tanıyır, səsvermənin ilkin nəticəsini qanuni hesab edir və Azərbaycan xalqının böyük etimadını qazanaraq prezident seçilən İlham Əliyevi qələbə münasibətilə təbrik edirik. İnanırıq ki, xalqımızın doğru seçim etdiyi öz müsbət nəticələrini qısa zamanda göstərəcək".

Fazil Mustafa isə qeyd edib ki, Azərbaycanda demokratik seçki keçirilməsi ənənəsinin növbəti mərhələsinə adladıq. Bütün ərazilərimizdə seçki keçirildi. Bu, çox vacib idi. Bu, Azərbaycanın gələcəyi üçün olduqca yeni üfüqlər açır.

**Razi NURULLAYEV:**

*"İlham Əliyev Azərbaycan xalqının böyük etimadını qazandı"*

Prezidentliyə namizəd Razi Nurullayevin rəhbərlik etdiyi Milli Cəbhə Partiyası seçkilərin ilkin və "exit poll"arın nəticələrinə görə Azərbaycan xalqının böyük etimadını qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilən İlham Əliyevi təbrik edib.

Partiyanın bəyanatında bildirilir ki, Vətən müharibəsində qalib gələrək Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qəhrəman xalqımızın bütün ölkə ərazisində ilk dəfə iştirak edəcəyi seçkilərə qatılmaq Milli Cəbhə Partiyası üzvləri və partiya funksionerlərinin yekdil qərarı ilə mümkün olub. Fevralın 7-də keçirilən seçkilərə hazırlıq müddətinin qısa olmasına baxmayaraq, Milli Cəbhə Partiyası bu seçkiləri partiyanın növbəti sınağı kimi dəyərləndirib. Partiyanın sədri Razi Nurullayevin namizədliyini irəli sürmək və qeydiyyata alınması üçün tələb edilən vətəndaş imzalarını toplamaq heç də asan olmayıb.

"Seçkilərin ilkin və "exit-poll"arın nəticələrinə görə Azərbaycan xalqının böyük etimadını qazanaraq növbəti müddətə prezident seçilən İlham Əliyevi partiyanın, seçki qərargahının üzvləri və Razi Nurullayevin adından təbrik edir, vətənə və millətimizə "xeyirli olsun" deyirik".

**Elşad MUSAYEV:**

*"Xalq yenidən Qalib Lideri olan İlham Əliyevə böyük dəstək göstərdi"*

Prezidentliyə namizəd Elşad Musayevin adından onun rəhbəri olduğu Böyük Azərbaycan Partiyasının yaydığı bəyanatda isə bildirilir ki, prezident seçkilərinə ölkə üçün taleyüklü məsələ, partiyanın güclənməsi və təcrübə qazanması üçün yeni sınaq kimi yanaşan BAP bu seçkilərdə təkcə müşahidəçi qalmaq istəmədi və öz namizədi ilə birbaşa iştirak etmək qərarı verdi.

Aktiv seçki kampaniyasının başlanmasından sonra ölkənin bir çox şəhər və rayonunda prezidentliyə namizəd Elşad Musayevin iştirakı ilə seçicilərlə görüşlər keçirilib. Seçki günü ölkənin bütün seçki məntəqələrində və dairələrində müşahidəçilərimiz əvvəldən sona qədər seçkini müşahidə edib və seçki qərargahını müşahidə edilən səsvermə prosesi ilə bağlı məlumatlandırıblar. Səslərin hesablanması prosedurlarının şəffaflığı, səsvermənin nəticələrinin Azərbaycan xalqının iradəsini ifadə etdiyinin təsdiqi oldu. "Böyük tarixi sınaqdan, qalibiyyətlə başa vurduğumuz Vətən müharibəsindən sonra keçirilən bu seçkilərdə xalq yenidən öz qalib lideri olan İlham Əliyevə böyük etimad göstərdi. Seçkilərin ilkin nəticələrini legitim hesab edir və qələbə münasibətilə İlham Əliyevi səmimi-qəlbdən təbrik edirik, ona çətin fəaliyyətində uğurlar arzulayırıq", - deyə bəyanatda qeyd olunub.

**Fuad ƏLİYEV:**

*"İlham Əliyevi ürəkdən təbrik edir və atacağı bütün addımlarda ona uğurlar arzulayırıq"*

Prezidentliyə namizəd Fuad Əliyevin seçki qərargahının yaydığı bəyanatda bilirilir ki, seçki günü bütün ölkə ərazisində 6 mindən çox seçki məntəqəsində və 125 dairənin hər birində müşahidəçilər seçkiləri izləyib və gün ərzində bir neçə dəfə vəziyyətlə bağlı qərargahı məlumatlandırıblar. İstər seçki öncəsi prosesdə, istərsə də səsvermə günü müşahidəçilər tərəfindən seçkinin nəticələrinə təsir edə biləcək neqativ hala rast gəlinməyib.

"Qətiyyətlə deyə bilərik ki, Azərbaycanda prezident seçkiləri dinc və sakit ab-havada keçmiş, seçkilərdə bütün namizədlər və müşahidəçilər üçün bərabər şərait yaradılmış, bütün seçki prosesi MSK tərəfindən qanunlara uyğun təşkil olunmuşdu.

Seçkilərin ilkin nəticəsi onu deməyə əsas verir ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə böyük etimad göstərib. Bu qələbə münasibətilə İlham Əliyevi ürəkdən təbrik edir və Prezidentə Azərbaycanın qüvvətlənməsi, insanlarımızın rifahının daha da yaxşılaşdırılması üçün atacağı bütün addımlarda uğurlar arzulayırıq", - deyə bəyanatda qeyd edilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Dövlət rəsmiləri səs verdilər








**Fevralın 7-də Prezident seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirildi. Hər bir seçki məntəqəsində yüksək seçici fəallığının müşahidə olunduğu prosesdə vətəndaşlarımız layiqli namizədə səs verdilər.**

Dünən səs verənlər arasında dövlət və hökumət rəsmiləri də oldu.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov 7 saylı Səbail rayon Seçki Dairəsinin 2 saylı seçki məntəqəsində, Milli Məclisin Sədri Sahibə Qafarova 19 saylı Nərimanov birinci Seçki Dairəsinin 11 saylı seçki məntəqəsində, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev isə 16 saylı Yasamal ikinci Seçki Dairəsinin 34 saylı seçki məntəqəsində səs verdilər.

*"Azərbaycan"*

# İlham Əliyevin zəfər mandatı

## Azərbaycanın yeni tarixi dövrü ümummilli etimadın təntənəsi ilə başlayır

**"İlkin nəticələrə görə, seçicilərin 92 faizinin səsini qazanan İlham Heydər oğlu Əliyev seçki birincisidir" - bu rəsmi məlumat dünənlə bu günü biri-birinə bağlayan gecənin həyəcanına milyonların sevincini qatdı...**

**Azərbaycan xalqı Xilaskar Liderinə olan inamını növbəti dəfə rəsmiləşdirdi, ona qarşıdakı 7 il üçün ümummilli etimadın yeni mandatını - ZƏFƏR MANDATI verdi!**

### Zəfər Komandanına ümummilli dəstək

Xalqın yüksək fəallığı, mütləq dəstəyi ilə baş tutan prezident seçkisi artıq tarixə qovuşdu. Və eyni zamanda tariximizin növbəti şanlı səhifəsinin ilk sətirlərinə, dövlət quruculuğunun yeni inkişaf, nailiyyət salnaməsinin başlanğıcına çevrildi.

Ötəngünkü səsvermə sıradan bir siyasi aksiya deyildi. Onun mahiyyətində dövlətin və millətin sabahı ilə bağlı olan əlahiddə məqamlar, yeni intibah, zəfər yolunun aydın məramları, ən əsası isə məhz Azərbaycanın özü, taleyi, müstəqilliyi dayanırdı.

Bu, Bütöv Azərbaycanda keçirilən ilk seçki idi!

Bu, iki əsrlik münaqişəyə son qoyan Zəfərin ilk seçkisi idi!

Bu, Müzəffər Ali Baş Komandanın qüdrətinin təcəssümü olan Xankəndidə baş tutan ilk seçki idi!

Əslində, Azərbaycan vətəndaşı 7 fevral seçkisinə təkcə Prezident seçkisi kimi yanaşmırdı!

Bu, həm də müəyyən mənada ümumxalq referendumu idi!

Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyev missiyasına xalqın növbəti etimad səsverməsi idi!

Eyni zamanda xalqın öz Prezidentinə və iqtidarına inamını, güvənini bir daha rəsmi şəkildə müəyyənləşdirən seçki idi!

Növbəti islahatlar kursunu, yeni tarixi dövrün başlanğıcını bəyan edən və gələcəyə daha çevik, modern, səmərəli idarəçilik modeli ilə addımlayan İlham Əliyevin siyasətinə xalqın güvən səviyyəsini dəqiqləşdirən rəy sorğusu idi!

Bu, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda İlham Əliyevin fəaliyyəti sayəsində zəfər qazanan, normal yaşayış, güzəran quran, daha xoş sabahına əmin olan, özünə və dövlətinə güvənən milyonların öz xilaskarlarına minnətdarlıq, inam aksiyası idi!

Bu, özünü siyasi səhnədə hərdən büruzə verən xaos, böhran kabusuna, onun daşıyıcılarına və xarici havadarlarına xalqın sonuncu qətiyyətli "yox"u idi!

### Ali Rəhbərə millətin Ali İradəsi

Pirallahıdan Zabuxa, Astaradan Kəlbəcərə, Qusardan Ağdama, Naxçıvandan Laçına, Zaqataladan Xocavəndədək hər yerdə, ən əsası isə Xocalıda, Şuşada, Xankəndidə hamı seçki məntəqələrinə axışırdı…

Kütləviliyin rəqəm göstəricisi nə qədər böyük olsa da, onun mənəvi mahiyyəti qarşısında çox kiçik görünürdü…

Ötən 30 il ərzində bütün seçkilərə "Azad Qarabağ" duası ilə qatılan 1 milyona yaxın həmvətənlimiz bu dəfəki seçkiyə artıq "məcburi köçkün" statusundan qurtulmağın qüruru, sevinci və minnətdarlığı ilə gedirdi…

Ali Rəhbərə milləti öz Ali İradəsini nümayiş etdirirdi…

Məmləkətin dörd bir yanından insanlar seçki məntəqələrinə qalib dövlətin vətəndaşı kimi iftixar hissi ilə daxil olur, oranı Xilaskarlarına əbədi ehtiramlarının ödənməsi duyğusu ilə fəxrlə tərk edirdilər…

"Xankəndidə seçki məntəqələri qarşısında növbə yaranmışdı"… "Şuşada yüksək seçici fəallığı müşahidə olundu"… "Kəlbəcərdə seçicilər həvəslə səs verirdilər"… "Laçında sakinlər yaradılan seçki şəraitindən razılıq edirlər"…

Azərbaycan vətəndaşları üçün bu xəbərlər Şuşa, Xocalı, Xankəndi zəfərinin müjdəsi qədər əzəmətli və müqəddəs idi…

10 milyonluq yurdun 60 milyonluq həmvətən qəlbi dünən Azərbaycanla döyünürdü, Azərbaycan üçün döyünürdü...

### İstiqlalımızın bayraqdarı

7 fevral Azərbaycanın yeni tarixinin ən məsuliyyətli seçim anı, xalqın isə müdriklik sınağı idi. Azərbaycan bu seçimdən də, bu sınaqdan da məsuliyyətlə, müdrikliklə, şərəflə çıxdı və dünyanı öz nailiyyətləri ilə heyran qoyan məmləkətin bəşəriyyəti öz bacarığı, qabiliyyəti ilə həmişə heyrətləndirəcək bir millət olduğunu nümayiş etdirdi.

Xalq ona möhtəşəm Zəfər bəxş edən liderinə, istiqlalımızın bayraqdarına, tarixin ən möhtəşəm Azərbaycanını yaradan İlham Əliyevə qarşıdakı 7 il üçün xeyir-duasını, dəstəyini verdi...

Dünən İlham Əliyev seçicilərin maksimum etimadını qazandı. Onu da etiraf edək ki, İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olmasını təmin edən amillərdən biri də onun xeyirxahlıq, himayədarlıq siyasətində əsas yardımçısı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyətidir. "Birinci şəxs-birinci xanım" tandemi Azərbaycanda mərhəmətin və xeyirxahlığın ən ali səviyyəsini, xalqın inam və etimad ünvanını təşkil edir.

Dünənki möhtəşəm seçki zəfərində istisnasız olaraq, Mehriban xanım Əliyevanın da mühüm töhfəsi, əlahiddə iştirakı vardı!

Bu gündən Azərbaycanda yeni tarixi mərhələ başlayır. Bu mərhələni də uğurla gedəcəyimizə, Azərbaycanı daha qüdrətli, müstəqilliyimizi daha dönməz edəcəyimizə əsla şübhə yoxdur.

Çünki dövlətimizin təminatçısı, istiqlalımızın bayraqdarı İlham Əliyev artıq dünya gündəminə daha güclü ümummilli dəstəklə, daha böyük etimadla, Bütöv Azərbaycanla qədəm qoyur!..

Prezident İlham Əliyevin qazandığı qələbə əslində, hər birimizin qələbəsidir!

Bu zəfər bizim qarşıdakı nailiyyətlərimizin müjdəçisi, daha xoşbəxt gələcəyin, güclü və qüdrətli Azərbaycanın rəhnidir!

*Prezident İlham Əliyev 20 il ərzində Azərbaycana sədaqətlə xidmət etdi və qarşıdakı yeddi ildə ölkəyə rəhbərlik etmək haqqını da halallıqla qazandı!*

*Deməк, bu missiyaya, bu siyasətə, bu kursa zaval yoxdur!..*

*Seçimin mübarək, Azərbaycan!..*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzindən Xankəndiyədək...

## İlham Əliyevin qələbəsi bütöv Azərbaycanda bayram əhvali-ruhiyyəsi yaratdı

Ölkəmizdə müstəqilliyin bərpasından sonra keçirilən sayca 9-cu prezident seçkiləri dövlətimizin və xalqımızın tarixinə, taleyinə mühüm hadisə kimi yazıldı. Azad, demokratik şəraitdə özünün seçmək və seçilmək hüquqlarından istifadə edən xalqımız növbəti dəfə də seçkilərin yüksək səviyyədə, beynəlxalq standartlara uyğun keçirilməsi üçün siyasi fəallıq göstərdi.





















Dünən seçkilərin ilkin nəticələri elan edildikdən sonra Bakıdan Xankəndiyə qədər şahidi olduğumuz yüksək əhvali-ruhiyyənin səbəbləri az deyildi. Çünki xalq qalib Sərkərdəsi İlham Əliyevin yenidən prezident seçilməsini böyük bayram əhvali-ruhiyyəsində qeyd etdi.

Prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsi münasibətilə Dənizkənarı Milli Parkda yürüş keçirilib. Yürüşdə minlərlə vətəndaş iştirak edib. Tədbirə qazilər, müharibə veteranları, şəhid ailələrinin üzvləri, Azərbaycanın Xalq və Əməkdar artistləri qatılıblar.

Heydər Əliyev Mərkəzinin parkına toplaşan minlərlə vətəndaş Zəfər seçkisinin nəticələrini böyük sevinclə qarşılayıblar. Prezident İlham Əliyevin daxili və xarici siyasi xəttini daim dəstəklədiklərini bildiriblər.

Otuz ildən sonra ilk dəfə Qarabağda prezident seçkilərinin keçirilməsi və İlham Əliyevin inamlı qələbəsi Xankəndi şəhərində də böyük coşqu ilə qeyd edilib. Şəhər sakinləri seçkilərin işğaldan azad edilmiş ərazilər daxil olmaqla bütün ölkədə yüksək səviyyədə keçirilməsindən məmnunluqlarını ifadə ediblər.

Şuşa şəhərində də avtomobillərin yürüşü və atəşfəşanlıq olub. Atəşfəşanlıq Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.

Bütün ölkə ərazisində olduğu kimi, işğaldan azad edilən və yenidən qurulan Füzulidə də sakinlər prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsini bayram əhvali-ruhiyyəsində qeyd ediblər.

Prezident seçkilərində İlham Əliyevin qələbəsi Laçın sakinlərinin də sevincinə səbəb olub. Şəhərin mərkəzi küçələrinə çıxan laçınlılar avtomobillərlə yürüş keçiriblər. Səhər saatlarından səsvermədə mütəşəkkil iştirak edən sakinlər günün sonunda bayram ab-havası ilə şəhərə çıxıblar. Laçının mərkəzi küçələrində milli musiqi sədaları altında avtomobillərin yürüşü olub. Şəhər sakinləri sevinc və qürur hisslərini bir-biriləri ilə bölüşüblər.

Ağdam sakinləri də böyük fərqlə seçicilərin səsini qazanan İlham Əliyevin qələbəsini xüsusi çoşqu ilə bayram ediblər. Ağdam rayonu sakini, keçmiş məcburi köçkün Şamxal Aslanov qeyd edib ki, bütöv Azərbaycanda gedən böyük quruculuq işlərinin uğurla davam etməsi, beynəlxalq səviyyədə Azərbaycanın nüfuzunun daha da artması, ilk növbədə Qarabağın işğaldan azad olunaraq suverenliyimizin tam bərpası xalqımız tərəfindən yüksək qiymətləndirilir. Odur ki, düzgün seçim edərək İlham Əliyevə yüksək inam, coşqu ilə səs verərək növbəti müddətə Prezident seçdi. Bu tarixi qərar da öz bəhrəsini göstərəcək. Çünki keçilən son iyirmi bir illik yol bunu deməyə bizə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# İlham Əliyev seçicilərin 92,05 faizinin səsini qazanaraq seçkilərin qalibi olub

## Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov seçkilərin ilkin yekunlarını açıqlayıb






**Fevralın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı mətbuat konfransı keçirib.**

AZƏRTAC xəbər verir ki, M.Pənahov 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsinin 6102-dən (93,35 faiz) nəticələrin MSK-ya daxil olduğunu bildirib. Qeyd edib ki, həmin protokollar üzrə etibarlı hesab edilmiş səslərin sayı 4 milyon 651 min 473-ə bərabərdir. Bu etibarlı səslər namizədlər arasında aşağıdakı kimi bölünüb:

Lider namizəd Əliyev İlham Heydər oğlu - 4 milyon 281 min 625 səs (92,05 faiz);
Əliyev Fuad Ağası oğlu - 24 min 799 səs (0,53 faiz);
Həsənquliyev Qüdrət Müzəffər oğlu - 81 min 799 səs (1,76 faiz);
Musayev Elşad Nəbi oğlu - 31 min 33 səs (0,67 faiz);
Mustafa Fazil Qəzənfər oğlu - 92 min 980 səs (2 faiz);
Nurullayev Razi Qulaməli oğlu - 37 min 386 səs (0,80 faiz);
Oruc Zahid Məhərrəm oğlu - 101 min 851 səs (2,19 faiz).

Məzahir Pənahov bildirib ki, beləliklə, çox az sayda məntəqə üzrə məlumatlar MSK-ya daxil olmayıb. Hesab edirəm ki, artıq səhərdən biz bu Dairə Seçki komissiyalarının protokollarını qəbul edəcək və həmin protokollar üzrə lider namizədin səslərini müəyyənləşdirəcəyik. Ayın 9-da Dairə Seçki komissiyalarının protokolları əsasında seçkinin nəticələrini ictimaiyyətə təqdim edəcəyik. Bundan sonra daxil olan sənədləri araşdırıb MSK-nın iclasına çıxaracaq və səsvermənin nəticələri ilə bağlı yekun protokolu təsdiqləyib qəbul edəcəyik. Beləliklə, MSK səviyyəsində seçkilərə yekun vurub protokolu təsdiq üçün Konstitusiya Məhkəməsinə göndərəcəyik. Konstitusiya Məhkəməsi MSK-nın təqdim etdiyi sənədləri araşdırıb qərar qəbul edəcək. Konstitusiya Məhkəməsinin qərarı qətidir və bu qərardan sonra lider namizəd seçilmiş hesab olunur. O, andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayacaq.

MSK-nın sədri qeyd edib ki, seçkilər çox yüksək səviyyədə hazırlanaraq keçirilib. Bu seçkilərdə Azərbaycan seçiciləri konstitusion hüquqlarını həyata keçirərək səs veriblər.

# Məzahir Pənahov bir sıra görüşlər keçirib







Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Macarıstan Mərkəzi Seçki Komissiyasının sədri Nagy Atilla Mihalinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Məzahir Pənahov əvvəlcə qonaqlara Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı Zəfər barədə məlumat verib.

Bildirib ki, 2020-ci ildə Azərbaycan öz ərazilərini işğaldan azad edib, 2023-cü ildə isə lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyünü tam bərpa edib. Seçkilərin ilk dəfədir bütöv Azərbaycan ərazisində keçirildiyini diqqətə çatdıran MSK-nın sədri ölkədə 6,5 milyon seçicinin olduğunu və onların 6537 məntəqədə səs verdiklərini deyib. O, işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğunu diqqətə çatdırıb.

Macarıstan Mərkəzi Seçki Komissiyasının sədri dəvətə görə minnətdarlığını bildirib, seçki prosesini sona qədər fəal şəkildə müşahidə edəcəklərini diqqətə çatdırıb.

❖ ❖ ❖

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 7-də Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxodjayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Məzahir Pənahov Azərbaycanla Özbəkistan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

O, qonaqlara seçki prosesi barədə məlumat verib. Bildirib ki, ölkəmizdə seçicilər və müşahidəçilər üçün bütün şərait yaradılıb.

Seçkiləri izləmək üçün 90 mindən çox müşahidəçinin qeydiyyata alındığını deyən M.Pənahov üç təşkilatın "exit-poll" keçirdiyini bildirib.

Özbəkistan nümayəndə heyətinin Azərbaycanda çox səmimi qarşılandığını qeyd edən Zayniddin Nizamxodjayev ölkələrimiz arasında sıx əlaqələrin olduğunu, hər iki ölkənin strateji tərəfdaşlıq münasibətləri qurduqlarını bildirib.

O, Azərbaycanda seçki komissiyalarının öz işlərini çox mükəmməl şəkildə qurduqlarını, müşahidələrinə əsasən, seçkilərdə xüsusilə də gənclərin daha fəal şəkildə iştirak etdiklərini bildirib. "Hər şey şəffaf və qaydalara uyğun şəkildə həyata keçirilir. Ümid edirik ki, Azərbaycan xalqı gələcək inkişafı naminə ən yaxşı namizədinə səs verəcək", - deyə o əlavə edib.

❖ ❖ ❖

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 7-də Türkiyə Yüksək Seçim Kurulunun sədri Ahmet Yenerin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri ilə görüşüb.

MSK-nın sədri əvvəlcə Türkiyənin son prezident seçkilərində dünyaya demokratiya dərsi verdiyini və qardaş ölkədə keçirilən seçkilərin Azərbaycanda həmişə diqqətlə izlənildiyini bildirib.

Sonra Məzahir Pənahov qonaqlara seçki prosesi barədə məlumat verib. O, ölkəmizdə medianın müstəqil olduğunu və seçki prosesini izləmək üçün onlara lazımi şəraitin yaradıldığını deyib.





MSK-nın sədri seçkiləri izləmək üçün 90 mindən çox müşahidəçinin qeydiyyatdan keçdiyini, onlardan 790-nın beynəlxalq müşahidəçi olduğunu, 3 təşkilatın isə "exit-poll" aparmaq üçün qeydiyyata alındığını diqqətə çatdırıb.

Türkiyə Yüksek Seçim Kurulunun sədri Ahmet Yener səhər saatlarından etibarən məntəqələrdə yüksək seçici fəallığının müşahidə edildiyini bildirib. O, seçkiyə bu dərəcədə marağın olmasını çox sevindirici hal kimi qiymətləndirib.

A.Yener məntəqə seçki komissiyalarının üzvlərinin yaxşı fəaliyyət göstərdiklərini, hər kəsin öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdiyini vurğulayıb.

O, diqqətə çatdırıb ki, seçki prosesi şəffaf şəkildə həyata keçirilir. Məntəqələrdə seçici fəallığı çox yüksəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Rusiya, Serbiya, Qırğızıstan, Belarus və Bolqarıstan Mərkəzi Seçki komissiyalarının nümayəndələri ilə görüşüb.

MSK-nın sədri qonaqları seçki prosesi barədə məlumatlandırıb.

Bildirilib ki, ilk dəfədir seçkilər bütöv Azərbaycan ərazisində keçirilir. İşğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğu və seçki məntəqələrində bütün lazımi şəraitin yaradıldığı diqqətə çatdırılıb.

M.Pənahov qeyd edib ki, seçkilərlə əlaqədar ümumilikdə 6537 məntəqə yaradılıb.

MSK rəhbəri, həmçinin seçkilərdə 7 namizədin iştirak etdiyini, onlardan 5-nin siyasi partiya təmsilçisi olduğunu xatırladıb. Deyib ki, seçkiləri izləmək üçün 90 mindən çox müşahidəçi qeydə alınıb.

Nümayəndə heyətinin üzvləri öz növbələrində seçki prosesini izləməyə dəvətə görə təşəkkürlərini bildiriblər.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 7-də Türkmənistan və Tacikistan Mərkəzi Seçki komissiyalarının rəhbərlərinin başçılıq etdikləri nümayəndə heyətləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Məzahir Pənahov ölkəmizdə keçirilən seçkilər barədə məlumat verib. Bildirib ki, seçkilərdə səsvermə üçün 6537 seçki məntəqəsi yaradılıb. Vətəndaşların siyasi iradələrini sərbəst şəkildə ifadə etmək, həmçinin səsvermənin qanunvericiliyə uyğun və şəffaf şəkildə keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb, 1000 məntəqədə veb-kameralar quraşdırılıb.

Budəfəki seçkilərin tarixi əhəmiyyət daşıdığını, ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirildiyini vurğulayan MSK-nın sədri işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin yaradıldığını qonaqların diqqətinə çatdırıb. Türkmənistan Mərkəzi Seçki Komissiyasının sədri Qulmurat Muratov Azərbaycanda seçkilərin şəffaf şəkildə keçirildiyini, seçicilərin rahat və təhlükəsiz şəraitdə səs vermələri üçün bütün lazımi şəraitin yaradıldığını qeyd edib.

O, seçkilərdə bütün yaş kateqoriyalarından olan vətəndaşların iştirakını müşahidə etdiklərini söyləyib.

Tacikistan Mərkəzi Seçki Komissiyasının sədri Baxtiyor Xudoyorzoda da öz növbəsində seçkilərin şəffaf şəkildə keçirildiyini, seçki prosesində müasir texniki avadanlıqlardan istifadə edildiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.








# Prezidentliyə namizədlər səs verdilər

Fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərində namizədliyi qeydə alınmış 7 nəfərin hamısı səsvermə hüququndan yararlanıb.

Yeni Azərbaycan Partiyasının namizədi, Prezident **İlham Əliyev** Xankəndi şəhərində 122 saylı Seçki Dairəsinin 14 saylı seçki məntəqəsində səs verib.

Prezidentliyə namizəd **Zahid Oruc** 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 18 saylı məntəqəsində səs verib. Səsvermədən sonra açıqlama verən prezidentliyə namizəd məntəqədəki seçici aktivliyini ölkədəki mənzərənin əyani təzahürü adlandırıb. Onun sözlərinə görə, 20 faiz yükdən azad olmaq təkcə coğrafi bütövlüyü yox, həm də vətəndaş bütövlüyü yaradıb: "7 fevraldan sonra yeni bir gündəlik formalaşır. 30 il ərzində bizə iradəmizdən kənar amilli gündəlik diktə olunmuşdu. Seçkilərdən sonra mən hesab edirəm ki, Azərbaycana olan beynəlxalq təzyiqlər azalacaq və ya dayanacaq. Hansısa standartı Avropa ilə müqayisədə görməyən qüvvələr belə, millətin məntəqələrdəki bugünkü iradəsini görüb qiymətləndirəcəklər. Görəcəklər ki, bu xalqın iradəsidir. Millətin mövqeyi olan yerdə kimin qalib gəlməsindən asılı olmayaraq, hamı qalib olacaq".

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi **Qüdrət Həsənquliyev** 7 saylı Səbail Seçki Dairəsinin 38 saylı məntəqəsində səsvermə hüququndan istifadə edib.

Prezidentliyə namizəd, Böyük Quruluş Partiyasının sədri **Fazil Mustafa** 26 saylı Sabunçu I Seçki Dairəsinin 13 saylı məntəqəsində səsvermə hüququndan istifadə edib. Prezidentliyə namizəd bəyan edib ki, bu seçki Azərbaycanda yeniləşmə dövrünün başlanğıcı kimi xarakterizə olunur. Ona görə də əhali seçki məntəqələrinə gəlib səs verməli, vətəndaşlıq borclarını yerinə yetirməlidirlər: "Ümid edirəm ki, seçkilər Azərbaycanda yeniləşmə prosesinin, yeni islahatların başlanğıcı olacaq. Xalqın səsi ilə kim qalib gələcəksə, o namizəd də faydalı işlər görməyə davam etməlidir. Bütövlükdə Azərbaycan cəmiyyətinin problemləri hələ bitməyib. Çünki qələbə qazanmışıq və bu Zəfərdən sonra ölkəmizə böyük basqı var. Təhlükələr hələ qalmaqdadır. Ona görə də bütün hallarda, seçkinin nəticəsinin necə olmasından asılı olmayaraq, biz birliyimizi, həmrəyliyimizi qorumalıyıq. Ölkəmizin gələcəyi üçün əl-ələ verib daha yaxşı rifah içərisində yaşamağımızı təmin edəcək cəmiyyətə qovuşmağa dəstək olmalıyıq".



Böyük Azərbaycan Partiyasının sədri **Elşad Musayev** də səsvermə hüququndan istifadə edib. Prezidentliyə namizəd 19 saylı Nərimanov I Seçki Dairəsinin 3 saylı məntəqəsində səs verib.

Milli Cəbhə Partiyasının prezidentliyə namizədi **Razi Nurullayev** 8 saylı Binəqədi I Seçki Dairəsinin 12 saylı seçki məntəqəsində səs verib. Səsvermə hüququndan istifadə etdikdən sonra prezidentliyə namizəd fikirlərini bölüşüb: "Bu gün Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə olaraq prezident seçkiləri keçirilir. Bu münasibətlə xalqımızı təbrik edirəm. Seçilən prezident Azərbaycan xalqının gözləntisini doğruldacaq. Ümid edirəm və inanıram ki, Azərbaycan daha da güclənəcək. Azərbaycan bütün mövcud problemlərini arxada qoyacaq. Azərbaycan xalqı gözəl yaşayışı öz həyatında birmənalı olaraq hiss edəcək. Bu seçkilərin önəmi ondan ibarətdir ki, bütün Azərbaycan seçiciləri öz torpaqlarını azad görərək, ölkəsini suveren bilərək səs verdi. Mən bu ana qədər olan məlumatlardan onu bilirəm ki, seçkidə yüksək fəallıq müşahidə edilir və bu, çox sevindirici haldır. Deməli ki, Azərbaycan xalqının bu seçkilərdən gözləntisi böyükdür. Bu 7 namizəddən hansı seçilərsə, Azərbaycan xalqının da gözləntisini doğruldacaq".

Prezidentliyə namizəd **Fuad Əliyev** 34 saylı Xətai II Seçki Dairəsinin 19 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib. Səsvermədən sonra Fuad Əliyev bəyan edib ki, bu bir zəfər seçkisidir və məhz belə bir seçkidə iştirak etdiyi üçün qürurludur: "Artıq seçkilər işğaldan azad olunmuş torpaqlarımızda da keçirilir. Bu çox sevindirici haldır. Seçkilər xalqımıza, millətimizə uğurlu olsun".

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Seçici fəallığı "exit-poll"u da təəccübləndirdi

## Vətəndaşlar həm səsvermədə, həm də anonim sorğularda aktivlik nümayiş etdirdilər





Dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların kütləvi iştirak forması olan prezident seçkiləri xalqın iradəsinin ifadəsi sayılır. Seçkilərin məntiqi yekunu olaraq hər bir xalq taleyini inandığı, etibar etdiyi siyasi qüvvəyə bağlayır.

Seçkilər zamanı prioritet məsələlərdən biri onun şəffaf, ədalətli və demokratik keçirilməsidir. Bunun üçün "exit-poll"un keçirilməsinin mühüm əhəmiyyəti var.

Dünən ölkəmizdə keçirilən prezident seçkilərində 3 təşkilat "exit-poll" keçirib - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə 40 seçki dairəsi üzrə 500 seçki məntəqəsində, Rəy Monitorinq Mərkəzi 33 seçki dairəsi üzrə 200 seçki məntəqəsində, "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində.

### Könüllü və anonim

"Exit-poll" səsvermə başlamazdan əvvəl məntəqənin səsvermə üçün yararlılığını yoxlayır, seçici siyahısı ilə tanış olur, səsvermə başladığı vaxtdan səsvermənin nəticələri üzrə rəsmi protokalların tərtib olunmasına kimi prosesi, seçicilərin səslərinin təkrar hesablanmasını, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını izləyir, müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb edir, nəticələr haqqında rəsmi protokolların surətlərini əldə edir və sairə.






"Exit-pol"da iştirak könüllü və anonimdir. Proses seçki məntəqəsindən bir qədər aralıda qoyulan seçki qutularına təkrar səs verilməsi yolu ilə aparılır. Seçki günü sorğu aparan əməkdaşlar seçicilərə məntəqələri tərk etdikləri zaman kimə səs verdikləri barədə sual ünvanlayırlar. Sorğu anonim aparılır və seçicinin cavabları heç kimə göstərilmir. Seçicilər "exit-poll" sorğu vərəqini təklikdə doldurur, sonra onu "exit-poll" qutusuna atırlar. Səslərin hesablanmasının yekun nəticələri "exit-poll"un gözlənilən xəta həddindən kənara çıxarsa, bu zaman səslərin rəsmi hesablanmasının saxta olması barədə şübhələr yaranır.

### Seçicilər tərəddüd etmədən sorğularda iştirak ediblər

Biz də seçki prosesini izləmək üçün paytaxtın müxtəlif seçki dairələrinin məntəqələrində olduq. Məntəqələrin qarşısında "exit-poll"un keçirilməsini müşahidə etdik, seçicilərin fikirlərini öyrəndik.



7 saylı Səbail Seçki Dairəsininin 1 saylı seçki məntəqəsində də "exit-poll" keçirildiyini müşahidə etdik. 6 nömrəli məktəbin həyətində quraşdırılan məntəqədə Rəy Monitorinq Mərkəzi tərəfindən "exit-poll" keçirilirdi. Mərkəzin nümayəndəsi Təhminə Ömərova qeyd etdi ki, səhər saatlarından başlayaraq məntəqədə "exit-poll" həyata keçirilir: "Seçicilər olduqca fəaldırlar. Digər məntəqələrdə də nümayəndələrimiz fəaliyyət göstərirlər. İnsanlar tərəddüd etmədən əməkdaşlıq edirlər. Suallarımızı rahat şəkildə cavablandırırlar".

"Exit-poll" nümayəndəsi vurğulayır ki, sorğunun anonim keçirilməsi seçicilərdə xüsusilə rahatlıq yaradır. Ona görə də heç bir etirazla qarşılaşmırlar. Bugünkü sorğuda isə orta nəslin nümayəndələri fəallıqları ilə seçilirlər.

"Exit-poll" sorğusunda iştirak edən seçici Süsən Teymurova bildirdi ki, indiyədək səs verdiyi bütün seçkilərdə aparılan sorğularda böyük məmnuniyyətlə iştirak edib.

15 saylı Yasamal I Seçki Dairəsinin 4 saylı seçki məntəqəsinə də baş çəkdik. 2 nömrəli Bakı Baza Tibb Kollecində həm Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ilə ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı, həm də Rəy Monitorinq Mərkəzi tərəfindən "exit-poll" keçirilirdi.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının nümayəndəsi Şəfa Zeynalova söylədi ki, seçicilər fəallıqları ilə onları təəccübləndirib: "Sorğuda əsasən gənclər fəal iştirak edirdilər. Hətta bu seçkilər onların əksəriyyətinin iştirak etdiyi ilk seçkilər idi". O, səhər saat 07:00-dan məntəqədə fəaliyyət göstərdiklərini qeyd edib və səsvermə bitənə qədər sorğunu davam etdirəcəklərini bildirib.

"Exit-poll" nümayəndəsi anonim sorğunun keçirilməsi üçün yaradılan şəraitə görə də qurumun adından təşəkkürünü bildirib.

Məntəqədə sorğu keçirən Rəy Monitorinq Mərkəzinin əməkdaşı Aytac Behbudlu da vətəndaşların fəallığından söz açaraq bildirdi ki, hətta bir çox seçicilər özləri yaxınlaşıb sorğuda iştirak etmək istədiklərini bildiriblər.

Sorğuda iştirak edən Valeh Abdullayev Zəfərdən sonra keçirilən ilk prezident seçkilərində iştirak etdiyi üçün çox qürurlu olduğunu bildirdi. "Bu gün rahat şəkildə səsvermə hüququmdan istifadə etdim. Bu zaman heç bir problemlə üzləşmədim. Seçkinin ədalətli və şəffaf keçirilməsinə heç bir şübhəmiz yoxdur. Sorğu anonim keçirilməsə belə, yenə də iştirak edərdim", - deyə o əlavə etdi.

Baş çəkdiyimiz məntəqələrdə biz işimizi yekunlaşdırsaq da, "exit-poll" nümayəndələrinin işi hələ davam edirdi. Onlar səsvermə bitənədək sorğu keçirməyə davam edəcəkdilər.

Qeyd edək ki, bu məntəqələrdən əlavə, paytaxtın digər rayonlarında, eyni zamanda respublikamızın bölgələrində, həmçinin işğaldan azad olunmuş torpaqlarda üç təşkilat tərəfindən "exit-pol"lar keçirilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Veb-kameralar sınaqdan bu dəfə də uğurla çıxdı

Seçkilərdə şəffaflığın beynəlxalq standartlara uyğun, yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarından da geniş istifadə olunur.






Bu seçki prosesinin əvvəldən axıradək fasiləsiz izlənməsinə, geniş və hərtərəfli müşahidə aparılmasına, beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır.

Bu mənada ilk dəfə 2008-ci ildə prezident seçkiləri zamanı səsvermə məntəqələrinə quraşdırılan veb-kameralar ölkəmizdə seçkilərin şəffaflığının daha dolğun təmin edilməsi istiqamətində aparılan işlərin mühüm tərkib hissəsidir. Sonralar bütün seçkilərdə və referendumlarda istifadə edilən veb-kameralar sınaqdan uğurla çıxıb.

Ölkəmizin həyatında mühüm siyasi hadisə olan 7 fevral prezident seçkilərinin hazırlanıb keçirilməsində də şəffaflığın təmin edilməsi ən mühüm prinsiplərdən biri idi. Odur ki, əvvəllər seçkilərdə uğurla tətbiq olunan və seçki məntəqələrinə fiziki baş çəkmədən, internet üzərindən səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu dəfə də davam etdirildi. Belə ki, səsvermə günü seçki məntəqələrində proseslərin bütünlüklə izlənilməsi məqsədilə ölkəmizin coğrafiyasını əhatə edən 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı.

Dünən internet istifadəçiləri həm ölkə daxilindən, həm də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arası kəsilmədən birbaşa müşahidə etmək imkanına malik oldular. Veb-kameralar stasionar qaydada quraşdırılmışdı və onlar hərəkət etmədiyi üçün yalnız yönəldiyi istiqaməti izləmək mümkün idi. Əlbəttə, onların hərəkətinə ehtiyac da yox idi. Çünki yönəldikləri istiqamətdə səsvermə məntəqəsində baş verən bütün prosesləri izləmək olurdu.

Ən çox veb-kamera 114 saylı Şəki şəhər Seçki Dairəsinin payına düşmüşdü. Belə ki, bu seçki dairəsinin 18 səsvermə məntəqəsində veb-kamera quraşdırılmışdı.

Dünyanın əksər inkişaf etmiş ölkələrində belə seçki prosesinin bu cür şəffaflığına rast gəlmək mümkün deyil. Lakin 2008-ci ildən tətbiq olunduğu üçün veb-kameralardan istifadə Azərbaycanın seçki praktikası üçün artıq yenilik sayılmır. Bununla belə, veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün kameraların quraşdırılması, tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Veb-kameralarla əldə edilən videogörüntülər mərkəzləşdirilmiş qaydada yazılır və onlardan şikayətlərin araşdırılması zamanı sübut kimi istifadə etmək mümkündür.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Beynəlxalq müşahidəçilər seçki prosesini yüksək qiymətləndirirlər

Ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində iştirak üçün 760 nəfəri beynəlxalq müşahidəçi olmaqla, ümumilikdə 90 min 272 müşahidəçi qeydiyyatdan keçib. Hər biri mötəbər təşkilatlardan olan həmin beynəlxalq müşahidəçilər respublikamızın müxtəlif bölgələrində, habelə paytaxt Bakıda və işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən məntəqələrdə seçki prosesini izləyiblər. Beynəlxalq müşahidəçilər Zəfər seçkisinin tam şəffaf və demokratik təşkilini, seçici fəallığının yüksək səviyyədə olmasını qeyd ediblər.

***Artur Gerasimov,***
*ATƏT Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT DTİHB) qısamüddətli müşahidəçilər missiyasının Xüsusi Koordinatoru və rəhbəri:*



- ATƏT-in seçki müşahidə missiyası bizim bütün ölkələrdə həyata keçirdiyimiz ümumi bir layihədir. Bu layihəyə ATƏT PA-dan olan qısamüddətli müşahidəçilər, ATƏT DTİHB-dən olan uzunmüddətli müşahidəçilər və DTİHB-dən olan qısamüddətli müşahidəçilər daxildir. Müşahidəçilərin ümumi sayı 300-dən çoxdur. Onlar Bakıda, Sumqayıtda, Naxçıvanda və ölkənin digər regionlarında seçkini müşahidə edirlər. Məqsəd seçkilərin standartlara uyğun olub-olmamasını müəyyən etməkdir. Burada aydın prinsiplər, standartlar, prosedur qaydalar var. Biz seçkinin bu qaydalara uyğun keçirilib-keçirilməməsini qiymətləndiririk.

***Ahmet Yener,***
*Türkiyə Yüksək Seçim Kurulunun (YSK) sədri:*



- Bu gün Azərbaycanda keçirilən prezident seçkilərində seçicilərin çox böyük marağı var və seçkilər şəffaf şəkildə keçirilir. Hələ səhər saatlarında sırada gözləyən seçiciləri görəndə əmin olduq ki, vətəndaşlar səsverməyə çox maraqlıdır və onların səsverməsi üçün lazımi şərait yaradılıb. Məntəqə üzvləri çox peşəkar davranır, mətbuat nümayəndələri, müşahidəçilər də fəallıq nümayiş etdirirlər. Mən xüsusi qeyd edim ki, qadın seçicilərin marağı daha çoxdur və bu, bizi sevindirir.

***Sergey Lebedev***
*Müstəqil Dövlətlər Birliyinin (MDB) müşahidəçilər missiyasının rəhbəri, MDB-nin Baş katibi:*



- Azərbaycanda növbədənkənar prezident seçkilərində bütün namizədlərə bərabər imkanlar yaradılıb. KİV-də bütün namizədlərin seçki kampaniyası informasiya baxımından çox yaxşı işıqlandırılıb. Prezidentliyə namizədlərə öz proqramlarını televiziya və çap mətbuatında təqdim etmək imkanı yaradılıb və uzunmüddətli müşahidəçilərimiz bu prosesi yaxından izləyiblər. Yəni bütün namizədlərə bərabər imkanlar yaradılıb. Bu, müsbət amildir. Onu da qeyd edək ki, beynəlxalq təşkilatlar Azərbaycanda prezident seçkilərinin monitorinqinə böyük maraq göstərirlər.

***Zayniddin Nizamxodjayev,***
*Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri:*



- Bu gün Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri ilə bağlı prosesi izləmək mənim üçün çox xoşdur. Seçki komissiyaları öz işlərini mükəmməl şəkildə qurublar. Müşahidələrimizə əsasən, seçicilər fəallığı nümayiş etdirirlər, xüsusilə gənclər üstünlük təşkil edir. Hər şey şəffaf və qaydalara uyğun şəkildə həyata keçirilir. Ümid edirik ki, Azərbaycan xalqı gələcək inkişafı naminə ən yaxşı namizədinə səs verəcək.

***Şamil Ayrım,***
*Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri:*



- Türkiyədən gələn həmkarlarımla birlikdə bir neçə seçki məntəqəsində olmuşuq. Müşahidə etdik ki, Azərbaycan vətəndaşları çox sərbəst və fəal şəkildə səs verirlər. Seçicilər adlarını siyahıda rahatlıqla tapa bilirlər, səsvermə kabinələri səliqəli şəkildə düzülüb. Yəni hər kəsin istədiyi namizədə səs verməsi üçün əlverişli şərait yaradılıb. Həmçinin heç bir qayda pozuntusuna rast gəlməmişik. İnanırıq ki, seçkilər uğurla keçəcək və Azərbaycan Cənubi Qafqazın parlayan ulduzu olmaqda davam edəcək.

***Aleksey Juravlyov,***
*Rusiya Dövlət Dumasının deputatı:*



- Seçki məntəqələrində belə uzun növbələrə tez-tez rast gəlinmir. Bu fəallıq xalqın birliyindən xəbər verir. Hər məntəqədə müxtəlif ölkələrdən və ictimai təşkilatlardan çoxsaylı müşahidəçilər var. Səsvermə prosesinin monitorinqi zamanı heç bir qanun pozuntusu aşkar edilməyib. Ümumiyyətlə seçki məntəqələri mütəşəkkil iş aparıblar.

***Edqar Renyeri Kastilo Maçade,***
*Qoşulmama Hərəkatının (QH) Gənclər Şəbəkəsinin nümayəndəsi:*



- Azərbaycanda keçirilən seçkilər vətəndaşların iradəsinin demokratik ifadəsini əks etdirir. Biz hər yaş qrupuna daxil insanların səsvermədə iştirak etdiyini müşahidə etmişik. Seçkilərin keçirilməsi ilə bağlı qayda-qanunlara və prosedurlara tam riayət edilir. Ümumxalq səsverməsinin gedişini yüksək qiymətləndiririk.

***Osman Mesten,***
*Xankəndi şəhərində prezident seçkilərini müşahidə edən Türkiyə Böyük Millət Məclisinin deputatı:*



- Azərbaycan seçiciləri çox duyğulu və qürurludurlar. Onları başa düşürük. Açığı, bu, bizim üçün də çox həyəcanlı və tarixi missiyadır. Çünki işğaldan azad edilmiş Qarabağ torpaqlarında ilk dəfədir ki, seçki keçirilir. Xoşbəxtik ki, burada müşahidəçilik bizə qismət oldu. Müşahidəçiliyə Şuşadan başlayıb daha sonra Xankəndidə seçki prosesini izləmişik. Hər şey demokratik və şəffafdır. Ulu Öndər Heydər Əliyevin təbirincə, biz "tək millət, iki dövlət"ik. Bundan sonra türk birliyi olaraq, həm də "tək millət, yeddi dövlət" olacağıq. Bu mənada, Azərbaycanın torpaqlarını düşmən işğalından azad etməsi bütün türk dünyasının zəfəridir. Bu seçkilərin Azərbaycana və bütün türk dünyasına uğurlu olmasını diləyirəm!

***Anna Skroznolkova,***
*Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) müşahidəçisi:*



- Seçkilərdə hər şey şəffaf və demokratik təşkil olunub. Heç bir problemlə qarşılaşmamışıq. Seçici fəallığı müşahidə edilir. Rusiyadakı kimi proses yüksək səviyyədə keçir.

***Ahsan Hamid Durrani,***
*Pakistanın Siyasi Araşdırmalar Mərkəzinin direktoru:*



- Xalqda böyük ruh yüksəkliyi müşahidə edilir. Azərbaycanda güclü və bitərəf institutlar, xüsusən də bu seçkilərin keçirilməsinə cavabdeh olan seçki komissiyası var. Seçkilər azad, ədalətli və şəffafdır. Mərkəzi Seçki Komissiyasının beynəlxalq müşahidəçiləri dəvət etməsi seçkilərin bütövlüyünün qorunduğunu göstərir. Müşahidəçi kimi müxtəlif seçki məntəqələrinə baş çəkib, orada səsvermə və səslərin hesablanması prosesini dəyərləndirmişəm. Əminəm ki, bu seçki Azərbaycan demokratiyasını gücləndirəcək. Bu seçki həm də ona görə xüsusidir ki, Ermənistan işğalından azad edilmiş ərazilərdə ilk dəfədir ki, prezident seçkiləri keçirilir. Bu, Azərbaycan tarixində mühüm bir səhifədir. İşğaldan azad olunan rayonların əhalisi də demokratiya imkanlarından faydalana bilirlər. Həmin ərazilərdə prezident seçkilərinin keçirilməsi təqdirəlayiqdir və müsbət qiymətləndirilməlidir.

***Daniela de Ridder,***
*ATƏT PA missiyasının rəhbəri:*

- Azərbaycanda keçirilən prezident seçkilərində nə qədər insanın səs verməyə gəlməsi bizi heyrətləndirdi. Biz digər parlamentarilərlə birlikdə seçki prosesini diqqətlə izlədik. Seçicilərin səsvermədə fəal iştirakını müşahidə etdik. Bir çox seçki məntəqəsində seçici izdihamı bizi heyran qoydu.



***Məhəmməd Rza Məcidi,***
*Asiya Parlament Assambleyasının baş katibi:*

- Bu seçkilər demokratiyanın milli təntənəsidir. Azərbaycan xalqını və hökumətini bu milli bayram münasibətilə təbrik edirəm, çünki seçkilər demokratiyanın milli bayramıdır. Bakıda seçki proseduru şəffafdır, hər şey qanun çərçivəsində baş verir. Seçkilərin nəticəsi regionda demokratiyanın sütunlarını və əsaslarını daha da gücləndirəcək. Asiya Parlament Assambleyasının baş katibi kimi mən bu gün burada, Azərbaycan xalqı arasında olmaqdan çox məmnunam. Onu da xüsusi vurğulamaq istəyirəm ki, bu aydan etibarən Asiya Parlament Assambleyasının yeni prezidenti Azərbaycan parlamentindən olacaq.



***Mixail Papiyev,***
*GUAM-ın Parlament Assambleyasının müşahidəçisi, Ukrayna Ali Radasının deputatı:*



- Müşahidəçi qismində Sumqayıtı ziyarət etdik, 4 seçki məntəqəsində olduq. Bakıda da bir çox məntəqəni ziyarət etmişik. Seçkilərdə pozuntulara rast gəlməmişik. GUAM-ın müşahidəçisi kimi, olduğum məntəqələrin hər birində seçkilərin təmiz, şəffaf və demokratik keçdiyini deyə bilərəm.

***Cayada Salvador,***
*İtaliya parlamentinin nümayəndəsi:*



- İlk dəfədir ki, Azərbaycandayam. Baş çəkdiyimiz məntəqələrdə seçkilərin şəffaf keçirildiyini müşahidə etmişik. İtaliya ilə müqayisədə Azərbaycanda seçki fəallığı daha yüksəkdir. Bu, çox sevindiricidir. Həmçinin prosesdə hər hansı pozuntu və qanunsuzluğun qeydə alınmaması da təqdirəlayiqdir.

***Sandra Boziç,***
*Serbiya Milli Assambleyasının müşahidə heyətinin rəhbəri:*



- Şuşada səsvermə prosesi demokratik qaydalara, dəyərlərə və prinsiplərə tam uyğun şəkildə keçirilir. Seçki prosesindən çox razıyıq. İlk növbədə seçkiləri məhz Şuşadan izlədiyim üçün Azərbaycan Milli Məclisinin dəvətinə görə təşəkkürümü bildirirəm. Bildiyim qədəri ilə Azərbaycanın bu hissəsinə, Qarabağa gedən ilk xarici müşahidəçi heyət idik. Burada olduğuma görə çox şadam, hər şey olmalı olduğu kimidir. Seçki prosesi demokratik prinsiplərə uyğun aparılır. Şuşada səs verməli olan seçicilər də fəallıq nümayiş etdirirlər. Bu, çox müsbət haldır. Onu da qeyd edim ki, Serbiya xalqı Azərbaycanı dost kimi görür. Biz Azərbaycan və Serbiya dostluğuna tam sadiqik və bu əməkdaşlığa görə prezidentlərimiz Əliyev və Vuçiçə təşəkkür etməliyik.

***Kubanıçbek Ömüralıyev,***
*Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi:*

- Türk Dövlətləri Təşkilatının missiyası iki hissəyə bölünərək seçkiləri müşahidə edib. Missiya üzvləri TDT-də təmsil olunan dövlətlərin seçki qurumlarının üzvləridir. TDT-nin missiyasının bir hissəsi Qarabağda, xüsusilə də Şuşa və Xankəndidə monitorinqlər aparıb. Digər qrup isə səhər saatlarından etibarən Bakıdakı seçki məntəqəsində olublar.

Biz əvvəlki günlərdə də monitorinqlər çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla görüşlər keçirmiş, seçki prosesi ilə bağlı lazımi informasiya əldə etmişik. Bundan başqa, bizim missiya prezidentliyə namizədlərlə, o cümlədən seçkilərdə iştirak edən hakim partiyanın nümayəndələri ilə də görüş keçirib. Ümumiyyətlə istənilən ölkədə prezident seçkiləri əhəmiyyətli hadisə hesab edilir. Amma mən Azərbaycanda keçirilən bu prezident seçkilərini tarixi hadisə adlandırıram. Çünki son onilliklər ərzində ilk dəfə olaraq bizim qardaş Azərbaycanın bütün ərazilərində seçki prosesi baş tutur. Bu, təkcə Azərbaycan xalqını deyil, bütün Türk Dövlətləri Təşkilatı xalqlarını sevindirir. Bu münasibətlə hər birinizi təbrik edirəm!



***Konstantin Daniel,***
*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Rumıniyadan olan vitse-prezidenti:*



- Artıq ikinci dəfədir ki, Azərbaycandayam. Qonaqpərvərliyi üçün Azərbaycan xalqına təşəkkürümü bildirirəm. İnsanların kütləvi şəkildə seçki prosesində iştirakını görməkdən məmnunam. Düşünürəm ki, təkcə Azərbaycanda deyil, ümumilikdə dünyada insanların seçkilərdə iştirakı demokratiya üçün çox önəmlidir.

***Muhamməd Əl-Heyra,***
*Mərakeş parlamentinin üzvü:*



- Seçici fəallığı yüksəkdir. Səsvermə prosesi rahat, şəffaf və düzgün təşkil olunub. Məntəqə seçki komissiyasının əməkdaşları seçiciləri siyahılar üzrə qəbul edir, onların qaydalara uyğun olaraq səsvermədə iştirakını təmin edirlər. Yaşlı insanlar, qadınlar və gənclər gəlib rahat şəkildə səs verə bilirlər. Səsvermə prosesinin yaxşı keçməsi üçün bütün tədbirlər görülüb.

***Cabbar Əl-Kinani,***
*İraq parlamentinin Xarici əlaqələr şöbəsinin müdir müavini:*



- Azərbaycanda keçirilən prezident seçkilərində bu qədər seçicinin iştirakı yüksək fəallığın əyani sübutudur. Hər şey çox yüksək səviyyədə təşkil olunub.

***Valeri Belski,***
*Belarus Parlamenti Respublika Şurasının sədr müavini:*



- Qarabağ regionundakı seçki məntəqələrində seçici fəallığı yüksəkdir. Seçki prosesi şəffafdır, heç bir qayda pozuntusuna rast gəlməmişik. Azərbaycan xalqına bu seçkilərdə uğurlar arzulayır, işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı planların tezliklə həyata keçirilməsini diləyirik. Həmçinin Azərbaycan və Ermənistan arasında sülh sazişinin tezliklə imzalanmasını, regionda sülh və sabitliyin bərpasını arzulayırıq.

***Akkan Suver,***
*Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri:*



- Türkiyə Mərmərə Vəqfi olaraq səhər saatlarından etibarən seçki prosesini izlədik. Xalqın böyük əksəriyyəti səsvermədə fəallıq göstərdi. Seçkilər tam şəffaf və demokratik qaydada keçirilir, seçicilər istədikləri namizədə səs verirlər. Seçki prosesində hər hansı bir problemin yarandığını görməmişik. İnsanlar səs vermək üçün öz növbələrini gözləyirlər. Türk dünyasının mühüm ölkəsi olan Azərbaycanda keçirilən bu demokratik seçkilər Qafqaz üçün nümunədir.

***Vitali Jakkot,***
*Moldova parlamentinin deputatı, Moldova - Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri:*




- Azərbaycanda prezident seçkilərində səsvermə prosesi sakit, işgüzar şəraitdə keçirilir. Səsvermə prosesi ilə bağlı bütün təəssüratlar müsbətdir. Bütün prosesləri gözdən keçirdik, suallar verdik. Həm məmurların, həm də seçicilərin səmimiliyi xoşuma gəldi.

Burada doğulan və hazırda burada yaşayan yerli sakinlərlə söhbət etdik. Heç bir insident olmayıb, proses sakit şəraitdə gedir. Biz ərazi bütövlüyünü bərpa edən Azərbaycan xalqının sevincinə şərikik.

***Andrea Di Cüzeppe,***
*İtaliya parlamentinin üzvü:*



- Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində gənclərin yüksək fəallığını müşahidə etdik. Fəallığın belə yüksək olması bizi müsbət mənada təəccübləndirdi. Hələ səhər saatlarından etibarən fəallıq çox yüksək idi. Xüsusilə gənclər səsvermədə aktiv iştirak edirlər. Görünür, Azərbaycan gəncləri Avropa İttifaqı ölkələrindən fərqli olaraq səsvermədə iştirak etməkdə maraqlıdırlar. Avropada insanları səsvermə hüquqlarından istifadə etməyə razı salmaq problemlidir.

***Aidos Sarym,***
*Qazaxıstan Parlamenti Məclisinin üzvü:*




- Seçkiləri müşahidə etmək üçün Qazaxıstan Parlamenti Senatından və Məclisindən böyük nümayəndə heyəti gəlib. Biz gün boyu intensiv çalışmışıq. Nahara qədər Sumqayıtda, daha sonra Bakıda olmuşuq, bir çox məntəqəyə baş çəkmişik, seçki komissiyasının üzvləri, müşahidəçilərlə danışmışıq. Müşahidələrimizə əsasən, Azərbaycanda seçkilərə maraq böyükdür. Səsvermədə iştirak etmək istəyənlərdən ibarət növbələr var idi. Yəqin bunun səbəbi həm də Azərbaycanda ərazi bütövlüyü bərpa edildikdən sonra keçirilən ilk seçkilərin olmasıdır. İnsanlar başa düşürlər ki, ölkə yeni inkişaf mərhələsinə qədəm qoyur. Ona görə də çalışırlar ki, səsvermə layiqli keçsin.

***Valeri Kolyux,***
*Ukrayna Ali Radasının deputatı:*



- Seçkilər kifayət qədər yüksək təşkilati səviyyədə keçirilir. Biz bütün seçki məntəqələrində növbələri müşahidə edir və görürük ki, Azərbaycan vətəndaşları seçkilərdə vicdanlı və şüurlu şəkildə iştirak edirlər. Biz başa düşürük ki, bu gün Azərbaycan xalqı üçün tarixi gündür, çünki dövlət başçısı seçki və bir növ qarşıdakı illərin taleyini müəyyən edirlər. Bu seçkilərdə Azərbaycanın işğaldan azad edilmiş rayonlarında yaşayan sakinlərin də səs vermək imkanı var. Ona görə bu, Azərbaycan xalqı üçün tarixi hadisədir və biz belə bir tarixi hadisəni qaçıra bilməzdik. Seçkilərdə beynəlxalq müşahidəçi kimi iştirak edir, gedişatı müşahidə edirik. Qeyd etmək istəyirik ki, seçkilər demokratik şəraitdə keçirilir. İnsanlar kifayət qədər fəaldırlar, xüsusilə gənclər üstünlük təşkil edirlər.

***Mixail Qusman,***
*MDB müşahidə missiyasının müşahidəçisi, TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini:*



- Azərbaycanda keçirilən bu seçkilər ona görə xüsusidir ki, ölkə müstəqillik əldə etdikdən sonra ilk dəfədir seçki prosesi respublikanın bütün ərazilərini əhatə edir. Yəqin ona görədir ki, vətəndaşlar arasında ciddi fəallıq müşahidə edilir. Bu, həm də Azərbaycanda müşahidə olunan ümumi mənəvi yüksəlişlə bağlıdır. Mən məntəqələrdə bir çox seçici ilə söhbət edərkən apardığım fərdi sosioloji sorğu da göstərir ki, Prezident İlham Əliyevin böyük üstünlüyü var. Hiss olunur ki, xalq ona inanır və etimad göstərir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Zəfər seçkisi yeni tarixi dövrün başlanğıcı olacaq







Prezident seçkiləri Azərbaycanın demokratiya yolu ilə inamla irəlilədiyini bir daha bütün dünyada nümayiş etdirdi. Bu siyasi hadisə əvvəlki seçkilər kimi bütün parametrləri ilə respublikamızın tarixinə şəffaf seçki kimi yazıldı.

Seçkilər bütün şəhər və rayonlarda olduğu kimi, Bakının Yasamal rayonunda da mütəşəkkil keçdi. Qeyd edək ki, Yasamal rayonu 15 saylı Yasamal birinci, 16 saylı Yasamal ikinci, 17 saylı Yasamal üçüncü və 22 saylı Nəsimi - Yasamal Seçki dairələrini əhatə edir. Dünən baş çəkdiyimiz 17 saylı Yasamal üçüncü Seçki Dairəsinin 4, 5 və 6 saylı seçki məntəqələrinin qarşısında əsl qələbəlik idi. Seçici fəallığı bütün seçki məntəqələrində hiss olunurdu.

6 saylı məntəqə seçki komissiyasının sədri Tahirə Əliyeva bildirdi ki, seçki məntəqəsində hazırlıq işləri seçki qanunvericiliyi, müvafiq təlimatlar və təqvim planına uyğun olaraq vaxtında həyata keçirilib. Seçici siyahılarının dəqiqləşdirilməsi vaxtında başa çatdırılıb, bütövlükdə seçki hazırlığının hər bir mərhələsi vaxtında icra olunub. Seçki məntəqəsi üzrə 1216 nəfər seçici qeydə alınıb. Məntəqə seçki komissiyasının sədri əlavə etdi ki, Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi əsas hərəkət və tədbirlərin təqvim planına uyğun olaraq səhər saat 7:30-da səsverməyə hazırlıq işlərinə başlayıblar. 7:50-də seçki məntəqələri açıq elan edilib və seçki qutuları kilidlənib, 8:00-da isə səsvermənin başlanması elan edilib.

Seçki məntəqəsindəki müşahidələrimiz zamanı səs vermək üçün gəlmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Mübariz Qurbanlı ilə söhbətləşdik. Seçki ilə bağlı təəssüratlarını bölüşən Mübariz Qurbanlı dedi ki, bu seçki bir sıra hadisələr baxımından olduqca əlamətdardır: "Əvvəla onu qeyd edim ki, ilk dəfədir ki, seçkilər torpaqlarımızın azadlığı şəraitində, bütün Azərbaycan ərazilərində keçirilir. İkincisi isə bu seçkilər ölkəmizdə çox şərəfli bir tarixi dövrün başa çatmasını, yeni inkişaf və quruculuq mərhələsinin başlanmasını şərtləndirir. İnanıram ki, xalqımız bu seçkidə də müdrikliyini nümayiş etdirəcək, Azərbaycana inkişaf və Zəfər bəxş edən siyasi kursun ətrafında həmişəki kimi səfərbər olacaq".

Mübariz Qurbanlı onu da bildirdi ki, Azərbaycanda demokratik seçki ənənələri formalaşıb və bütün seçkilərdə xalqımız sərbəst şəkildə öz iradəsini ifadə edib: "İndiyədək keçirilmiş seçkilərdə respublikamızın demokratik inkişafına kölgə salacaq hansısa hadisə baş verməyib. Seçkiləri izləyən müşahidə missiyaları da bunu təsdiq ediblər. Eyni zamanda respublikamızda seçkilərin keçirilməsində tətbiq olunan innovativ yeniliklər dünyada mühüm model və təcrübə kimi qəbul edilir. Seçkilər isə bu seçki məntəqəsinin timsalında göründüyü kimi seçici fəallığı ilə keçir və bu vətəndaşların ümummilli siyasi proseslərə olan münasibətinin göstəricisidir".

Komitə sədri onu da əlavə etdi ki, ötən seçki ilə indiki seçki arasında tarixi dəyişikliklər baş verib: "Bu dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövlətinə çevrilib. Cənab İlham Əliyevin müdrikliyinin, qətiyyətli siyasətinin göstəricisi kimi torpaqlarımız azad edilib, Qarabağda erməni faşizminə son qoyulub. Seçki məntəqəsində gördüyümüz kütləvilik də bunu təsdiq edir. Vətəndaşlarımız ölkəmizə inkişaf və Zəfər bəxş edən siyasi kursun davamında maraqlıdırlar. Hesab edirəm ki, bu seçkinin ən mühüm hadisəsi cənab İlham Əliyevin ailəsi ilə birlikdə Xankəndidə səs verməsidir. Bu, sıradan hadisə deyil, bu, əsrlərin, dövlətçilik tariximizin əlamətdar hadisəsidir. Olduqca qürurvericidir ki, əsrlər sonra da xatırlanacaq bu hadisələrin müasirləri və iştirakçılarıyıq".

Seçki məntəqəsində söhbətləşdiyimiz seçicilər seçki məntəqəsinə gələrək səs verməyi özlərinin vətəndaşlıq borcu olduğunu qeyd etdilər. Seçicilər birmənalı şəkildə bildirdilər ki, əsas arzuları torpaqlarımızı işğaldan azad edən siyasi kursun davamıdır və buna görə heç bir alternativi qəbul etmirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Milli Qəhrəman anası:*

# "Oğlumun adını daşıdığı məktəbdə Zəfər Komandanına səs verdim"

Azərbaycanda prezident seçkiləri müstəqillik dövründə ilk dəfə ölkənin bütün ərazisində - 2020-ci ilin Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş, eləcə də 2023-cü ilin 19-20 sentyabrındakı lokal antiterror əməliyyatı zamanı dövlət suverenliyimizin tam bərpa edildiyi şəhər və rayonlarda da keçirildi.

Paytaxt Bakının digər rayonlarda olduğu kimi, Suraxanıda da seçki məntəqələrinə seçici axınının çoxluğu müşahidə olunurdu. 32 saylı Suraxanı üçüncü Seçki Dairəsinin Qaraçuxur qəsəbəsində yerləşən Azərbaycanın Milli Qəhrəmanı Cavanşir Rəhimov adına 146 saylı orta məktəbdə təşkil olunmuş 39, 40 və 41 saylı seçki məntəqələrində prosesin yüksək mütəşəkkilliklə kecirilməsi diqqət çəkirdi.







Məntəqə seçki komissiyasının sədri Qasım Qasımovun verdiyi məlumata əsasən, seçicilərin rahat və təhlükəsiz şəraitdə səs vermələri üçün bütün məntəqələrdə olduğu kimi, burada da lazımi şərait yaradılıb. Məntəqə bütün lazımi avadanlıqlarla təchiz edilib.

Səhər məntəqə açılandan əhalinin fəallığı müşahidə olunurdu. Məntəqələrin açılması ilə rayon sakinləri prezident seçkilərində fəal şəkildə səs verməyə başladılar. Səsvermə prosesinin tam şəffaf və demokratık keçirilməsi üçün bütün şərait yaradılmışdı.

Artıq saat 15:00-a olan məlumata görə, seçicilərin 75 faizindən çoxu səs verib. Məntəqədə ilk səs verən şəxs 18 yaşı tamam olan və ilk dəfə səsvermə hüququndan yararlanan Mədinə Nəsibova olub. Gənc Mədinə bizimlə söhbətində qeyd edir ki, verdiyi səsin məsuliyyətini yaxşı anlayır: "Gənc olsam da, ilk dəfə səs versəm də, son 30 ilin keşməkeşlərindən, ziddiyyətlərindən tam xəbərdaram. Bilirəm ki, bugünkü inkişafa və Zəfərə çox çətinliklə nail olmuşuq. Bu əziyyətli yolu bizim üçün qələbə ilə yekunlaşdıran məhz cənab İlham Əliyevdir. Biz gənclərin də borcu bu yeni tarixi dövrdə üzərimizə düşən vəzifəni dəqiq anlamaq və məsuliyyətlə həyata keçirməkdir".

Səsvermədə iştirak edənlər sırasında məktəbin adını daşıdığı Milli Qəhraman Cavanşir Rəhimovun anası Lalə Rəhimova da var. Şəhid anası səs verdikdən sonra bu fikirləri söyləyir: "Bu gün xoş gündür. İgid balalarımızın qanı, canı bahasına düşmən tapdağından təmizlənən Qarabağda, bütün Azərbaycanda seçkilər keçirilir. Mən də Milli Qəhrəman anası kimi oğlumun adını daşıdığı məktəbdə Zəfər Komandanına səs verdim. Oğlum bu məktəbdə oxuyaraq vətənpərvərlik tərbiyəsi alıb. Sonra Vətən uğrunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb. Bu gün oğlum kimi bütün şəhidlərimizin ruhu şaddır. Onların görmək istədiyi bütöv, suverenliyini tam təmin etmiş Azərbaycan var. Mən də, bütün şəhid anaları da bununla təsəlli tapırıq ki, övladlarımızın istəkləri, arzuları həyata keçib. Bunun da memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. İnanıram ki, İlham Əliyev Azərbaycanı daha qüdrətli ölkəyə çevirəcək".

***"Azərbaycan"***

# Xankəndidə seçki bayramı yaşandı






Dünən Xankəndi sevinc içində idi, qollarını geniş açıb illərlə ona həsrət qalmış insanlara qucaq açmışdı. Düşmən tapdağından azad edilmiş Xankəndinin küçələri, binaları üçrəngli Azərbaycan bayraqları ilə bəzədilmişdi. Burada erməni faşistlərinin eybəcər rəmzləri, murdar simvolları, dəyərsiz əski parçalarının izi belə qalmamışdı.

Dünən bu şəhərdə tarixi bir hadisə - prezident seçkisi keçirildi, bir ayrı mətləbdən xəbər verən seçki. Dünən bu şəhərdə bayram idi - seçki bayramı.

Fevralın 7-də bütün dünya Xankəndidə baş verən tarixi hadisəni izlədi. Ona görə tarixi hadisə deyirik ki, 30 ildən çox idi Xankəndidə Azərbaycanla bağlı seçki keçirilmirdi. Dünən isə Xankəndinin tarixinə qızıl hərflərlə yazıldı. Burada keçirilən demokratiya hadisəsinə dünyanın bəzi "əlindəki kartları zərərsizləşdirilmiş" ölkələr şahid oldular. Xankəndidəki seçki Ermənistana havadarlıq edən bəzi ölkələrin əlindəki "demokratiya qılıncı"nı belə sındırdı.

Azərbaycan xalqı təkcə demokratiyanın təntənəsini yox, həm də Zəfər tarixinin bir ilkini yaşadı. Dünənki prezident seçkisi müstəqil Azərbaycanın bütün ərazilərində baş tutdu.

Xankəndidə baş verən ən qürurlu hadisə, uğurlu addım, gözlənilməz gediş isə İlham Əliyevin ailə üzvləri ilə birlikdə orada səsverməsi oldu. 2024-cü ilin 7 fevral günü İlham Əliyev Xankəndidən bütün dünyaya və Ermənistana bir daha mesaj verdi ki, Qarabağ Azərbaycandır, artıq bu gerçəyi kimsə inkar edə bilməz. Bəzi beynəlxalq təşkilatlar və Ermənistanın havadarları anlasınlar ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bu xalqın qanı-canı bahasına əldə edilib və heç kim bir də bu torpaqlara göz dikməsin. Bu suverenlik, bu müstəqillik bu xalqa ana südü kimi halaldır.

İlham Əliyevin səs vermək üçün Xankəndini seçməsi böyük siyasi gediş olmaqla bərabər, həm də o 20 illik Prezidentliyinin yekun hesabatı idi. Prezident 20 il əvvəl Qarabağı işğaldan azad etmək üçün çıxdığı yolun sonuna ailə üzvləri ilə birlikdə Xankəndidə çatdı. 7 fevralın sensasiya doğuracaq təntənəsi olan bu səsvermə illərlə erməni separatçılarının şər yuvası, qərargah etdikləri binada keçirildi. Bu o demək idi ki, nə Xankəndi, nə də həmin bina separatizm ünvanı olacaq.

122 saylı Xankəndi Seçki Dairəsinin 14 saylı məntəqəsi Xankəndi şəhərinin mərkəzində yerləşirdi. Özü də, qeyd etdiyimiz kimi, keçmiş mərkəzi inzibati binada. Yəni separatçı rejimin yuva saldıqları binada. İndi həmin binanın üzərində Azərbaycanın gerbi, qarşısında isə bayrağı asılıb.

Məntəqəyə səsverməyə gələnlər böyük ruh yüksəkliyi və sevinc hissi ilə səs verirdilər. Hansı namizədə səs verdiklərini soruşmağa ehtiyac yox idi, üz ifadələrindən, gözlərindəki sevincdən görmək olurdu ki, seçimləri böyük Zəfərin davamıdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Keçmiş şagirdlərimlə bir məntəqədə səs verməkdən qürur duydum

## Onların arasında torpaqlarımızı işğaldan azad edən hərbçilər də vardı

Məktəbimiz Bakı Dövlət Universitetinin, Texniki Universitetin və Memarlıq və İnşaat Universitetinin əhatəsində yerləşir. Ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən doğma torpaqlarından didərgin salınan soydaşlarımız məcbur olub bu ali məktəblərin yataqxanalarında məskunlaşmışdılar.



Məcburi köçkün övladlarının çoxu təhsilini bizim məktəbdə davam etdirirdi. Həmin uşaqlar istər-istəməz başlarına gələnləri, gördükləri, yaşadıqları faciələri sinif yoldaşları ilə bölüşürdülər. Belə vəziyyət uşaqlarda bir ümidsizlik və miskinlik yaratmışdı. Bir sözlə, şagirdlərim bədbinliyə qapılmışdılar. Bu mənim ürəyimi ağrıdırdı. Başa düşürdüm ki, bir müəllim, bir ana kimi onları düşdüyü bu mənfi ovqatdan qurtarmaq lazımdır. Özümün də iki övladım həmin uşaqlarla birlikdə oxuyurdu. Onlarla məhrəmcəsinə söhbət edəndə gördüm ki, bu balaca ürəklərdə nə qədər böyük kədər var.

Çox düşünüb daşındım ki, buna bir çarə tapım. Coğrafiya müəllimi işləyirdim. Əvvəlcə tarix kitablarını oxudum. Azərbaycan və türk dövlətlərinin şanlı tarixini xatırlayıb bir daha dərindən öyrəndim. Hər dərsdə müəyyən qədər vaxt ayırıb uşaqlara Azərbaycan xalqının dövlətçilik tarixindən, türk dünyasının qüdrətli imperiyaları barədə məlumat verirdim. Bu yolla uşaqları əsas məqsədim üçün hazırlayırdım.

Bir gün fikirləşdim ki, elə bir forma tapım ki, şagirdlərimə təsir göstərə bilsin. Növbəti coğrafiya dərsində uşaqlara işğal altında olan torpaqları göstərib dedim ki, bu adi torpaq ərazisi deyil, Vətənin bir parçasıdır. Vətənin həmin parçasını siz kişilər azad etməlisiniz, bu sizin müqəddəs amalınız olmalıdır. Gördüm ki, yeniyetmə şagirdlərim bir anın içərisində, sözün həqiqi mənasında, kişiləşdilər. Onlarda özlərinə inam yarandı. Tədrisin mövzusu olmasa da, hər dərsdə 2-3 dəqiqə şagirdlərə torpaqlarımızın işğal altında olması, mütləq düşməndən azad edilməli olduğunu bildirirdim. Bu, onlarda qələbəyə inam hissi yaradırdı.

Hamı bilir ki, uşaqlar romantik olurlar. Peşə seçmək barədə fikirlərini tez-tez dəyişirlər. Onlar məndən hansı peşənin yaxşı olduğunu soruşduqda deyirdim ki, indi oğlanlarımız üçün ən şərəfli peşə hərbçi peşəsidir. Şagirdlərimin içində fikrini dəyişib hərbçi peşəsini seçənlər çox oldu. Bu gün onlar Azərbaycan Ordusunda şərəfli zabit adını daşıyırlar. 44 günlük Vətən müharibəsində hərbçi şagirdlərimlə yanaşı, digərləri də könüllü kimi döyüşüb işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün çox qürurluyam. Ona görə ki, dünənin şagirdləri, bu günün qalib əsgəri olan balalarımla bir məntəqədə səs verirəm.

***Məhəbbət MÜTƏLLİBOVA,***
***Şəhid Eldar Məmmədov adına 21 nömrəli tam orta məktəbin coğrafiya müəllimi***

# "Xilaskarımıza səs verdik"

## Qobuda məskunlaşmış keçmiş məcburi köçkünlərin seçimi Qalib Lider İlham Əliyev idi

**Zaman 2020-ci il mayın 28-i, məkan "Qobu Park-3" yaşayış kompleksi...**

**Daha minlərlə keçmiş məcburi köçkünə yeni evlərinin açarlarını təqdim edən dövlət başçısı İlham Əliyev onilliklərdir vətən həsrəti çəkən bu insanlara tezliklə yurdlarına qayıdacaqlarının və bundan da gözəl ev-eşiklərə sahib olacaqlarının müjdəsini verir...**

**Zaman 2024-cü il fevralın 7-si, məkan "Qobu Park-3" yaşayış kompleksi...**

Minlərlə keçmiş məcburi köçkün Qarabağ və Şərqi Zəngəzuru azad edən, Azərbaycanın suverenliyini bərpa edən, Vətəni bütövləşdirən layiqli Prezidentinə səs vermək üçün seçki məntəqələrinə axın edir...

Onları vətəndə qəribçilikdən qurtararaq dədə-baba yurdlarına qovuşduran Qalib Liderə minnətdarlığını bir daha ifadə etmək istəyirlər...

















### "O, bizim ömürlük Prezidentimizdir"

"Keçmiş məcburi köçkünlərin yalnız bir Prezidenti var - xilaskar İlham Əliyev. O, bizim ömürlük Prezidentimizdir. Hələ Vətən müharibəsi zamanından hamımız səsimizi Qalib Liderimizə vermişik. Bizi vətən həsrətindən qurtaran da, yenidən o yurdlara qaytaran da Müzəffər Sərkərdəmiz İlham Əliyevdir. Ona görə də biz xilaskarımıza səs verdik" - "Qobu park -3" yaşayış kompleksində yerləşən 118 saylı Ağdam Seçki Dairəsinin 53 saylı məntəqəsində seçici 84 yaşlı Əli Məmmədov söylədi bu sözləri...

Fevralın 7-də səhər tezdən böyük həvəslə prezident seçkilərində səs vermək üçün bu məntəqəyə gələn yaşlı seçici sözlərinə onu da əlavə etdi ki, illərdir arzusu ilə yaşadığı bu xoşbəxt günlərə görə Qalib Lider İlham Əliyevə ömür boyu duaçı olacaq: "Tezliklə mən də həsrət qaldığım Ağdamıma qovuşacam. Şükür Allaha, bu gün də elə bir fürsət yarandı ki, səs verərək xalqımın vətənpərvər oğlu İlham Əliyevə minnətdarlığımı bildirə bildim".

### Bu seçkinin bir başqa əhvalı var

7 fevral 2024-cü il - prezident seçkilərinə qədər də ölkəmizdə xeyli sayda seçki keçirilmişdi, amma ötən gün bütün Azərbaycanda yaşanan seçki fəallığına, ruh yüksəkliyinə, şadlıq əhvalına heç zaman rast gəlməmişdik.

Azərbaycan xalqı olaraq şahidlik etdiyimiz budəfəki seçki ayrı əhvalda, özgə təmtəraqda idi. Ələlxüsus da keçmiş məcburi köçkünlərin səs verdiyi seçki məntəqələrində...

Seçki prosesini izlədiyimiz 118 saylı Ağdam Seçki Dairəsinin 53 saylı məntəqəsində də keçmiş məcburi köçkünlərdən ibarət seçicilərin hamısında Vətənin azadlığının qürur hissi, sevincdən doğan göz yaşları vardı...

Yaşından, cinsindən asılı olmayaraq seçkilərə gələn keçmiş məcburi köçkünlərin hər biri torpaqlarımızı işğaldan azad edən, o yerləri yenidən quraraq qayıdış həyata keçirən Qalib Lider İlham Əliyevə minnətdarlıqlarını bildirir, qazilərimizə şəfa diləyir, vətənin azadlığı uğrunda canından keçən şəhidlərimizə dualar edirdilər...

"Ötən illər ərzində çox əziyyətlər çəksək də, heç zaman ürəyimizdə yurdumuza dönəcəyimizə ümid sönmədi. Bu inamı bizə Müzəffər Liderimiz İlham Əliyev verdi, hər zaman torpaqlarımızın mütləq azad ediləcəyini söylədi. Budur, artıq bütün rayonlarımız, həmçinin Ağdam azaddır. Bundan böyük xoşbəxtçilik olarmı?!. Mən də öz səsimi bütün keçmiş məcburi köçkünlərə bu xoşbəxtliyi yaşadan cənab İlham Əliyevə verdim", - deyə ötən ağrı-acılı günləri, eləcə də qələbənin, Ağdamın azadlığının verdiyi xoşbəxtlik hissi barədə Ruhiyyə Həsənova kövrələrək danışır.

Səs verərək seçki məntəqəsindən çıxan iki xanıma yaxınlaşırıq. İndi 64-65 yaşlarında olan Saray Muxtarova və Nanə İsmayılova Ağdamın Maqsudlu kəndindəndirlər. "Xanımlar, sirr deyilsə, kimə səs verdiyinizi öyrənmək olarmı" deyə sual etdiyimizdə isə, onlar bir ağızdan şəstlə "torpaqlarımızı azad edən İlham Əliyevə" cavabını verdilər.

Gülüstan Məmmədova isə Ağdamın Ətyeməzli kəndindən olduğunu söylədi: "Seçkiyə böyük həvəslə gəldim, layiq olan namizədə, Qafqazın lideri İlham Əliyevə səs verdim. Möhtərəm İlham Əliyev bizə elə bir xoşbəxtlik yaşadıb ki, ömür boyu Ona minnətdar olacağıq. Allah Qalib Liderimizin canını sağ, ömrünü uzun etsin. Qazilərimizə şəfa diləyirəm, şəhidlərimizin ruhu şad olsun. Biz yenidən torpaqlarımıza ayaq basa biliriksə, bu onların böyük qəhrəmanlığının sayəsindədir".

Məntəqədə müşahidə etdiyimiz qürurverici məqamlardan biri də gənc seçicilərin də fəallıq etməsi idi. 19 yaşlı Akif Mirzəliyev deyir ki, Ağdamı heç zaman görməsə də, ata-anasının xatirələri, danışdıqları sayəsində doğma yurdunu çox sevib və hər zaman arzusunda olub ki, Ağdamı görsün: "Artıq bu arzum gerçəyə çevrilib. Tezliklə ailəmlə birlikdə Ağdama dönəcəm, bunun üçün çox sevinciliyəm. Bizi qalib xalqın vətəndaşı etdiyi üçün Müzəffər Sərkərdəmiz İlham Əliyevə səs verdim".

Ağdamın Şurabad kəndindən olan 18 yaşlı Elcan Yusifov isə ilk dəfədir səsvermədə iştirak edir və söyləyir ki, o, qalib xalqın Qalib Lideri İlham Əliyevə səs verib.

### İnsanlar böyük coşqu, ruh yüksəkliyi ilə seçkidə iştirak edirdilər

118 saylı Ağdam Seçki Dairəsinin 53 saylı məntəqəsində seçki prosesini müşahidə edən müstəqil müşahidəçi Yeganə Həsənova söylədi ki, səhər tezdən, heç seçki qutuları açılmamışdan seçicilərin axınını müşahidə edib: "Hamı böyük coşqu, ruh yüksəkliyi ilə seçkidə iştirak edir. Bu da onu göstərir ki, xalq öz seçimini düzgün edəcək, layiqli prezidentinə səs verəcək".

Yeni Azərbaycan Partiyasının müşahidəçisi Gülyaz Qəmbərova bildirdi ki, seçkilər demokratik şəraitdə gedir, seçici fəallığı yüksəkdir. Seçicilər torpaqlarımızın 30 illik işğaldan qurtulmasından doğan qürur hissi ilə gəlib səs verirlər.

Məntəqə seçki komissiyasının sədri Mətanət Məmmədova qeyd etdi ki, seçki məntəqəsi lazım olan bütün vəsaitlə təmin olunub. Seçicilərin səs verməsi üçün 6 kabinə quraşdırılıb. Onlar demokratik və şəffaf şəraitdə istədikləri namizədə səs verirlər. Sədr onu da əlavə etdi ki, bu məntəqədə 1366 seçici var. Hazırda 18 yaşı tamam olub səs verənlər də, 85 yaşında olan seçicilər də var ki, həvəslə gəlib səs verirlər.

### "Xalqımız, millətimiz üçün xeyirli olsun"

"Qobu Park-3"-də baş çəkdiyimiz 85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsinin 32 saylı seçki məntəqəsində də mənzərə eynidir. Seçicilər burada da yüksək fəallıq, böyük coşqu, sevinc əhvali-ruhiyyəsi ilə səsvermədə iştirak edirlər.

Öyrənirik ki, bu məntəqədə 1460 seçici var. Ən yaşlı seçici 82 yaşındadır. 2005-ci il təvəllüdlü isə bir neçə seçici var. Məntəqə seçki komissiyasının sədri Rüxsarə Adıgözəlova söylədi ki, burada seçicilərin rahat şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb.

YAP-ın müşahidəçisi Almaz Axundova söylədi ki, seçicilər çox həvəslə məntəqəyə gəlib səs verirlər: "Hamısı da ölkəmizə, xalqımıza, Qalib Lider İlham Əliyevə dua edə-edə, "xalqımız, millətimiz üçün xeyirli olsun" deyə-deyə bülleteni seçki qutusuna atırlar. Əvvəllər də bir çox seçkidə müşahidəçi olmuşam, amma bu seçki tamamilə fərqli keçir. İnsanlar böyük ruh yüksəkliyi ilə gəlib səs verirlər. Hətta indicə bir qadın hamıya şirinlik kimi konfet payladı. Şükür Allaha ki, bu xoş günləri görməyi xalqımıza nəsib etdi".

70 yaşlı Leyli Hüseynova Füzuli rayonunun Qazaxlar kəndindəndir. Bizimlə söhbətində gözləri yaşla dolan Leyli nənə söylədi ki, bunlar hamısı sevincdəndir: "Allah cənab İlham Əliyevə uzun ömür versin. O, torpaqlarımızı alıb bizə qaytardı. Bilirdim ki, bir gün o yerləri mütləq azad edəcəyik, ancaq o günləri özümün görəcəyimə heç gümanım yox idi. Amma qismətimdə bu xoşbəxtliyi yaşamaq da varmış. Çox tələsirəm ki, öz kəndimə, Füzuliyə qayıdım. İndi də torpaqlarımızı alan, el-obamızı yurda qaytaran, Ulu Öndərimizin layiqli davamçısı İlham Əliyevə səs verəcəm".

Füzuli rayon sakini Qaraşova Lətifə söylədi ki, o da, digər ailə üzvləri də Qalib Lider İlham Əliyevə səs verib: "O, hər zaman bizə qol-qanad gərdi. Torpaqlarımızı azad etdi, məcburi köçkün sözünü üzərimizdən götürdü. Qalib Lider İlham Əliyevdən başqa kimə səs verməliyik ki?!. Ona ömür boyu minnətdar olacağıq".

"Füzulidən çıxanda 30 yaşım var idi. İndi 61 yaşım var və nəvələrimlə birgə ora qayıdacam. Bilirsiniz, yaşlandıqca torpaq adamı daha çox çəkir özünə. Biz hər zaman dövlətimizin qayğısını hiss etmişik, cənab İlham Əliyev həmişə arxa-dayağımız olub. Bizə ev də verib, işlə də təmin edib. İndi də azad etdiyi vətənimizdə qurub yaradır, bizi hər cür şəraitlə təmin edir. Bütün bu möcüzəyə bərabər işləri gerçəkləşdirən xilaskarımız İlham Əliyevə səs verdim", - deyir Füzuli sakini Umudvar Hüseynov.

### Parlaq gələcəyə səs verilən tarixi gün

2024-cü il fevralın 7-də keçilən prezident seçkiləri, sözün həqiqi mənasında, Şuşa, Xankəndi qələbələrinin təntənəsini növbəti dəfə yaşadığımız daha bir tarixi günə çevrilərək salnamələrimizə parlaq hərflərlə yazıldı.

Fevralın 7-də Azərbaycan xalqı müstəqillik tarixində ilk dəfə olaraq qalib ölkənin qalib vətəndaşları kimi səs verdi. Eləcə də illərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkisinin qüruru yaşandı.

Yurdumuzun dörd bir yanında bayram əhvalı ilə, Zəfər seçkisinə qatılan Azərbaycan xalqı uğurlu gələcəyinə, işıqlı sabahlarına səs verdi.

"Qobu park-3" yaşayış kompleksində yerləşən seçki məntəqələrinə gəncindən tutmuş yaşlısına qədər axın-axın üz tutan keçmiş məcburi köçkünlər də qürurla xalqımıza ard-arda böyük Zəfərlər ərməğan edən, suverenliyimizi bərpa edən, vətənimizi bütövləşdirən, onları illərdir həsrət qaldıqları torpaqlarına qaytaran layiqli namizədə - Qarabağ və Şərqi Zəngəzurun Zəfər Komandanına, Bayraqdara, qalib xalqın, Qalib sərkərdəsinə səs verdiklərini böyük fəxr və inam hissi ilə söylədilər...

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Şuşada Zəfər seçkisi

**İnsanlar kimi ölkələrin, şəhərlərin, kəndlərin də taleyi olur. Sıldırım qayalar üzərində, dağlarla əhatə edilmiş, təbiətin möcüzəsi, göz yaşı kimi dumduru buz bulaqlarla zəngin olan Qarabağın incisi, Azərbaycanın göz bəbəyi Şuşa şəhəri də keşməkeşli bir tale yaşayıb. Dəfələrlə düşmən hücumuna məruz qalıb, tapdanıb, işğal altına düşüb, amma heç vaxt vüqarını itirməyib, qürurunu sındırmayıb bu dağlar gözəli.**






Dağdan və gözəllikdən söz düşmüşkən. Şuşanın dağlarında yetişən, gözəlliyi ilə göz qamaşdıran xarıbülbülün vətəni mənəvi gücümüzün, ruhumuzun simvoludur. Relyefinə görə ucalarda bərqərar olan bu şəhər erməni tapdağında olanda əlimiz çatmasa da gözümüz, könlümüz oralarda dolaşırdı. Düşmən onun sinəsinə yaralar vursa da, özünküləşdirmək istəsə də, biz "bir gün bu həsrət bitəcək, Şuşaya qayıdacağıq" dedik və qayıtdıq, 28 ildən sonra Şuşamıza qovuşduq.

Ötən üç il Şuşada yerli və beynəlxalq tədbirlər keçirildi, şəhər mədəniyyət mərkəzinə çevrildi, "Şuşa ili" elan edildi. Biz bu təntənələrin sevincini yaşadıq, xalq olaraq Şuşaya dikilən gözlərdəki sevgini gördük, bəzi nankorların nifrətini hiss etdik. Amma bitib-tükənməyən vətən eşqimizi Qarabağdan, Şərqi Zəngəzurdan, Şuşadan əsirgəmədik. Zəfər yaşadıq, Qələbə havasını udduq.

Dünən Şuşa daha bir təntənə də yaşadı. Dağlar gözəli bu günü - 7 fevral növbədənkənar prezident seçkisini səbirsizliklə gözləyirdi. Dünən şəhidlərin ruhu şad idi. Sıldırım qayalardan keçərək möcüzələr yaradan Şuşa qazilərinin gözləri gülürdü. Bu günü azərbaycanlılara yaşadan şəhidlərin ruhu qarşısında baş əyən seçicilər həvəslə, sevə-sevə seçki məntəqəsinə yollanırdılar.

Yeri gəlmişkən deyək ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi fəaliyyət göstərirdi. Növbədənkənar prezident seçkisi 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinin Şuşa şəhərində təşkil edilən 105 saylı seçki məntəqəsində keçirildi. Məntəqə seçki komissiyasının sədri Səbinə Gözəlovanın dediyinə görə, məntəqə üzrə 1222 seçici qeydə alınmışdı. Müşahidələr göstərdi ki, Şuşada keçirilən seçkidə iştirak edənlərin bayram əhvali-ruhiyyəsi bir ayrı mənzərə idi. Hiss olunurdu ki, işğaldan sonra ilk dəfə Şuşada səs vermək hər kəsin içindən gələn bir duyğu, qəlbinin istəyi idi.

Şuşa şəhər 1 saylı tam orta məktəbin binasında yaradılan məntəqədə səsverməni 13 nəfər yerli müşahidəçi izləyirdi. Onlara məntəqədə seçkiləri normal izləmək üçün hər cür şərait yaradılmışdı. Seçki günü səhhətində problem olduğuna görə məntəqəyə gələ bilməyən seçicilərin səsverməsini təşkil etmək üçün səyyar seçki qutusu da ayrılmışdı.

Şuşada keçirilən seçki bizim üçün bayram, düşmənə gözdağı oldu. Xam xəyallarla yaşayan, revanşist fikirlərə düşən ermənilər gördülər ki, azərbaycanlıların əzmini, iradəsini qıra bilməzlər. Bu seçki böyük Zəfərin növbəti davamı kimi yaddaşlara hopdu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ağdamlıların seçimi dəyişməzdir: yalnız İLHAM ƏLİYEV!




**Dünən ölkə üzrə 125 seçki dairəsinin 6537 seçki məntəqəsində keçirilən seçkilər azad və şəffaf şəraitdə baş tutdu. Seçicilər sərbəst şəkildə öz iradələrini ifadə etdilər.**




Prezident seçkiləri Ağdam rayonunu əhatə edən seçki dairələrində də yüksək səviyyədə təşkil olundu. Öncə onu qeyd edək ki, Ağdam rayonu həm də siyasi fəallığı, ölkə miqyaslı siyasi proseslərdə daim mütəşəkkil iştirakı ilə diqqəti cəlb edib. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri bu rayonda həmişə mütəşəkkil səviyyədə baş tutub.

Ən mühüm məqam isə o idi ki, ağdamlılar bu seçkilərdə artıq məcburi köçkünlər kimi iştirak etmirdilər. Dünənki prezident seçkiləri də əvvəlki seçkilərdə olduğu kimi, yüksək seçici fəallığı şəraitində keçdi. Baş çəkdiyimiz 118 saylı Ağdam Şəhər Dairə Seçki Komissiyasının 49 saylı seçki məntəqəsindəki səsvermənin timsalında bunun şahidi olduq.

Məntəqə seçki komissiyasının sədri Sədi Nəzərov qeyd etdi ki, seçki məntəqəsinin şəraiti hələ əvvəlki seçkilər dövründən yüksək səviyyədə olub. Belə ki, illər öncədən məntəqənin maddi-texniki bazası yenilənib, ən müasir seçki standartlarına uyğunlaşdırılıb. Ötən ilin dekabrında növbədənkənar prezident seçkilərinə start verildikdən sonra seçki məntəqəsinin maddi-texniki vəziyyəti Mərkəzi Seçki Komissiyası tərəfindən bir daha araşdırılıb. Seçkilərin yüksək səviyyədə, qanunvericiliyə və beynəlxalq standartlara uyğun şəkildə baş tutması üçün nəzərdə tutulan hazırlıq işləri vaxtında yekunlaşdırılıb.

Öyrənirik ki, seçki məntəqəsinin seçici siyahısında 1168 nəfər seçici var. Onların hamısı ağdamlı keçmiş məcburi köçkünlərdir. Səslərini verdikdən sonra məntəqədən ayrılan seçicilərin bir neçəsi ilə söhbətləşdik.

Bakının Səbail rayonunda məskunlaşmış Ağdam rayonundan olan keçmiş məcburi köçkün Amil Cavadov deyir ki, olduqca qürurvericidir ki, artıq keçmiş məcburi köçkün kimi səs veririk: "Biz ağdamlıların seçimi dəyişməzdir: Yalnız İlham Əliyev! Bizim 30 illik köçkünçülük iztirabımıza, ağrılarımıza son qoyan xilaskarımız, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə etimadımız sonsuzdur. Bu seçkidə də mən yalnız Yeni Azərbaycan Partiyasının deyil, bütün xalqın namizədi olan cənab İlham Əliyevə səs verdim. Bu, yalnız etimad deyil, həm də bütün məcburi köçkünlərin xilaskarı olan İlham Əliyevə minnətdarlığımızdır, əbədi borcumuzun nümunəsidir. Sevindirici haldır ki, 30 ildən sonra seçkilər artıq Ağdamın digər ünvanlarında da, azad edilmiş yurdlarımızda da keçirilir. Bizə daha böyük qürur yaşadan hadisə isə cənab İlham Əliyevin Xankəndidə səs verməsidir. Bu, müstəqillik dövründə ilk belə siyasi hadisədir. Bu gün biz tarixi Zəfərimizə, Zəfərimizin davamlı olmasına, qüdrətli Azərbaycana, cənnət Qarabağa və bütün bunları xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandanımıza səs verdik".

Söhbətləşdiyimiz Vüqar Əsgərov Ağdamın Baş Güney kəndindəndir. Onun sözlərinə görə, ağdamlılar bu seçkilərə yüksək bayram əhvali-ruhiyyəsi ilə gəliblər: "Mənim seçimim torpaqlarımızı azad edən, Ağdamı bizə qaytaran, bütün məcburi köçkünlərin yurd həsrətinə son qoyan böyük sərkərdəmizdir. Onun sayəsində biz qalib olduq, torpaqlarımızı azad etdik. Bu siyasət davam etməlidir. Qarabağımızı azad edən İlham Əliyevin rəhbərliyi ilə Ağdam yenidən qurulacaq, əvvəlki şöhrətini özünə qaytaracaq. Daim Prezidentimizin yanındayıq".

Ümumiyyətlə, seçki məntəqəsində olduğumuz müddət ərzində səsvermənin rəvan, şəffaf, heç bir qanun pozuntusu baş vermədən keçdiyinin şahidi olduq. Müşahidəçilər də bunu təsdiq etdilər. Prezidentliyə namizəd Qüdrət Həsənquliyevin seçki qərargahının müşahidəçisi Rəsmiyə Fətəliyeva deyir ki, məntəqənin səsverməyə açılmasından başlayaraq bütün proseslər seçki qanunvericiliyinin tələblərinə uyğun gedir: "Hər hansı bir nöqsan və ya çatışmazlıq yoxdur. Müşahidələrimiz göstərir ki, hər bir seçicinin seçici siyahısında adı var. Əminik ki, bu seçki ölkəmizdə şəffaf seçki sisteminin formalaşmasının növbəti təsdiqi olacaq".

Qeyd edək ki, seçki məntəqəsi üzrə ümumilikdə 12 müşahidəçi qeydiyyatdan keçmişdi. Bütövlükdə, prezident seçkiləri 118 saylı Ağdam Şəhər Dairə Seçki Komissiyasının 49 saylı seçki məntəqəsində seçici fəallığı şəraitində keçərək yüksək səviyyədə baş tutdu. Bakının Səbail rayonunda məskunlaşmış ağdamlı keçmiş məcburi köçkünlər sərbəst şəkildə öz siyasi iradələrini ifadə etdilər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Bizə tarixi Zəfər yaşadan Liderə səs verdik"

Azərbaycan tarixinin son üç ili tarixi hadisələrlə zəngindir. Dünən onlara biri də əlavə olundu. Xalq ilk dəfə bütün ölkə üzrə seçkilər yolu ilə növbəti 7 il üçün liderini seçdi. Bu seçkilər xalqın yaddaşında qalib ölkənin ilk seçkisi kimi qalacaq.








Bəlkə də həmçinin bu səbəbə görə bütün məntəqələrdə böyük növbə vardı. 15 saylı Yasamal Seçki Dairəsinin 18 saylı məntəqənin sədri Qərənfil Bəxtiyarova dedi ki, neçə illərdir seçki prosesində iştirak edir: "Lakin budəfəki seçkilər qədər vətəndaşların fəallığını görməmişəm. Çətinliklə yeriyən yaşlı seçicilər özləri məntəqəyə gəlirlər, baxmayaraq ki, onlara evdə səs verməyə şərait yaradılmışdır".

Özbəkistandan olan müşahidəçi Cumanazar Acanovdan seçkilərin gedişi barədə fikirlərini bölüşməyi xahiş etdik: "Məntəqədəki növbə xalqın bu seçkilərə verdiyi önəmi əks etdirir. Bununla Azərbaycan xalqı özünün seçki mədəniyyətini bir daha nümayiş etdirdi. Məntəqədə seçicilərə istədiyi namizədə səs vermək imkanı yaradılıb. Bir neçə məntəqədə müşahidə aparmışam. Hər yerdə eyni mənzərənin şahidi oldum. Məntəqə nümayəndələri və müşahidəçilər hərə öz səlahiyyətləri çərçivəsində işlərini görürdü. Mən qardaş Azərbaycan xalqının dövlətinə və gələcəyinə göstərdiyi inama heyran qaldım". Qazaxıstandan olan nümayəndələr də C.Acanovun dediklərini təsdiq etdilər.

Həmin məntəqədə müşahidə aparan ATƏT-in nümayəndəsi Ajdari Buyad bildirdi ki, təmsil etdiyi missiyadan seçkilərdə 300 müşahidəçi iştirak edir, özü isə üç gündür ölkəmizdədir. Bu günədək seçkiyə hazırlıq və səsvermənin gedişini bir neçə məntəqədə müşahidə edib. Missiya öz mövqeyini seçkidən sonra ATƏT müşahidəçiləri adından yayılan bəyanatda əks etdirəcək.

Eyni dairənin 19 saylı seçki məntəqəsində də fəallıq aşkar görünürdü. Bu məntəqədə də seçicilər səs vermək üçün növbəyə durmuşdular. Burada yüksək fəallıqla yanaşı, ciddi nizam-intizam da vardı. Xüsusilə yaşlı və ilk dəfə səs verən vətəndaşlara məntəqədə seçki ilə bağlı qaydalar izah olunaraq lazımi kömək göstərilirdi.

Məntəqədən çıxan Musa Nəzərli ilə söhbətləşdik. Dedi ki, uzun illər dənizdə xilasetmə komandanın rəhbəri olub, hazırda təqaüdçüdür. Həyatda riskin nə olduğunu yaxşı bilir: "Prezident İlham Əliyev risk etməyi sevən dövlət başçısıdır. Dünyadakı erməni havadarlarının bütün təhdidlərinə rəğmən 44 günlük Vətən müharibəsində 30 il düşmən tapdağında qalan torpaqlarımızı işğaldan azad etdi. İndi də həmin təhdidlər davam edir. Ancaq o, bu doğru yoldan bir addım da olsun belə geri çəkilmir. Məntəqəyə gəlməzdən əvvəl Prezidentin Xankəndi şəhərində səs verməsi məni bir daha qürurlandırdı. Dövlətimizin bu çətin anında bir daha İlham Əliyevin prezident olmasını istəyirəm və gizlətmirəm, səsimi də ona verdim. Əminəm ki, dövlətimizin başçısı bundan sonra da xalqımıza daha böyük qələbələr qazandıracaq".

7 saylı Səbail Seçki Dairəsinin 10 saylı məntəqəsində də müşahidə edilən ilk mənzərə seçki fəallığı idi. Seçicilər öz vətəndaşlıq borcunu yerinə yetirmək üçün növbəyə durmuşdular. Hamı sakit və təmkinlə növbəsinin çatmağını gözləyirdi.

Məntəqədə öz təşəbbüsü ilə müşahidəçi kimi iştirak edən Ədalət Əsgərovaya müraciət etdik: "Bundan əvvəl də müxtəlif yerlərdə seçkilərdə müşahidəçi kimi iştirak etmişəm. Ancaq bu qədər mütəşəkkillik görməmişəm. Əsas da odur ki, seçicilər böyük mədəniyyət və təmkin nümayiş etdirirlər. Məntəqədə səs vermək üçün bütün şərait yaradılıb, Seçki Məcəlləsinin bütün qaydalarına əməl olunur. Hələlik heç bir qanun pozuntusu ilə rastlaşmamışıq". Müşahidəçi Gülnarə Məmmədova da həmkarının dediklərini təsdiq edərək bildirdi ki, ilk dəfədir belə seçki fəallığının şahidi olur.

Məntəqədən çıxan seçici Gülnarə Əhədovadan seçki ilə bağlı təəssüratlarını bölüşməyi xahiş etdik: "Son dövrlər ölkəmizə qarşı olan haqsız münasibətin şahidi oluruq. 30 il torpaqlarımızı ermənilər işğal edəndə səslərini çıxarmayanlar indi bizi nələrdə günahlandırmırlar ki?! Ona görə ki, tarixi ərazilərimizi işğaldan azad etmişik. Mən bu gün bir ziyalı kimi bizə bu tarixi Zəfəri yaşadan, qürurumuzu özümüzə qaytaran liderə səs vermək üçün gəlmişəm. Bir vətəndaş kimi bunu özümə borc bildim, ailə üzvlərimlə və qohumlarımla bir yerdə bu səsvermədə iştirak etdim".

***Rüstəm KAMAL,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Seçkilər İnformasiya Mərkəzi məlumatları operativ şəkildə ictimaiyyətə çatdırdı

Azərbaycan xalqı Vətən müharibəsində qazandığı Zəfər sevincini fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində bir daha ifadə etdi. Müstəqillik tarixində ilk dəfə dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı könlü qübarsız, nisgilsiz səsvermədə iştirak edərək öz vətəndaşlıq borcunu yerinə yetirirdi.





Qalib ölkənin vətəndaşları öz dövlət başçısını seçməyə böyük qürurla, bayram əhvali-ruhiyyəsi ilə getdi. Bunu seçki günü Mərkəzi Seçki Komissiyasına ayrı-ayrı seçki məntəqələrindən gələn məlumatlar da təsdiq edirdi.

Suverenliyini tam bərpa etmiş respublikamızın bütün ərazilərində Azərbaycan Respublikası Prezidentinin seçkiləri fevralın 7-də səhər saat 8:00-da başladı. Səsvermə 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində keçirildi. Həmin məntəqələrdən 6319-u daimi, 218-i isə Azərbaycanın xarici ölkələrdəki səfirlik, konsulluq və daimi nümayəndəliklərində, hərbi hissələrdə, islah-əmək və sanator-müalicə müəssisələrində, Xəzər dənizində və dünya sularında Azərbaycanın bayrağı altında üzən gəmilərdə yaradılmış məntəqələrdir. Ümumilikdə 6 milyon 524 min 203 seçki bülleteni çap olunmuşdu.

Qeyd edək ki, növbədənkənar prezident seçkilərində 7 namizəd mübarizə aparırdı. Hazırda Azərbaycanda səsvermə hüququ olan vətəndaşların sayı 6 milyon 478 min 623 nəfərdir. Seçki prosesini 790 beynəlxalq müşahidəçi izləyirdi. Onlar 72 beynəlxalq təşkilatı və 89 ölkəni təmsil edirdilər. Yerli müşahidəçilərin ümumi sayı isə 90 minə yaxın idi. Seçkiləri 109 beynəlxalq media qurumunun 216 təmsilçisi işıqlandırırdı.

Seçkilər İnformasiya Mərkəzində keçirilən mətbuat konfransında MSK sədri diqqətə çatdırdı ki, dairə seçki komissiyalarının hamısı kompüterləşdirilib və digər lazımi avadanlıqla təmin olunub. Kompüterlər Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminə qoşulub. Bu da bütün məlumatların MSK-nın "Seçkilər" İnformasiya Mərkəzinə operativ ötürülməsini təmin edəcək.

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 7-də növbədənkənar prezident seçkilərinin başlaması ilə əlaqədar təşkil olunan mətbuat konfransında bu seçkilərin Azərbaycanın beynəlxalq ictimaiyyət və qurumlar tərəfindən tanınıb qəbul edilmiş bütün sərhədləri daxilində keçiriləcəyinin sevindirici hal olduğunu vurğuladı: "İnanıram ki, bu gün axşam Azərbaycan xalqı bu proseslərin uğurla başa çatdırılmasının sevinclə şahidi olacaq".

Məzahir Pənahov qeyd etdi ki, Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıq edən və müəyyən vəzifəsi olan qurumların içərisində ən əhəmiyyətlisi media subyektləridir: "Çünki jurnalistlərin fəaliyyəti nəticəsində Azərbaycan və dünya ictimaiyyəti seçkilərlə tanış olacaq". MSK sədri bildirdi ki, seçkilərin şəffaf keçirilməsi, bu mühüm kompaniya ilə bağlı ictimaiyyətdə fikir formalaşması baxımından jurnalistlərin üzərinə böyük iş düşür: "Ona görə də indiyə qədər jurnalistlərin göstərdiyi fəaliyyəti yüksək qiymətləndiririk".

Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair ilk rəsmi məlumat saat 10:00-da açıqlandı və KİV vasitəsilə yayımlandı. Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov həmin vaxtadək seçicilərin 19,44 faizinin (1 milyon 259 min 371 nəfər) səs verdiyini bildirdi.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair növbəti məlumatı saat 12:00-da verdi. MSK Katibliyinin İnformasiya Mərkəzinin müdiri seçicilərin 38,57 faizinin (2 milyon 499 min 33 nəfər) səs verdiyini bildirdi.

Azərbaycan Prezidenti seçkiləri üzrə səsvermədə seçici fəallığı növbəti dəfə saat 15:00-a açıqlandı. Fərid Orucov MSK-nın Seçkilər İnformasiya Mərkəzində keçirdiyi mətbuat konfransında qeyd etdi ki, saat 15:00-a qədər respublika üzrə 3 milyon 922 min 187 nəfər nəfər səs verib, seçici fəallığı 60,54 faiz olub.

Seçkilər İnformasiya Mərkəzi səsvermənin gedişi və nəticələri barədə seçki məntəqələrindən alınan son məlumatı saat 17:00-da açıqladı.

Bildirildi ki, səsvermədə 4 milyon 590 min 75 seçici iştirak edib. Bu, prezident seçkilərində qeydə alınmış seçicilərin 70,85 faizini təşkil edir.

Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri prosesinə dünyanın bir sıra ölkələri də böyük maraq göstərir. Qeyd etdiyimiz kimi, seçki prosesini 790 beynəlxalq müşahidəçi izləyirdi. Onlardan bir neçəsi fevralın 7-də Mərkəzi Seçki Komissiyasında oldu və sualları cavablandırdı. Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxodjayev, Türkmənistan Mərkəzi Seçki Komissiyasının təmsilçisi Məqsədmurad Gəldiyev, Qazaxıstan nümayəndəsi Adil Niyazov ölkəmizdə seçicilər və müşahidəçilər üçün lazımi şəraitin yaradıldığından razılıqlarını ifadə etdilər. Beynəlxalq müşahidəçilər Azərbaycanda seçki prosesində mükəmməl təşkilatçılığın və seçici fəallığının şahidi olduqlarını bildirdilər.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***






# Naxçıvanda prezident seçkiləri yüksək fəallıqla başa çatdı

**Dünən səhər saat 08:00-da ölkəmizin bütün suveren ərazisində Azərbaycan Respublikası Prezidentinin seçkiləri başlandı. Prezident postu uğrunda 7 namizəd mübarizə apardı. Bu seçkilər ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində keçirildi. Səsvermə 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində reallaşdı.**










Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da növbədənkənar prezident seçkiləri fəallıqla başa çatdı.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində səs verdi.

"Şərq qapısı" qəzetinin əməkdaşlarının redaksiyamıza verdiyi məlumata görə, muxtar respublikanın bütün rayonlarında da prezident seçkiləri uğurla başa çatdı.

## Zəfər seçkisi ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir

7 fevral 2024-cü il!

Xalqın Zəfər seçkisinin keçirildiyi gün Azərbaycanın dövlətçilik tarixinə çox əlamətdar bir gün kimi yazıldı. Müstəqillik tariximizdə ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisini əhatə etdi. Prezident seçkiləri gününü xalqımız böyük ruh yüksəkliyi ilə qarşılayaraq öz konstitusiya hüququndan istifadə etdi. Şərur rayonunda da səhər saatlarından yüzlərlə seçicinin axışaraq seçki məntəqələrinə gəlməsi Oğuz elinin müasir inkişafının təntənəsi idi. Əsl bayram əhvali-ruhiyyəsi yaşanan rayonda səhər saat 08:00-da bütün məntəqələr qapılarını seçicilərin üzünə açmışdı. Məntəqələrdə seçkilər bütün prosedur qaydalara uyğun olaraq aparıldı. Seçicilərin seçdikləri namizədə səs vermələri üçün zəruri olan bütün şərait yaradılmışdı.

Rayon mərkəzində yerləşən 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 1 saylı məntəqə seçki komissiyasının sədri Qulu Quliyev deyir ki, əslində, səhər tezdən bu qədər seçicinin məntəqəyə gəlməsi gözlənilən idi, çünki şərurlular ölkəmiz üçün taleyüklü məsələlərə həmişə həssaslıqla yanaşıblar.

Məntəqədən çıxan seçici İsmət Məmmədova bildirdi ki, burada proses tam şəffaf təşkil olunub: "Seçki mədəniyyətinin hər seçkidə daha da yüksəlməsi məni olduqca məmnun edir. Seçki prosesi yüksək səviyyədə davam edir. Azad şəkildə seçimimi edərək ən layiqli namizədə səs verdim". Çərçiboğan kənd tam orta məktəbində yerləşən 2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 10 saylı seçki məntəqəsində də seçici aktivliyi müşahidə olundu. Məntəqə seçki komissiyasının sədri Vasif Nəcəfli bildirdi ki, aparılan hazırlıq işlərinin nəticəsidir ki, seçicilər heç bir çətinliklə qarşılaşmadan səsvermə hüquqlarından tam istifadə etdilər.

İlk dəfə prezident seçkilərində iştirak edən Əfsanə Məmmədova fikirlərini bizimlə bölüşür: "Birinci dəfədir, səsvermə prosesinin necə olduğunu görürəm. Çox qürurvericidir. Ölkəmizin gələcəyini düşünən layiqli namizədə səs vermək mənim üçün böyük şərəfdir. Mən də bir vətəndaş kimi seçmək hüququmdan istifadə edərək xalqımızın tərəqqisini, inkişafını tam mənası ilə təmin edə bilən namizədə səs verdim".

2 saylı Şərur-Kəngərli Seçki Dairəsinin 23 saylı məntəqəsində Vətən müharibəsi şəhidi Elməddin Meydanovun qardaşı İsmayıl Meydanov fikirlərini bölüşür: "Xalqın Prezidenti, adını Azərbaycan tarixinin səhifələrinə əbədi yazan qalib xalqın qalib sərkərdəsidir. Qalib xalqımıza qalib Prezident yaraşır. Bu gün seçkilərdə iştirak etməyi özümə borc bildim. Ailəmlə birlikdə seçkilərdə iştirak etdik, bu seçki digər seçkilərə bənzəmir. Bu seçkidə başıuca, alnıaçığıq. Vətənimizi bütövləşdirən şəhidlərin ruhu şad olsun".

## Zəfərli, inamlı və ümidli seçki yolunda xoş sabahlara doğru

3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsinin 65 məntəqəsi, 47617 nəfər seçicisi var. İlk dəfə səsverənlərin sayı 2664 nəfərdir ki, bunlardan da 83 nəfəri 18 yaşlılardır. 6 nəfər seçici isə 96 yaşlıdır. Dairə üzrə 7 müşahidə kamerası quraşdırılıb.

Babək şəhərindəki Babək Rayon Mədəniyyət Evində yerləşən 2 saylı seçki məntəqəsində seçki başlamamışdan izdiham hiss olunurdu. Məntəqədə seçki açıq elan edildikdən sonra hər bir seçici səsvermədə iştirak etmək üçün şəxsiyyət vəsiqəsini göstərir, bülleteni alıb səsvermə kabinəsinə keçərək öz namizədinə səs verirdi. Məntəqədə Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş gizir Ümid Novruzlunun atası Bahadur Novruzovla həmsöhbət oluruq: "Biz də öz şəhid övladımızın səs verdiyi namizədə səsimizi verməkdən qürur duyuruq. Bu gün kim bayrağı Şuşada, Xankəndidə dalğalandırıbsa, ərazi bütövlüyümüzü, suverenliyimizi kim təmin edibsə, səsimiz onun səsidir".

Babək şəhərindəki 1 nömrəli tam orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində 1200 seçici var ki, onlardan da 65 nəfəri ilk dəfə səs verənlərdir. Qazi baş leytenant Abbasəli Tarverdiyev də hərbi formada əzəmətli və qürurlu, anlıaçıq, üzüağ bu məntəqədə səsvermədə iştirak edirdi: "Bu gün keçirilən prezident seçkiləri tam və bütöv Azərbaycan ərazisində keçirilir. Buna görə də biz bu xoş günləri yaşayırıq. Cənab Prezidentimizin özü də Xankəndi şəhərində səsvermədə iştirak etdi. Biz də döyüşlərdə iştirak etmiş hərbi qulluqçu, qazi olaraq vətənimizin, dövlətimizin yanındayıq. Mən və qazi yoldaşlarımız da səsimizi qalib liderimizə verdik".

Cəhri qəsəbə xəstəxanasının binasında yerləşən 23 saylı seçki məntəqəsinin isə 1111 seçicisi var. Onlardan 44 nəfər seçkidə ilk dəfə olaraq iştirak edirdi. Bundan əlavə, Cəhri qəsəbəsindəki 20 saylı, Kərimbəyli kəndindəki 5 saylı, Kültəpə kəndindəki 6 saylı və Yuxarı Uzunoba kəndindəki 16 saylı seçki məntəqələrində də seçicilərdə aktivlik və yüksək əhvali-ruhiyyə müşahidə edirik.

## Zəfər seçkiləri xalqımızın arzularının təminatçısıdır

Ordubad rayonundakı seçki məntəqələrində də fəallıq müşahidə olunurdu. 6 saylı Ordubad-Culfa Seçki Dairəsinin 65 seçki məntəqəsi var. 1448 seçici qeydə alınan Ordubad şəhərindəki 3 saylı seçki məntəqəsində 7 daşınan qutu müəyyən edilmişdi.

Məntəqədə həmsöhbət olduğumuz seçicilərdən yaşı 60-ı ötmüş Hüseyn Məmmədov deyir ki, ölkəmizdə keçirilən prezident seçkilərində mütəmadi olaraq iştirak edib. Bu dəfə daha böyük sevinclə, həvəslə seçimlərə qatılıb: "Seçimimdə isə ölkəmizin, Vətənimizin mənafeyini, xalqımızın tələblərini nəzərə alıb istədiyim namizədə səs verdim".

Rayon mərkəzindəki 2 saylı seçki məntəqəsində 1473 seçici qeydə alınmışdı ki, onlar arasında 18 yaşını tamam edərək ilk dəfə iştirak edən şəxslər də var idi. 4 saylı seçki məntəqəsində isə 1335 nəfər seçicinin səs verməsi nəzərdə tutulmuşdu. Həmin seçicilərdən də 4 nəfəri seçkilərə ilk dəfə qatılırdı.

Rayon üzrə ən çox seçicinin qeydə alındığı Dəstə kəndində yerləşən 17 və 18 saylı məntəqələr idi. 17 saylı seçki məntəqəsində 1488 nəfər, 18 saylı seçki məntəqəsində isə 1491 nəfərin səs verməsi nəzərdə tutulmuşdu. Hər iki məntəqə üzrə 134 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edən seçici vardı.

Rayonun Nüsnüs kəndində yerləşən 10 saylı seçki məntəqəsində 1478 nəfər seçici qeydə alınmışdı. Məntəqədə 2 nəfər üçün daşınan qutu ayrılmışdı.

## "Ölkəmizin parlaq gələcəyi naminə seçkilərdə iştirak etdik"

Muxtar respublikadakı seçici fəallığı 5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi üzrə seçki məntəqələrində də hiss olunurdu. Bu dairə üzrə 46 məntəqədə 48046 seçiciyə səs vermək üçün hərtərəfli şərait yaradılmışdı.

Ən çox seçici sayı isə 38 saylı Ərəzin seçki məntəqəsində idi. Bu seçki məntəqəsində 1468 nəfər qeydə alınmışdı. 5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsinin 20, 29, 33, 34, 38 saylı seçki məntəqələrində müşahidə kameraları quraşdırılmışdı.

Səhər saatlarından başlayaraq 5 saylı Babək-Naxçıvan-Culfa seçki Dairəsinin 34 saylı seçki məntəqəsində xalqının gələcəyi üçün səs verməyə gələn sakinlər fəallıqları ilə diqqəti çəkirdilər.

Xalqımızın qürur mənbəyinə çevrilmiş şəhid ailələri də öz layiqli namizədinə səs vermək üçün seçkilərdə fəal iştirak edirdilər. Onlardan biri - İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş leytenant Yaqub Nəcəfovun anası Xuraman Nəcəfova idi. Şəhid anası bildirdi ki, 7 fevral prezident seçkiləri tarixi seçkilərdir. Çünki bu seçkilər Azərbaycanın bütün bölgələrində, o cümlədən qəhrəman oğullarımızın öz canları bahasına işğaldan azad etdiyi ərazilərdə keçirilir. Buna görə də bütöv Azərbaycan xalqı seçkilərdə iştirak etmək, səs vermək üçün bu günü gözləyirdi: "Ailəmiz də həmçinin. Biz də bütün ailə üzvlərimizlə birgə xalqımızın, ölkəmizin parlaq gələcəyi naminə seçkilərdə iştirak etdik və öz layiqli namizədimizə səs verdik. Düşünürük ki, Azərbaycanın gələcəyi daha yaxşı olacaq. Qürur duyuram ki, prezident seçkilərində yüzlərlə şəhid anaları kimi, mən də öz iradəmlə seçkidə iştirak edərək xalqımızın parlaq sabahlarına səs verdik".

Kəngərli rayonunda da seçkilərə ciddi hazırlıq işləri görülmüş, seçicilərin rahat, sərbəst səs verməsinə şərait yaradılmışdı. Qeyd edək ki, seçkilərlə bağlı 2 saylı Şərur-Kəngərli Seçki Dairəsi üzrə Kəngərli rayonunda seçicilər 15 seçki məntəqəsində öz namizədlərinə səs veriblər. Rayon üzrə 14 min 501 seçici qeydə alınmışdı.

Bununla yanaşı, muxtar respublika üzrə ən yaşlı seçici də məhz bu dairədə səs verib. Adıçəkilən seçki dairəsinin 41 saylı Qıvraq seçki məntəqəsində seçicilər siyahısında adı olan Şərəf Hüseynəliyeva əvvəlki seçkilərdəki kimi, budəfəki prezident seçkisində də iştirak etmək arzusunda olub. Səhhəti ilə əlaqədar seçki məntəqəsinə gedə bilmədiyi üçün ailəsi tərəfindən məntəqə seçki komissiyasına ərizə ilə müraciət edilib. Ş.Hüseynəliyevanın müraciətini nəzərə alaraq, səsvermə günü onun yaşadığı evə daşınan seçki qutusu göndərilib. 104 yaşlı seçici ailəsinin köməyi ilə bülleteni dolduraraq istədiyi namizədə səs verib.

## "Böyüməkdə olan nəslin etibarlı sabahı naminə səs verdim"

Növbədənkənar prezident seçkiləri muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da öz mütəşəkkilliyi, yüksək səviyyədə təşkili ilə yadda qaldı.

3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə 65 seçki məntəqəsindən 29-u bu rayonun ərazisində fəaliyyət göstərirdi. Məntəqələrdə səhər saatlarından başlayaraq qələbəlik müşahidə olunur, rayon sakinləri hamılıqla, ailəliklə bu prosesdə fəal iştiraka can atırdılar. Şahbuz rayonunda yaradılmış 29 seçki məntəqəsində, ümumilikdə, 16 min 572 seçici qeydə alınmışdı ki, həmin seçicilərin 861-i ilk dəfə prezident seçkilərində iştirak edirdi. Seçkilərin yüksək əhvali-ruhiyyədə keçməsi, şəffaflığın təmin olunması, yerli və xarici müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün əlverişli şərait yaradılmış, 3-37 və 3-40 saylı məntəqələrdə isə veb-kamera quraşdırılmışdı.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə yerləşən və 1393 seçicinin qeydə alındığı 40 saylı seçki məntəqəsinə sakinlər böyük ruh yüksəkliyi ilə axın edirlər. Şəhər sakini Röya Əliyarlı ilk dəfə prezident seçkilərində iştirak edirdi. Bildirdi ki, bu seçki onun üçün iki mühüm amillə əlamətdardır. Həm birinci dəfədir öz layiqli namizədinə səs verir, həm də bu hüquqdan suverenliyi, ərazi bütövlüyü təmin olunmuş qalib ölkənin gənci kimi istifadə edir. Gənclərə göstərilən diqqət və qayğı, onların yüksək təhsil qazanmaları üçün yaradılan şərait, dövlət idarəetməsində önə çəkilmələri barədə danışan, ümumilikdə, dövlət gənclər siyasətinin məqsədyönlü şəkildə həyata keçirildiyini vurğulayan Röya bu siyasəti davam etdirə biləcək namizədə səs verdiyini deyir.

Ucqar dağ kəndi olan Biçənəkdə yerləşən 3-51 saylı seçki məntəqəsində seçki prosesi üçün ideal şərait yaradılıb. Məntəqə sədri Həsənxan Quliyev bildirir ki, burada 883 seçici qeydə alınıb, 70 nəfər ilk dəfə səs verəcək, səsvermə seçicilərin yüksək fəallığı şəraitində keçirilir. Kənd sakinləri artıq səhər saatlarından başlayaraq öz seçimlərini etmək üçün məntəqəyə üz tuturlar. Burada hər bir seçici yüksək əhvali-ruhiyyə ilə seçici siyahısından adını taparaq məntəqə seçki komissiyasından aldığı seçki bülletenində dəstəklədiyi namizədə səs verir.

Rayonun digər ucqar yaşayış məntəqəsi sayılan Kolanıya kəndində 1189 seçicinin qeydiyyata alındığı 3-48 saylı seçki məntəqəsində də seçicilərin fəallığı müşahidə olunurdu. Məntəqəyə üz tutan seçicilərin seçki prosesi ilə bağlı fikirlərini öyrənirik. Aydın İsmayılov kəndin ən yaşlı sakini kimi bu ümumxalq tədbirində iştirak edir. Bildirir ki, yaşının 90-ı ötməsinə baxmayaraq, daşınan qutudan istifadə üçün müraciət ünvanlamayıb, məntəqəyə gələrək Zəfər seçkisində iştirakı mənəvi borcu hesab edib: "Ölkəmiz müstəqillik qazandıqdan indiyədək bütün seçkilərdə iştirak etmişəm. Düşünürəm ki, bu prosesdə gələcəyini düşünən hər bir vətəndaşın iştirakı vacibdir. Proses ötən seçkilərdə olduğu kimi tam şəffaf, demokratik şəraitdə keçirilir. Bizim gələcəyimiz gənclərdir, nəvələrimiz, nəticələrimizdir. Ona görə mən də öz nəvələrimin timsalında böyüməkdə olan nəslin etibarlı sabahları naminə səs verdim. İnanıram ki, bu günümüz dünəndən daha yaxşı olduğu kimi, sabahımız da bu gündən aydın, işıqlı olacaq".

## "Qalib xalqın gəncləri olaraq seçkilərdə iştirak etməyimiz xoşbəxtlikdir"

Ölkəmizin qeyrət qalası sayılan Sədərək rayonunun Sədərək kəndindəki 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin 37 saylı seçki məntəqəsində də səsvermə çox mütəşəkkil və şəffaf keçirildi.

Hələ seçkiyə başlamazdan əvvəl məntəqə yerləşən ərazidə çoxlu sayda seçici yığışmışdı. Hər bir seçici yüksək əhvali-ruhiyyə ilə seçki məntəqəsinə daxil olur, şəxsiyyət vəsiqəsini göstərir, seçki bülleteni alıb səsvermə kabinəsinə keçir, nəzərdə tutduğu namizədə səs verirdi. Adıçəkilən dairə üzrə yaradılmış 49 seçki məntəqəsindən 12-si Sədərək rayonunda yerləşir. Rayon üzrə ümumilikdə, 12980 seçici qeydə alınıb. Bu bölgə üzrə 820 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edir. Məntəqəyə elə ilk üz tutan da ilk dəfə səsvermə hüququndan istifadə edən gənclər oldu. Onlar seçki ilə bağlı öz fikirlərini bölüşdülər. 1-37 saylı seçki məntəqəsində səs verən Zümrüd Rzazadə ilk dəfə prezident seçkilərində səsvermə hüququ qazandığı üçün qürur duyduğunu bildirir: "İlk dəfə səs verəcəyim günü maraq və səbirsizliklə gözləyirdim. Düşünürəm ki, gənclərin bu proseslərdə fəal iştirak etməyinin Azərbaycan xalqının gələcək taleyində həlledici rolu olacaq".

Rayonun Heydərabad qəsəbə tam orta məktəbində yerləşən 1-36 saylı seçki məntəqəsində ilk dəfə səs verənlər arasında Nuriyyə Cavadova ilə görüşdük: "İlk dəfədir səs verdiyim üçün həyəcanlıyam. Bizim gəncliyimiz çox xoşbəxtdir ki, ölkəmizdə son illər baş verən bütün tarixi hadisələrin yaxından şahidi olur. Bu növbədənkənar prezident seçkiləri də belə əlamətdar günlərdən biridir. Ərazi bütövlüyü bərpa olunmuş ölkənin, qalib xalqın gəncləri olaraq bu seçkilərdə iştirak etməyimiz taleyimizə yazılmış bir xoşbəxtlikdir".

İlk dəfə səs verən gənclər sırasında Bakı şəhərindən gələnlər də var idi. 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin 42 saylı seçki məntəqəsində səs verən Selma Hüseynova deyir ki, bu tarixi günü həmişə xatırlayacaq: "Çünki bu gün həyatımda ən əlamətdar gündür. Belə bir gündə mən də Bakı şəhərindən gəlib öz layiqli namizədimə səs verdim. Cəmiyyətimiz inkişaf edir, dünyada baş verən hadisələri də yaxından izləyə bilirik, müqayisələr aparırıq. Azərbaycanın bundan sonrakı inkişafı üçün böyük işlər görə biləcək namizədə səs verdim".

Naxçıvanda prezident seçkiləri mütəşəkkilliyi ilə yadda qaldı. Böyük ictimai-siyasi əhəmiyyət daşıyan seçkilərin uğurla başa çatması, həmçinin Azərbaycan tarixi ədaləti bərpa etdikdən sonra ilk dəfə olaraq bu seçkilərin suveren ölkənin bütün ərazilərində keçirilməsi onu göstərdi ki, vətəndaşlarımız qüdrətli bir dövlətə çevrilməyimizin qürur hissini yaşayırlar. Bu seçkilər göstərdi ki, muxtar respublikada prezident seçkilərinin azad, şəffaf, demokratik şəkildə keçirilməsi üçün hər cür şərait yaradılıb və seçki təcrübəsi formalaşıb.

*"Azərbaycan"*

---

## Şəhid anası: "Zəfər seçkisində iştirak etməkdən qürur duyuram"

**Vətən müharibəsi şəhidi Raqib Hüseynovun valideynləri Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbdə, 4-18 saylı seçki məntəqəsində öz səsvermə hüquqlarından istifadə ediblər.**



Şəhid anası Rəna xanım bildirdi ki, Vətən müharibəsinin ilk günlərində oğlu şəhadət şərbəti içib. Onun bürünüb gəldiyi bayrağı bəy paltarı kimi qəbul edib bağrına basıb: "Bu gün də oğlumun ətrini üçrəngli, ayulduzlu bayrağımızdan alıram. Bu bayrağı daim yüksəklərdə görmək ümidi ilə oğlumun da canından keçdiyi Vətənin gələcəyi üçün səs verdim. Vətənimizin igid oğullarının valideynləri kimi, bu Zəfər seçkisində iştirak etməkdən qürur duyuram".

## "Oğlumun canından əziz bildiyi Vətənin işıqlı gələcəyinə səs verdim"

**Şanlı Vətən savaşında qələbənin qazanılmasında naxçıvanlı igidlər də qəhrəmanlıq göstərərək başımızı uca etdilər.**



Onlar yurdu uğrunda "Öncə Vətən" deyib canlarından keçdilər. Həmin igidlərdən biri - döyüşlərdə "Naxçıvan canavarı" adı ilə tanınan Vəli Quliyevin anası Həqiqət xanım bu gün səhhəti ilə bağlı Bakı şəhərində olsa da, Nərimanov rayonu 18 saylı Seçki Dairəsinin 18-6 saylı məntəqəsində öz səsvermə hüququndan istifadə edib. O, seçki ilə bağlı təəssüratlarını bizimlə bölüşdü:

- Bu seçkiyə qədər bir neçə səsvermədə iştirak etmişəm. Amma bu gün biz şəhid ailələri üçün daha qürurvericidir. Çünki bu seçki həm də Zəfərdən sonrakı ilk seçki olmaqla birliyimizin, həmrəyliyimizin, bütövlüyümüzün göstəricisidir. Oğlumun canından əziz bildiyi Vətənin işıqlı gələcəyinə səs verdim. Tanrı şəhid məzarlarının başı üstündə qürurla dalğalanan bayrağımızı daim uca, dövlətimizi var etsin!

## "Bu gün bütöv Azərbaycanın bayram günü, birlik günüdür"

**Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanova ilə Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbdə yerləşən 28 saylı seçki məntəqəsində həmsöhbət olduq:**



- Bu seçki indiyə qədər gördüyüm seçkilərdən seçiləndir, deyərdim ki, xeyli fərqlidir. Azərbaycan ağır şəraitdə müstəqillik qazandığı illərdə xalq birləşib çətinliklə də olsa, azadlığını, müstəqilliyini qoruya bildi. Şükür Allaha ki, illər əvvəl itirdiyimiz torpaqları igid oğullarımızın sayəsində geri qaytardıq. Bu günü bayram adlandırıram. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə hər kəs öz yurdunda öz sabahının taleyini müəyyənləşdirdi. Bayrağımız həmişə uca, Vətənimiz var olsun deyə nəvələrimizin, nəticələrimizin işıqlı gələcəyinə səs verdim. Bununla Vətənimizin daha gözəl günlərinə səs verdim.

## Naxçıvanda da brayl əlifbası ilə səsvermə imkanı yaradılıb

**Görmə qabiliyyətini tam və ya qismən itirmiş şəxslərin seçkilərdə rahat iştirakını təmin etmək məqsədilə brayl əlifbası ilə trafaretlər çap olunub bütün seçki məntəqələrinə təqdim edilib.**



4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin 16 saylı seçki məntəqəsində qeydiyyatda olan gözdən əlil vətəndaş da bu şəraitdən istifadə edərək səs verib. Səsvermədə iştirak edən Elməddin Kərimov təəssüratlarını qəzetimizlə bölüşərək bildirdi ki, mən də vətəndaş kimi seçki hüququmdan istifadə etdim. Bizim üçün bu şəraitin yaradılmasına sevindim. Tam rahatlıqla ailəmlə birlikdə seçkidə iştirak etdik və seçdiyimiz namizədə səs verdik.

# Zəfər ovqatlı seçicilər

## Müşfiqabad qəsəbəsində məskunlaşan keçmiş məcburi köçkünlər xoşbəxt sabahlarına səs verirdilər





7 fevral 2024-cü il xalqımızın tarixinə böyük hərflərlə yazılacaq. Çünki həmin gün ölkəmizdə növbədənkənar prezident seçkiləri keçirildi. Bu tarix xalqımız üçün çox əlamətdar idi. Ona görə ki, həmin gün xalqımız özünə növbəti illər üçün dövlət başçısı, Prezident seçdi, xoşbəxt sabahlarına səs verdi.

Qış günü olsa da, hava günəşli idi. Sanki hava da bu əlamətdar gündə istisini xalqımızdan əsirgəmirdi. Səsvermə məntəqələrinin qarşısında qələbəlik idi. Hiss olunurdu ki, xalqımız bu gün keçiriləcək növbədənkənar prezident seçkilərində azad, ədalətli, şəffaf, demokratik və obyektiv seçkikeçirmə ənənəsinə sadiqliyini bir daha nümayiş etdirəcək.

Ağdam şəhər 118 nömrəli Seçki Dairəsinin 52 nömrəli seçki məntəqəsinin qarşısında da sıxlıq idi. Bu məntəqədə 1993-cü ildə Ağdam rayonundan məcburi köçkün düşərək Müşfiqabad qəsəbəsində məskunlaşmış seçicilər səs verirdilər. Onlar vətəndaşlıq borclarını yerinə yetirmək üçün məntəqələrə gələrək seçimini etdikləri namizədlərinə səs verirdilər. Məntəqə seçki komissiyasının sədri Nəsibə Hüseynova söhbət zamanı dedi ki, seçicilərin şəffaf, demokratik şəkildə səs vermələri üçün hərtərəfli şərait yaradılıb. Onlar bu şəraitdən istifadə edərək öz namizədlərinə səs verirlər. Seçkilərin başladığı ilk dəqiqələrdən seçicilərin fəallığı aydın şəkildə hiss olunur. Buna görə də tez-tez növbə yaranır. Seçicilər vətəndaşlıq məsuliyyətlərini dərindən hiss edirlər.

Seçkinin gedişini izləyirik. Seçicilər məntəqəyə yaxınlaşır, şəxsiyyət vəsiqələrini təqdim edirlər. Ad, soyadlarının qarşısında imza atdıqdan sonra seçki bülleteni alaraq xüsusi hazırlanmış, nömrələnmiş və pərdə çəkilmiş kabinələrə daxil olurlar. Kabinədə səs verdikdən sonra bülleteni müşahidəçilərin və məntəqədə çalışanların önünə qoyulmuş şəffaf rəngli qutuya atırlar.

Seçicilərə tibbi xidmət göstərilməsi üçün burada məntəqə də yaradılıb. Həkim-terapevt Vəsilə Cəfərova dedi ki, biz seçkilər zamanı zərurət yarandıqda vətəndaşlarımıza ilkin tibbi xidmət göstərmək üçün səsvermə keçirilən ərazidə məntəqə yaratmışıq. Bu gün seçicilərimizə tibbi xidmət göstərmək üçün buradayıq. İndiyə qədər iki nəfər məntəqəyə müraciət edərək təzyiqlərinin yüksək olduğunu bildirdilər. Tibb bacıları Aytəkin Qurbanova və Günel Ağcayeva onlara lazımi yardım göstərdilər. Mən özüm də seçiciyəm. Bir az əvvəl vətəndaş kimi səsvermədə iştirak etdim. Ağdam rayonunda dünyaya göz açmışam. Erməni qəsbkarları bizi doğma ocaqlarımızdan qaçqın salanda 11 yaşım var idi. Uzun illər idi ki, torpaq həsrətiylə yaşayırdıq. Şükürlər olsun ki, 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Ordusu erməni qəsbkarlarını diz çökdürərək başqa bölgələrimiz kimi Ağdamı da işğaldan azad etdi. Həmin günlərdə xalqımız Zəfər sevinci yaşadı. Bu gün bir vətəndaş, bir həkim kimi bizə Zəfər sevinci yaşadan Liderə səs verdim. Düşünürəm ki, həyatımda ən düzgün seçimimi etdim.

Məntəqədə səs verib həyətə çıxmış Tofiq və Məhərrəm Salmanov qardaşları ilə həmsöhbət olduq. Onlar dedilər ki, seçicilərin şəffaf və demokratik şəkildə səs vermələri üçün məntəqədə hərtərəfli şərait yaradılıb. Biz də ölkəmizin başqa vətəndaşları kimi seçkilərdə fəal iştirak edərək ən yaxşı namizədə - yurdumuzun xilaskarına, üstümüzdən qaçqın adını götürən Liderə, həm özümüzün, həm də övladlarımızın xoşbəxt gələcəyinə səs verdik.

Seçki prosesini izləyən müşahidəçilərlə də söhbət etdik. Böyük Azərbaycan Partiyasını təmsil edən müşahidəçi Sahilə Heydərova dedi ki, seçki prosesini diqqətlə izləyirik. İndiyə qədər heç bir arzuolunmaz hadisə baş verməyib. Növbədənkənar prezident seçkiləri çox demokratik və şəffaf şəraitdə keçirilir. Seçicilərin səsvermələri üçün məntəqədə yaradılmış şərait ürəkaçandır. Seçici fəallığı da diqqətimizdən yayınmır. Hiss olunur ki, Azərbaycan xalqı özünün gələcək Liderini, Prezidentini seçməyə böyük həvəslə gəlir.

Digər partiyalardan prezidentliyə namizəd olanların müşahidəçiləri Şamxal Aslanov, Ayşən Salayeva, Rövşən Quliyev və başqaları seçkilərin demokratik və şəffaf şəraitdə keçirildiyini bildirdilər.

124 nömrəli Şuşa, Xocalı, Xocavənd dairəsinin 104 nömrəli məntəqəsindəki qələbəlik də diqqətdən yayınmadı. Məntəqəyə gələn seçicilər əvvəlcə səliqə ilə dəhlizə vurulmuş siyahıda öz ad-soyadını dəqiqləşdirirdilər. Sonra məntəqəyə daxil olaraq səs verirdilər.

Bu məntəqədə 1992-ci ildə Şuşa, Xocalı və Xocalıdan qaçqın düşərək Müşfiqabad qəsəbəsində məskunlaşmış keçmiş məcburi köçkünlər səs verirdilər.

104 nömrəli məntəqə seçki komissiyasının sədri Aiqə Zülfüqarova söhbət zamanı dedi ki, seçicilərimiz çox fəaldılar. Demək olar ki, saat 12-yə qədər seçicilərin 60 faizi səs veriblər. Bu göstərici bir daha sübut edir ki, vətəndaşlarımız hər şeydən əvvəl xoş gələcəklərini düşünürlər. Səhər lap ertədən məntəqəyə gələrək platformalarını bəyəndikləri, prezident görmək istədikləri namizədə səs veriblər. Burada seçicilərin şəffaf və demokratik şəraitdə səs vermələri üçün hərtərəfli şərait yaradılıb. Məntəqəyə daxil olan seçicilərə böyük diqqət və qayğı ilə yanaşılır. Qeydiyyatdan keçdikdən, seçici vərəqində imza atdıqdan sonra onlara bülleten təqdim olunur. Bülleteni alan seçici səs vermək üçün xüsusi olaraq ayrılmış kabinələrə daxil olaraq seçimini edir. İstədikləri, rəğbət bəslədikləri namizədin qarşısında müvafiq qeydlər aparandan sonra bülleteni müşahidəçilərin qarşısına qoyulmuş şəffaf görüntülü qutuya atırlar. Seçicilər məntəqədə onlar üçün yaradılmış şəraitdən razılıq edirlər. İndiyə qədər heç bir qanun pozuntusu qeydə alınmayıb. İnanıram ki, şəffaf və demokratik şəraitdə başlanan növbədənkənar prezident seçkiləri elə bu axarla da başa çatacaq.

Seçki məntəqəsinə böyük həvəslə gəlmiş seçicilərlə də görüşdük. Gülçin Abdullayevanın 18 yaşı yenicə tamam olub. Prezident seçkilərində ilk dəfədir ki, iştirak edir. Ona görə də bir az həyəcanlı görünürdü. Gülçin xanım dedi ki, seçkilərə birinci dəfədir qatılmışam. Deməli, artıq böyümüşəm, yaşa dolmuşam, sərbəst seçim edə bilərəm. Seçim etmək çox məsuliyyətli bir işdir. Şəxsiyyət vəsiqəmdə Xocalıda doğulduğum yazılsa da, ermənilərin işğal etdikləri bu gözəl diyarı indiyə qədər görməmişəm. Amma uzun illər üzünü görmədiyim, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni işğalçılarının yandırıb dağıtdıqları, sakinlərini amansızcasına öldürdükləri bu şəhərin həsrətiylə yaşamışam. Şükürlər olsun ki, Azərbaycan Ordusunun 19-20 sentyabr 2023-cü ildə Qarabağda separatçılara qarşı həyata keçirdiyi uğurlu antiterror tədbirləri nəticəsində Xocalı şəhəri erməni işğalçılarından azad olundu. Bu xəbəri eşidəndə ürəyim sevinclə doldu. Artıq Xocalı azad idi, erməni işğalından qurtulmuşdu. Yaxın zamanlarda gözəl şəhərimizə qayıtmaq barədə xəyallarımız gerçəkləşəcək. Çox fikirləşmədən seçimimi etdim. Xəyalları gerçəkləşdirən, bizə Xocalıya qayıtmaq imkanı yaradan Liderə səs verdim.

- Şuşada dünyaya göz açmışam. Təəssüflər olsun ki, 1992-ci il mayın 8-də erməni qəsbkarları mədəniyyət beşiyimiz olan bu şəhəri işğal etdilər, - deyə seçici İlkin Rəhimli söhbətimizə qoşuldu. - Uzun illər idi ki, Şuşanın həsrətini çəkirdik. 8 noyabr 2020-ci ildə bu həsrətə, intizara son qoyuldu. Həmin gün Azərbaycan Ordusu Vətən müharibəsinin 42-ci günü Şuşanı azad etdi. Böyük sevinc içindəyik. Bu gün mən Şuşanı işğaldan azad edən, bizə böyük sevinc anları yaşadan, yurdumuzun xilaskarı olan Liderə səs verdim.

Xocavənd, Xocalı və Şuşa sakinləri olan Kamran Həsənli, Zaur Hüseynov, Səmaya Cavadova, Esmira Hüseynova və başqaları da bildirdilər ki, biz torpaqlarımızı azad etmiş, qaçqınları doğma ocaqlarına qaytarmış Liderə səs verdik.

Müşahidəçilərlə də görüşüb səsvermənin gedişi ilə bağlı fikirlərini öyrəndik. Yeni Azərbaycan Partiyasını təmsil edən müşahidəçi Tahirə Hüseynova seçki prosesinin gedişindən söz açaraq dedi ki, məntəqədə seçicilərin şəffaf və demokratik şəkildə səs vermələri üçün hərtərəfli şərait yaradılıb. Seçicilər sərbəst şəkildə seçim etdikləri namizədlərə səs verirlər. Mən də müşahidəçi kimi məntəqədə yaradılmış şəraitdən razıyam.

Müxtəlif partiyaları təmsil edən müşahidəçilərdən Təranə Vəliyeva, Aytəkin Mehdiyeva, Səbinə Hüseynova, Ayşən Babayeva, Zöhrə Hüseynova və başqaları da məntəqədə yaradılmış demokratik şəraitdən razılıqla söz açdılar.

Seçki məntəqələrinə gələn seçicilərin ard-arası kəsilmir. Vətəndaşlarımız Zəfər ovqatı ilə növbədənkənar prezident seçklərində fəal iştirak etməyə, seçdikiləri ən layiqli namizədə səs verməyə tələsirdilər. Azərbaycan xalqı əlamətdar günlərindən birini yaşayırdı. Özünün sabahkı dövlət başçısını, Prezidentini seçirdi. İnanırıq ki, həmişə olduğu kimi, müdrik Azərtbaycan xalqı bu seçkilərdə də ən düzgün seçimini edəcək, sabahın ən yaxşı namizədinə, ona xoşbəxt gələcək yaşadacaq ən yaxşı Liderə səs verəcək.

























*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Xalq seçimində yanılmır

47 saylı Sumqayıt-Abşeron-Qaradağ Seçki Dairəsinin 26 saylı məntəqəsi Ceyranbatan qəsəbəsində yerləşən 1saylı tam orta məktəbdə təşkil edilib.

Məntəqənin sədri Şahsuvar Mirzəyev bildirdi ki, 1351 seçicinin qeydə alındığı məntəqədə seçki başlayandan qələbəlik olub. İstər gənclər olsun, istərsə də yaşlılar, hamı fəal idi. Səhər seçkiyə start veriləndən seçicilər məntəqəyə gəlir və demokratik qaydada istədikləri namizədə səs verirlər.

50 saylı Abşeron üçüncü Seçki Darəsinin 10 saylı seçki məntəqəsi isə Saray qəsəbəsindəki 2 saylı tam orta məktəbdə təşkil olunmuşdur. Məntəqənin sədri Nəzakət Məmmədovanın sözlərinə görə, 1140 seçicinin 20 nəfəri ilk dəfə səs verənlər olub. Nicat İsmayılov bizimlə söhbətində bildirdi ki, şəxsiyyət vəsiqəsini alanda çox sevinib: "Bu seçkidə də həmin hissləri yaşadım. Mənim səsim mənim gələcəyimdir. Ona görə də gələcəyimi etibarlı əllərə etibar etdim".

****

55 saylı Siyəzən-Quba-Xızı Seçki Dairəsinin 1 saylı seçki məntəqəsi Siyəzən şəhəri C.Cabbarlı adına 1 saylı tam orta məktəbdə təşkil edilmişdir. Məntəqə sədri Elxan Cabbarov bildirdi ki, 921 seçicinin səs verməsi üçün seçki qanunlarına uyğun bütün şərait yaradılıb.

Məntəqədə səhər birinci səs verən gənc Nübar Əliyeva özü ilk dəfə idi ki, səs verirdi. Bildirdi ki, o da digər gənclər kimi səsini Zəfərin davamına verib.

Məntəqədə seçkinin gedişatını 11 müşahidəçi izləyirdi və onlar heç bir qanun pozuntusuna yol verilmədiyini söylədilər.

55 saylı Siyəzən-Quba-Xızı Seçki Dairəsinin10 saylı məntəqəsində də qələbəlik yaşanırdı. Məntəqənin sədri Seymur Ağayev bildirdi ki, 951 seçicinin səs verəcəyi məntəqədə normal seçki şəraiti var. Məntəqə üzrə 19 nəfər yaşlı nəslin nümayəndəsi səs verib. 2 nəfər xəstə olduğu üçün daşınan qutu ilə təmin edilib. 12 müşahidəçinin izlədiyi seçkidə heç bir qayda pozuntusu halı müşahidə olunmayıb.

****

1993-cü ilin oktyabrından məcburi köçkün həyatı yaşayan zəngilanlılar respublikamızın 46 rayon və şəhərində yaşayırlar. 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin bir neçə məntəqəsi Sumqayıt şəhərində yerləşir.

Dairənin 19 saylı seçki məntəqəsi Sumqayıtın 3-cü mikrorayon ərazisində yerləşən 23 saylı Zəngilan tam orta məktəbin binasında təşkil olunmuşdur. 1334 seçicinin qeydə alındığı məntəqədə seçkinin gedişini 14 nəfər müşahidəçi izləmişdir. Onlar məntəqədə qanun pozuntusuna yol verilmədiyini bildirmişlər. Məntəqənin sədri Ramiz Qulamov dedi ki, seçicilərin səs verməsində seçki qanunvericiliyinin tələbləri əsas götürülüb.

Dairənin 18 saylı məntəqəsi Sumqayıtın İnşaatçılar qəsəbəsində yerləşən 18 saylı tam orta məktəbin binasında təşkil olunmuşdur. Məntəqənin sədri Camal Zeynalov bizimlə sohbətində bildirdi ki, məntəqədə 1435 seçicinin səsverməsi üçün təlimata uyğun iş aparılıb. Hər bir namizədin müşahidəçiləri sərbəst şəkildə seçkinin gedişini izləyibilər.

Məntəqədə ilk dəfə səsverənlər 54 nəfər olub. Gənclər seçkidə yaxından iştirak ediblər. Onlardan biri - Aişə Yaqublu söylədi ki, artıq torpaqlarımız tam şəkildə işğaldan azaddır: "Azərbaycanın müstəqillik tarixinin bu seçkisində bir gənc olaraq iştirakım mənə qürur verir. Mənə qürur verən həm də odur ki, artıq həmyerlilərim arasında doğma Zəngilanda səs verənlər də var".

Məntəqədə səs verən ən yaşlı seçici 93 yaşlı Vəzifə Kəntər qızı Cabbarova olub. Səhhətində müəyyən problemlər olduğu üçün o, evində səs verib. Vəzifə nənə həm də təkcə səs verməyib, həm də yeni seçilən prezidentə xeyir-dua verib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*







# Ağdamlı seçicinin Ağdamda səs verməsindən qürurlu nə ola bilərdi ki...

2024-cü il fevralın 7-si müstəqil Azərbaycanın yeni tarixinə xüsusi gün kimi düşəcək. Bu tarix son 33 ildə ilk dəfə bütün ölkə ərazisində prezident seçkisi keçirilmiş və xalq yekdilliklə böyük Zəfərin davamına səs vermişdir.







Bu seçki İlham Əliyevin də dediyi kimi, üç səbəbdən baş tutmuşdur - suverenliyimizin tam bərpası, ilk dəfə ölkənin bütün ərazisində seçki keçirilməsi imkanı və ötən il prezident kimi fəaliyyətinin 20 ilinin tamam olması.

İşğaldan azad olunmuş Ağdam rayonu da həmin tarixi günün sevincini və seçki həyəcanını yaşadı. Qeyd edək ki, seçki rayonun 118 saylı Seçki Dairəsinin işğaldan azad edilmiş ərazilərindəki üç məntəqəsində keçirildi. 57 saylı məntəqə Ağdam şəhəri Konfrans Mərkəzində, 58 saylı məntəqə "Azərenerji" ASC-nin yerdəki binasında, 59 saylı məntəqə isə Kəngərli kəndində təşkil edilmişdi. Digər yerlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də seçici fəallığı yüksək idi. Məntəqələrə gələn seçicilərin hər biri səsvermədə böyük ruh yüksəkliyi ilə iştirak edirdi. Onlar bu ovqatla da böyük Zəfərin davamına səs verirdilər.

Qalib xalqın Zəfər seçkisi çox böyük təntənə kimi Ağdamda da şərəfli tarixə çevrilirdi. Bu yaşantıda ötənlərin ağrı-acısı və yurd həsrəti seçkinin bayram təntənəsinə qovuşub xüsusi ahəng yaradırdı. Ağdamlılar həmin yaşantılarla saatın nə zaman keçdiyini, günün nə zaman bitdiyini hiss etmədilər. Ümumxalq bayramına çevrilmiş bu seçkidə iştirak edən müşahidəçilər də təsdiq etdilər ki, Ağdamda səsvermə şəffaf şəraitdə keçmiş, heç bir qayda pozuntusu müşahidə olunmamışdır.

Demokratik və ədalətli keçən seçkidə diqqətçəkən məqamlardan biri də o idi ki, səsverməyə gələn gənclər, xüsusilə 18 yaşı təzəcə tamam olanlar yüksək ovqatda idilər. Bir qədər həyəcanlı görünsələr də, konstitusion hüquqlarından istifadə edib bu mühüm kampaniyada iştirak etməklərindən dolayı sevindikləri aydınca görünürdü. Eləcə də yaşlı nəslin nümayəndələri eyni duyğularla Zəfər seçkisinə qatılmışlar. Daha onların işğal dərdi yox idi.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

**Seçici sözü**

## Seçkilər inam və sədaqətin nümayişinə çevrildi

**Növbədənkənar prezident seçkiləri bir daha tərtərlilərin dövlətimizə inam və sədaqətinin nümayişinə çevrildi.**

44 günlük Vətən müharibəsində olduğu kimi, seçki günü də rayonumuzun sakinləri yumruq kimi birləşərək bizə qalibiyyəti, övladlarımıza sakit səma altında böyüməyi bəxş edən liderə səs verdilər.

Mən və ailə üzvlərim 97 saylı Tərtər-Naftalan-Goranboy Seçki Dairəsinin 1 saylı seçki məntəqəsində səs verdik. Burada əsl bayram əhvali-ruhiyyəsi hökm sürürdü. Qəhrəman tərtərlilər bu günü çox gözləmişdilər.

Müstəqillik əldə edildikdən sonra ilk dəfə olaraq Azərbaycanın bütöv ərazisində seçkilər keçirildi. Vaxtilə ermənilərin keçilməz sədd yaratdıqları və oradan daim, hətta atəşkəs dövründə də şəhərimizi, kəndlərimizi atəşə tutduqları Ağdərədə, Suqovuşanda indi insanlar sərbəst şəkildə ən layiqli namizədə səs verdilər.

Bəli, biz o günləri yaxşı xatırlayırıq. Tərtərin və ətraf rayonların əkin suyuna necə ehtiyaclı olduğu günlər də yadımızdan çıxmayıb. İndi Sərsəng və Suqovuşan su anbarları da bizimdir və buradan kanallar vasitəsilə gələn sular torpaqlarımıza yeni həyat bəxş edib.

Artıq torpaqlarımız azad edilib, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunub. Milyonların bu arzusunu gerçəkləşdirən isə hər bir vədinin arxasında əməli işi dayanan Qalib xalqın Qalib Lideridir. Fevralın 7-də tərtərlilər ona səs verərkən ölkəmizin firavan gələcəyinə, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə, sülhə və əmin-amanlığa sahib çıxdılar.

Əminik ki, növbəti illərdə də dövlətimizin başçısı xalqa verdiyi hər bir sözü layiqincə yerinə yetirəcək, Azərbaycanı daha böyük uğurlara qovuşduracaq.

*Anar ƏLİYEV, Tərtər*

## Xalqımız öz müdrikliyini bir daha nümayiş etdirdi

Qədim dövlətçilik ənənələrinə malik olan ölkəmizdə XX əsrin əvvəllərindən təməli qoyulmuş, demokratik prinsiplərə əsaslanan dövlət quruculuğu müstəqilliyimizin bərpasından sonra uğurla davam etdirilir.

Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, demokratik prinsiplərin dövlət idarəçiliyində təmin edilməsi istiqamətində misilsiz xidmətləri var. 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndərin bu istiqamətdə fəaliyyətinin ən bariz nümunələrindən biri olmuşdur. 2003-cü ildə Seçki Məcəlləsinin qəbul edilməsi isə beynəlxalq standartlara uyğun, şəffaf və demokratik seçkilərin keçirilməsini təmin edən hüquqi qanunvericilik bazasını daha da təkmilləşdirmişdir.

Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə keçirilən prezident, parlament, bələdiyyə seçkiləri və referendumlar ədalət prinsiplərini özündə ehtiva edən milli-mənəvi dəyərlərə malik olan xalqımızın demokratik və şəffaf seçki ənənələrinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

7 fevral 2024-cü il tarixdə keçirilən prezident seçkilərindən danışarkən öncə qürurla qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikasının tarixində xalqımız ilk dəfə olaraq öz ərazi bütövlüyünü bərpa etmiş müzəffər xalq kimi bu seçkilərdə iştirak etdi. Azərbaycan xalqı olaraq bir daha bütün dünyaya sübut etdik ki, biz şəffaf və azad seçkilər keçirə bilirik. Hər bir səsvermə hüququ olan vətəndaş öz namizədini müstəqil şəkildə seçərək öz konstitusiya hüququndan sərbəst istifadə edir.

Bu seçkilərdə də xalqımız bir daha öz müdrikliyini göstərərək öz layiqli namizədini, Azərbaycan xalqının və dövlətinin xilaskarının uğurlu davamçısını, tarixi zəfərimizin müəllifini öz rəhbəri seçdi. Vətən müharibəsi veteranı, eyni zamanda müəllim və vətəndaş olaraq buna çox sevinirəm. Bu seçimlə xalqımız ölkəmizin işıqlı sabahına, davamlı inkişafına səs verdi.

*Bəxtiyar ƏLİYEV, Qarabağ müharibəsi veteranı, Ağcabədi*

# Görünməmiş qələbəlik

**Dünən Lənkəranda da əsl qələbəlik yaşandı. Səhər saatlarından başlayaraq şəhərdə, eləcə də rayonun qəsəbə və kəndlərində qaynarlıq, coşqunluq hökm sürür, insanlar dəstə-dəstə seçki məntəqələrinə axışırdılar.**







Məlumat üçün bildirək ki, 76 saylı Lənkəran-Masallı Seçki Dairəsi üzrə 42 min 431 seçici qeydə alınmışdı. Onlar 38 məntəqədə səs verirdilər. Seçicilərin 3 min 239 nəfəri ilk dəfə səsverən gənclər idi. Bütün məntəqələrdə tibbi xidmət üçün yerlər ayrılmışdı. 1, 15, 18 və 27 saylı məntəqələrdə isə veb-kameralar quraşdırılmışdır. Məntəqələr digər təchizat vasitələri ilə yanaşı, seçicilərin müraciətinə əsasən, daşınan qutularla da təmin olunmuşdur.

Bu dairə üzrə seçkiləri izləmək üçün ilk olaraq yolumuzu 20 Yanvar şəhidi Asif Əsədullayev adına Şağlaser kənd əsas orta məktəbin binasında yaradılmış 26 saylı seçki məntəqəsindən saldıq. Səsvermə prosesinin təzəcə başlanmasına baxmayaraq, məntəqənin qarşısında çoxlu seçici vardı. Məntəqə seçki komissiyasının sədri Ayıq Əliyev bildirdi ki, seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb, məntəqə lazımi texniki avadanlıqlarla təmin olunub. Burada 1465 nəfər seçici qeydə alınıb. Onlardan 7 nəfəri ilk dəfə prezident seçkisində iştirak edirdi.

"Məntəqə üzvləri hansı partiyaları təmsil edir" sualımıza A.Əliyev cavab verərək bildirdi ki, məntəqə üzvləri sırasında Yeni Azərbaycan Partiyasının, Böyük Quruluş Partiyasının və Bütöv Azərbaycan Xalq Cəbhəsinin təmsilçiləri yer alıb.

Prezidentliyə namizəd Zahid Orucun müşahidəçisi Əflatun Dadaşov dedi ki, ölkəmizin hər yerində olduğu kimi, Lənkəran rayonunda da sağlam mənəvi-psixoloji mühit yaradılıb: "Ona görə də çox nikbinik. Sabaha böyük ümidlə baxırıq. Zəfər seçkilərində hər kəs qəlbinin hökmü ilə istədiyi namizədə səs verir".

Seçki məntəqəsində Lənkəran Dövlət Universiteti nəzdində Sosial-Aqrar Texnoloji Kollecin ikinci kurs tələbəsi 19 yaşlı Lalə Ağazadə ilə həmsöhbət olduq. İlk dəfə olaraq seçici hüququndan istifadə edir: "İlk dəfə olaraq seçkilərdə iştirak edirəm. Mənim üçün bu prosesi görmək çox maraqlı idi. Bir gənc olaraq düşünürəm ki, daha yaxşı gələcəkdə yaşamaq bizim də haqqımızdır. Azərbaycanın bugünkü inkişafı göz qabağındadır. Müasirləşmə və inkişaf bu gün qapılarını tam olaraq üzümüzə açıb. Ona görə də biz bu inkişafın davamlı və daimi olmasını istəyirik. Elə bu istəklə də öz namizədimə səs verdim".

Şəhid Rəfail Ağayev adına Şağlaser kənd tam orta məktəbin binasında yerləşən 25 saylı seçki məntəqəsində də qələbəlik gördük. Rastlaşdığımız 77 yaşlı Balaxan Əhmədov dedi ki, çox seçkilərdə iştirak edib. Budəfəki seçkidə insanların fəallığı daha böyükdür. Axı hamı hər şeyi görür, ölçür, biçir. İlk dəfə olaraq 30 ildən sonra ölkəmizin ərazi bütövlüyü tam bərqərar olunub, belə olan halda heç kəs xalqın taleyinə laqeyd qala bilməz. Seçicilər çox yaxşı bilirlər ki, ölkəmizin sabahı bugünkü seçkidən çox asılıdır".

Yeni Azərbaycan Partiyasının məntəqədə müşahidəçi kimi iştirak edən üzvü Namiq Ağayev də seçkinin gedişini diqqətlə izlədiyi ötən müddətdə səsvermənin şəffaf keçdiyini, heç bir qanun pozuntusunun qeydə alınmadığını bildirdi.

Daha sonra yolumuzu 77 saylı Lənkəran şəhər Seçki Dairəsinin 2 saylı məntəqəsindən saldıq. Burada da qələbəlik idi. Məntəqə seçki komissiyasının sədri Allahverən Babayev seçkinin şəffaf keçirilməsini və seçicilərin fəallığının yüksək olmasını vətəndaşlarda yüksək seçki mədəniyyətinin formalaşması ilə izah etdi. Onun sözlərinə görə, burada heç bir qanun pozuntusu müşahidə edilməyib, seçicilərin sərbəst surətdə səs vermələrinə, öz iradələrini ifadə etmələrinə tam şərait yaradılıb.

Məntəqədə görüşdüyümüz Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin atası Hacı Ələkbər Əliyev mətbuat nümayəndəsi olduğumuzu biləndə bizə yaxınlaşaraq ürək sözlərini dilə gətirdi:

- İnsanların seçkilərdə öz vətəndaşlıq borclarını yerinə yetirmələri məni valeh edir. Seçicilər fəaldırlar. Belə də olmalıdır. Çünki bu seçkilərlə onlar dövlətin və xalqın gələcəyinə səs verirlər. Azərbaycan bizim Vətənimizdir və xoşbəxt sabahımız üçün namizədlərin ən layiqlisinə səs verməklə özümüzə dövlət başçısı seçmək müstəsna hüququmuzdur. Vətənini və xalqını sevən hər bir vətəndaş ölkəsinin taleyinə və mənafeyinə heç vaxt laqeyd qala bilməz.

Müstəqil müşahidəçi Əlimərdan Əliyev də söhbətə qoşularaq bildirdi ki, müşahidə etdiyi müddətdə məntəqədə heç bir qanun pozuntusuna rast gəlməyib.

***

Səhər saat 9 radələridir. Adamlar üçbir, beşbir şəhərin müxtəlif ünvanlarında yerləşən seçki məntəqələrinə tələsirlər. Hiss olunur ki, ovqatları yüksəkdir.

65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsi üzrə 49 məntəqə mövcuddur. Onlardan 38-i Salyan, 6-sı Biləsuvar, 5-i Neftçala rayonunun ərazisində yerləşir. Həmin məntəqələr üzrə seçicilərin ümumi sayı 52 mindən çoxdur. Seçkilərə hazırlıq dövründə məntəqələrin hər birində lazımi səviyyədə hazırlıq işləri görülmüşdür.

Seçkilərin gedişi ilə yaxından tanış olmaq üçün şəhid Azər Səfərovun adını daşıyan Salyan inteqrasiya təlimli internat tipli gimnaziyanın binasında yerləşən 9 saylı seçki məntəqəsinə getdik. Qələbəlik idi, əməllibaşlı növbə yaranmışdı. Doğrusu, belə növbə ilə heç bir seçkidə rastlaşmamışdıq.

Səsini vermiş seçicilərin təəssüratını öyrəndik. Dövlət Dillər Universitetinin Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi Gülnar Təhməzova dedi ki, birinci dəfədir səs verir: "Bu seçki ömrüm boyu yadımdan çıxmayacaq. Çünki indiki prezident seçkiləri doğma torpaqlarımızın işğaldan azad edildiyi, ölkəmizin ərazi bütövlüyünün təmin olunduğu bir şəraitdə keçirilir. Zəfər qələbəsində isə, bildiyimiz kimi, gənc döyüşçülərimizin göstərdiyi igidliklər ölçüyəgəlməzdir. Bir gənc kimi bu məni çox sevindirir. Azad edilmiş ərazilərimizdə böyük tikinti-quruculuq işləri gedir. Gələcəkdə bir jurnalist kimi həmin yerlərə gedib məqalələr, reportajlar hazırlamaq arzusundayam. Ürəyimdə deyiləsi xoş sözlərim çoxdur. Onları qısa şəkildə deyirəm: suverenliyimizə, ərazi bütövlüyümüzün təmin olunmasına, gələcək inkişafımıza, ölkəmizin daha da tərəqqi etməsinə səs verdim".

Məntəqədə müşahidəçilər üçün xüsusi yer yaradılmışdır. Onlardan birinə yaxınlaşıb hansı partiyanı təmsil etdiyini soruşduq. Xanım Səbuhə Məmmədova Böyük Azərbaycan Partiyasından olduğunu bildirdi. Sonra da əlavə etdi: "Seçicilər sərbəst şəkildə səs verirlər. Məntəqədə seçki azad, şəffaf, demokratik şəraitdə keçir, heç bir qanun pozuntusu yoxdur".

***

Cəlilabad rayonunun bütün yaşayış məntəqələrində növbədənkənar prezident seçkiləri əsl bayram, yüksək ovqatla keçdi. Səhər saat 8-dən məntəqələrin qapıları qarşısında qələbəlik yaranmışdı.

Qeyd edək ki, rayon üzrə 108 min 127 nəfər səsvermə hüququna malikdir. Seçicilər 3 seçki dairəsi üzrə 105 seçki məntəqəsində səs vermişlər. Seçki dairələrinin əhatə etdiyi 20 seçki məntəqəsində veb-kamera, əlil seçicilərin səs verməsini təmin etmək üçün 67 pandus quraşdırılmışdır.

73 saylı Masallı-Cəlilabad Seçki Dairəsindəki 44 saylı seçki məntəqəsində Vətən Müharibəsi Qəhrəmanı şəhid Rəşad Abdullayevin atası Arif Abdullayevlə həmsöhbət olduq.

- Mən ömrüm boyu neçə-neçə seçki görmüşəm. Budəfəki prezident seçkilərinə xüsusi əhvali-ruhiyyə ilə gəlmişəm, çünki qalib xalqıq, başımız dik, alnımız açıqdır.

Həmin məntəqədə müstəqil müşahidəçi olan Xuraman Əliyeva söylədi ki, budəfəki prezident seçkisinin əvvəlkilərdən fərqi çoxdur: "Ən əvvəl bu seçki bütün ölkə ərazisində keçirilir. İkincisi, seçicilərin yüksək əhvalı və bu əhvaldan doğan yüksək fəallıqlarıdır. Seçki fəallığı olan yerdə isə heç bir qayda pozuntusundan söz gedə bilməz.

Cəlilabad şəhərindəki 4 saylı seçki məntəqəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının müəllimi İltifat Bağırovla görüşdük.

- Hamıya gün kimi aydındır ki, Azərbaycan xalqının və dövlətinin qarşısında yeni üfüqlər açan tarixi bir dövrə qədəm qoymuşuq. Milli həmrəyliyimiz, dövlətimizin gücü, siyasi iradəsi, ordumuzun misli görünməmiş fədakarlığı sayəsində vətənimiz bütövləşib. Bugünkü seçki də məhz bunlarla əlamətdardır.

Seçki məntəqəsində müstəqil müşahidəçi, Cəlilabad şəhər 1 saylı tam orta məktəbin müəllimi Xalidə Əsgərova suallarımıza həvəslə cavab verərək dedi ki, ölkəmizin şərəfli günlər yazılan tarixinə Zəfər seçkisi kimi düşəcək bu əlamətdar hadisənin baş verməsini şərtləndirən bir neçə səbəb vardır: "Onların birincisi böyük Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi, ikincisi isə qısamüddətli lokal antiterror əməliyyatı ilə ölkəmizdə və bütövlükdə regionda yaranan yeni reallıqdır. Hazırkı seçkilərin tam demokratik şəraitdə, yüksək siyası fəallıq şəraitində keçirilməsinin şahidləriyik. Müşahidəçilərə qarşı heç bir təzyiq görməmişik, səsverməni izləməkdə tam müstəqilik. Müşahidəçi olduğum bu məntəqədə heç bir pozuntu qeydə alınmayıb, bütün proses öz nizamında, öz qaydasındadır".

71 saylı Cəlilabad şəhər Dairə Seçki Komissiyasının sədri İsa Allahverdiyevdən öyrəndik ki, dairə üzrə seçicilərdən 2 min 450 nəfəri ilk dəfə səs verənlərdir, 3 nəfərin yaşı isə 100-dən yuxarıdır.

72 saylı Cəlilabad Kənd Seçki Dairəsi üzrə 5 saylı seçki məntəqəsində seçici - Vətən müharibəsi şəhidi Elçin Ağayevin atası Zakir Ağayev isə təəssüratını bu sözlərlə ifadə etdi:

- Bu seçkilərin çağdaş Azərbaycanın tarixində mühüm rol oynayacağına, qarşıda dayanan milli hədəflərimizə çatmaq üçün yeni bir başlanğıca çevriləcəyinə inanıram.

***

Bədəlan kəndi silsilə dağların lap yaxınlığında yerləşir. Başıqarlı dağlar buradan əl içi kimi görünür. Günəşin ılıq nəfəsi ətrafa yayılsa da, havanın şaxtası öz sözünü deyir. Evlərin bacalarından burula-burula çıxan tüstü kəndin qış mənzərəsini tamamlayır.

Adamlar isə belə bir vaxtda - 7 fevral günündə evlərindən çıxıb seçki məntəqəsinə tələsirlər. Bədəlan kəndində yerləşən 74 saylı Masallı Dairə Seçki Komissiyasının sədri Loğman Şahbazovdan öyrənirik ki, dairənin tərkibində 58 məntəqə var. Bu məntəqələrdə qeydə alınmış seçicilərin sayı 49 min 279 nəfərdir.

49 saylı Öncəqala kənd məntəqəsinə yollanırıq. Məntəqə Birinci Qarabağ müharibəsi şəhidi Ətrafil Məmmədovun adını daşıyan tam orta məktəbin binasında yerləşir. Məntəqə sədri Arif Zahidov deyir ki, burada səs verən seçicilərin sayı 1222 nəfərdir. Müxtəlif yaş kateqoriyalarından olan seçicilərin 61 nəfəri ilk dəfə səs verənlərdir. 18 yaşı tamam olanlar 3 nəfərdir. İnsanların tək, iki-iki, dəstə-dəstə məntəqəyə gəldiklərinin şahidi oluruq. Onlar xoş ovqatla məntəqənin qarşısında qoyulmuş seçici siyahısına yaxınlaşıb adlarını, soyadlarını, sıra nömrələrini müəyyənləşdirib, səsvermə otağına keçirlər.

Onlardan bir neçəsinə yaxınlaşıb seçki barədə fikirlərini öyrənirik.

- Adım Ofelya, soyadım Rəhimovadır. Öncəqala kəndində yaşayıram. Uzun müddət kəndimizdə tibb bacısı işləmişəm. Artıq dörd aydır pensiyaya çıxmışam. Budəfəki prezident seçkiləri başqa bir seçkidir. Ölkəmizin ərazi bütövlüyü təmin olunub. İstər 44 günlük müharibədə, istərsə də keçən ilin sentyabr ayında keçirilən antiterror əməliyyatında ordumuz böyük şücaət göstərdi, tarixi qələbə qazandı. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. Qalib xalq kimi birinci dəfədir prezident seçkiləri keçiririk. Hamı sevinc içindədir. İnanıram ki, yeni seçiləcək Prezident ölkəmizdə gedən bu inkişafı daha da irəli aparacaq. Azərbaycan daha qüdrətli olacaq, insanlar daha firavan yaşayacaqlar.

Səsvermədən qayıdan daha bir qadın O. Rəhimovanın yanından keçərkən bir anlığa dayanıb onunla görüşür. Biz fürsətdən istifadə edib həmin xanımdan - Öncəqala tam orta məktəbinin müəllimi Sevinc Əhmədovadan seçkinin necə keçdiyi barədə fikrini deməsini xahiş edirik.

- Hər şey yüksək səviyyədə təşkil olunub, - deyir, - azad, şəffaf, demokratik şəraitdə istədiyin namizədə səs verə bilərsən. Avropa Şurası Parlament Assambleyası bunları görməzə-bilməzə yenə başlayacaq qarayaxma kampaniyasına. Öz gözlərində tiri görmədikləri halda, başqalarının gözündə çöp axtarırlar.

Bu isə müşahidəçilərdən biri - Bütöv Azərbaycan Partiyasının nümayəndəsi İslam Məmmədovun sözləridir: "Bu məntəqədə müxtəlif partiyalardan olan 11 nəfərdən çox müşahidəçi var. Seçki prosesini izləməkdən ötrü bizim hər birimiz üçün lazımi şərait yaradılmışdır. Görürük ki, hər bir seçici sərbəst şəkildə istədiyi namizədə səs verir. Seçki prosesində bütün qayda-qanunlara riayət olunduğunu müşahidə edirik. Heç bir neqativ halla rastlaşmamışıq".

***

79 saylı Astara Seçki Dairəsi üzrə 50, 80 saylı Lerik-Astara Seçki Dairəsi üzrə 19 məntəqə fəaliyyət göstərir. Növbədənkənar prezident seçkilərinə hazırlıqla əlaqədar hər iki dairə üzrə məntəqələr səsverməyə tam hazırlaşmış, Seçki Məcəlləsinin tələblərinə əməl etməklə seçkilərin demokratik, şəffaf keçirilməsi üçün müəyyən olunmuş bütün zəruri tədbirləri görmüşlər.

Şəhər sakini, seçici Gülnar Abdullayeva: "Seçki məntəqələrinə səs vermək üçün gələnlər başa düşürdülər ki, seçimlərini müstəqil Azərbaycanı inkişafa aparan, dövlət və xalq mənafeyini düşünərək mütərəqqi siyasət yürüdə bilən ən layiqli namizədə səs verməklə etməlidirlər. Seçicilərin fəallığını həm də torpaqlarımızın işğaldan azad edilməsi, qalib dövlət və qalib xalq kimi qürurlu olmaları, ölkədə və Astara rayonunda son illər baş verən əsaslı dəyişikliklər, sosial problemlərin həlli ilə əlaqədar həyata keçirilən proqramlar və əhalinin həyat şəraitinin yaxşılaşması istiqamətində görülən tədbirlərlə izah etmək olar".

Digər şəhər sakini Mahir Abbasov da səsvermənin azad və demokratik şəkildə keçirildiyini bildirdi. Onu da qeyd etdi ki, səsverməyə çox qürurla və sevinclə getmişdik: "Çünki bu, Zəfər seçkisidir. İlk dəfədir Azərbaycanın bütün ərazilərində prezident seçkiləri keçirilir. Torpaqlarımız düşmən tapdağından azad edilib, dövlətimizin suverenliyi tam bərpa olunub. Qalib xalq kimi dünyaya səs salmışıq. Müstəqil Azərbaycan bütün sahələrdə inkişaf edir. Seçkilərə qalib dövlətimizin inkişafını, tərəqqisini istəməyən qüvvələrə bir daha birliyimizi göstərmək üçün getmişdik.

Ərçivan qəsəbə 32 saylı seçki məntəqəsində səs verən Ceyhun Sadıq da səsvermənin azad, demokratik, beynəlxalq standartlara uyğun şəkildə keçirildiyini dedi: "Prezident seçkilərində namizədliyi qeydə alınmış 7 nəfərdən xalqımızın milli birliyinə nail olan, müstəqil dövlətimizin inkişafı üçün real və konkret işlər görən, dövlətimizin və xalqımızın təhlükəsizliyini, ərazi bütövlüyünü təmin edən liderə səs verdim".

*Seyran CAVADOV, "Azərbaycan"*

# Kəlbəcərin qəddi bir daha əyilməyəcək





Seçici məntəqəyə gəlib təkcə seçimini etmir, həm də gələcəyini müəyyənləşdirir.

Bütövlükdə Vətənin gələcəyinə səs verən kəlbəcərlilər də növbədənkənar prezident seçkisində fəal iştirak etdilər. Onlar bu seçkiyə iki ay idi hazırlaşırdılar. İşğaldan sonra ilk dəfə keçirilən seçkidə kəlbəcərlilər yeddi namizədin sırasından liderini seçirdilər.

Bu gün Kəlbəcərdə bərpa-quruculuq işləri gedir. Sakinlərin öz doğma yuvalarına dönməsi üçün evlər tikilir, yollar salınır, infrastrukturlar yaradılır, üstəlik, onların məşğulluğu təmin etmək üçün tədbirlər görülür.

Seçkinin keçirildiyi gün rayonunun işğaldan azad olunmuş ərazisində yaşayan seçicilər iki məntəqədə səs verdilər. 123 saylı Kəlbəcər Seçki Dairəsinin azad olunmuş ərazisində fəaliyyət göstərən Bakı Abadlıq şirkətinin inzibati binasında yaradılan 63 saylı seçki məntəqəsində 603 nəfər qeydə alınmışdı. Kəlbəcər Su-Kanal idarəsinin inzibati binasında yerləşən 64 saylı seçki məntəqəsində isə 875 nəfər səs verməli idi. Son günlər hava şəraitinin elə də əlverişli olmaması, yağışlarla müşayiət olunan qalın qar örpəyinin yollarda gediş-gəlişi çətinləşdirməsi də seçicilərin fəallığına təsir etməmişdi. 123 saylı Kəlbəcər Dairə Seçki Komissiyasının sədri Adil Murtuzayevin sözlərinə görə, seçicilərin əksəriyyəti vətəndaşlıq borclarını yerinə yetirmişlər.

Qeyd edək ki, 123 saylı dairə üzrə qeydiyyatda olan 55 min 572 seçicidən 5131 nəfəri prezident seçkisində ilk dəfə səs verirdi. Həmin seçicilərdən 163 nəfəri 18 yaşı yeni tamam olanlar idi. Bu gənclər indiyə kimi Kəlbəcəri görməsələr də, ata-baba yurduna dönəcəkləri günü səbirsizliklə gözləyirlər.

Məlumdur ki, Kəlbəcər uzunömürlülər diyarıdır. Buranın saf və təmiz havasında az yaşamaq mümkün deyil. Rayonda yaşı 100-dən çox olan 10 nəfərin arasında ən yaşlısı Kəlbəcər şəhər sakini, 1913-cü ildə anadan olmuş Baxşəliyeva Xeyrənsa İsmayıl qızıdır. Xeyrənsa nənə də seçkidə iştirak edərək ölkəmizə və onun yeni seçiləcək liderinə xeyir-dua verdi.

Dünənki seçki işğaldan azad olmuş digər rayonlar kimi, Kəlbəcər üçün də tarixi bir gün oldu. İllərin həsrətinə son qoyan kəlbəcərlilər bu dəfə doğma yurdda dövlət başçısını seçdilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Gəncəlilər bu seçkilərdə də fəal oldular

Azərbaycanda daha bir siyasi kampaniya uğurla başa çatdı. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri onu göstərdi ki, xalqımız belə məsuliyyətli seçkilərdə özünün əsl iradəsini nümayiş etdirməyi bacarır. Seçkilərə hazırlıq, məntəqələrdə yaradılmış şərait, seçkilərin demokratik şəraitdə keçirilməsi təcrübəsi özünün müsbət nəticəsini verdi. Azərbaycan xalqı seçki məntəqələrinə gələrək öz vətəndaşlıq borcunu yerinə yetirdi. Hamının bir arzusu var idi ki, o da müstəqil Azərbaycanı daha etibarlı insana həvalə etmək.






Belə bir siyasi kampaniyada respublikamızın ikinci böyük şəhəri Gəncədə də seçicilər yüksək fəallıq nümayiş etdirdilər. Şəhərdə fəaliyyət göstərən 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələrini əhatə edən məntəqələrdə böyük canlanma hiss olunurdu. İnsanlar növbəyə dayanaraq qeydiyyatdan keçir, seçki bülletenləri alaraq istədiyi namizədə səs verir və müşahidəçilərin nəzarəti ilə seçki qutusuna atırdılar. 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 40 nömrəli orta məktəbdə yerləşən 17 saylı seçki məntəqəsində olarkən məntəqənin sədri İradə Səfərova ilə söhbət etdik. Dedi ki, seçicilərin bu seçkilərə necə önəm verdiyini siz də görürsünüz: "Hamı istəyir ki, ölkəmizin həyatı üçün önəmli olan bu seçkilərdə öz sözünü desin. Bu da təbiidir. Çünki biz qalib xalqıq. Ərazilərimiz 30 illik işğaldan azad edilmişdir. Artıq Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin edildikdən sonra ilk dəfə prezident seçkiləri keçiririk. Hamı istəyir ki, bu tarixi hadisədə iştirak etsin və ən layiqli namizədə səs versin".

Gəncədə prezident seçkilərinin mütəşəkkil keçdiyini 39 saylı Gəncə ikinci seçki dairəsinin 24, 25 və 31 saylı seçki məntəqələrində də gördük. Məntəqələr inşası yenicə başa çatmış 29 nömrəli məktəbdə yerləşir. Burada seçicilərin öz istəklərinə uyğun namizədə səs vermələri üçün hər cür şərait yaradılmışdır. Yenicə səs vermiş Saida Tağızadəyə yaxınlaşdıq.

- Torpaqlarımız işğaldan azad edildikdən sonra ilk dəfə keçirilən növbədənkənar prezident seçkilərində iştirak etməyimlə qürur duyuram. Mən səsimi ən layiqli namizədə verdim. Arzu edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda başlanan quruculuq işləri tezliklə başa çatsın, soydaşlarımız öz yurdlarına dönsünlər.

Şəhərdə fəaliyyət göstərən digər məntəqələrdə də olduq. Demək olar ki, hamısında böyük növbə var idi. İstər yaşlı nəslin nümayəndələri, istərsə də ilk dəfə səs verən seçicilər qəbul edilmiş prosedurdan keçərək növbə ilə səsvermə bülleteni alır, istədiyi namizədə səs verirdi. Bir sözlə, hamı çalışırdı ki, növbədənkənar prezident seçkilərində öz vətəndaşlıq borcunu yerinə yetirsin.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# "Bu gün qürurla səs verməyə haqqımız var"

## Şəhid, Milli Qəhrəman Naiq Yusifovun atası Nəsir kişi məntəqəyə hamıdan tez gəlmişdi

**Seçki günü səhər tezdən redaksiyamıza bir zəng gəldi. Təxminən 500 kilometrlik xəttin o başından gələn gümrah səsin 92 yaşlı qocaya məxsusluğunu təxmin etmək olmazdı. Əgər zəng vuran şəxs özünü təqdim etməsəydi...**



Danışan Tovuz rayonunun Ağdam kəndinin sakini, Azərbaycanın Milli Qəhrəmanı Naiq Yusifovun atası Nəsir Yusifov idi. Elə bil ürəyimizdən keçənləri uzaqdan duydu, söhbətə də bundan başladı:

- İndicə səs verdim, özü də uca səslə, qürurla, könül rahatlığı ilə. Artıq fəxrlə danışmağa haqqımız var. Çünki biz qaliblərik, budəfəki seçkilərə də qalib xalq kimi gəlmişik. Doğrusu, gözlərim zəif gördüyündən indi qəzet oxumağa bir qədər çətinlik çəkirəm, internetdən də bir o qədər baş çıxarmıram. Amma sağ olsunlar övladlarım, nəvələrim, onların sayəsində "Azərbaycan" qəzetini də izləyirəm. Yazılarınızda bu seçkini Zəfər seçkisi adlandırırsınız. Bu sözdən çox xoşum gəldi.

Nəsir dayı, necə deyərlər, dünyagörmüş ağsaqqaldır. Uzun illər meşəbəyi olub. Təbiətimizin əvəzsiz sərvətini göz bəbəyi kimi qoruyub. Tovuz meşələrinin hansı ərazisində çalışıbsa, orada az qala hər ağaca, hər kola bələd olub. Nəsir dayı həm də yaxşı ata və babadır. Vətənə layiq 6 övlad böyüdüb araya-ərsəyə gətirib.

Onun yaşadığı kənd sərhəddə yerləşir. Əsrlərin keşməkeşlərinə şahidlik edib bu kənd, tarixin müxtəlif mərhələlərində çoxlu qəhrəmanlar yetişdirib. Namərd qonşularımız bu kənddə də yedikləri çörəyi tapdalayanda, torpağımıza, suyumuza, qanımıza susayanda Nəsir dayının böyük oğlu Namiq silaha sarıldı. Kəndin cavanları dağlardan, dərələrdən, çöllərdən yığışmır, azğınlaşan yağıya aman vermirdilər. Bunun sayəsində hətta qocalar, qadınlar, uşaqlar da ürəkli-dirəkli olur, ən qızğın atəş zamanı belə, bir nəfər də kəndi tərk etmirdi. Çox keçmədən Nəsir dayının ən kiçik oğlu - 22 yaşlı Naiq də qardaşı Namiqə qoşuldu. Naiqin yaxın günlərdə toyu olacaqdı, ancaq səngərdən ayrılmırdı. Bu həmin vaxt idi ki, Xocalıda soyqırımı təzəcə baş vermişdi. Bu qətliam Qarabağdan xeyli uzaqda olan Tovuz cavanlarının qanını daha da coşdurmuşdu. Naiq də qəzəblə həm yaxınlıqdakı namərd qonşuya qarşı vuruşur, həm də " Xocalının qisası qiyamətə qalmaz", - deyərək intiqam hissi ilə alışıb-yanırdı.

Növbəti döyüş çox ağır oldu. Cavanlar bu dəfə də azğın qonşunu öz qapısınadək qovdular. Əlbəttə, bu iş asan başa gəlmədi. Elə bu döyüşdə də Naiq canından keçdi. Şəhidlik zirvəsinə yüksəldi, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Təqvimdə 1992-ci il martın sonu idi...

Sonra da çox döyüşlər oldu. Lakin camaat dözüb dayandı. Nəhayət, 2020-ci ilin iyulunda məlum Tovuz hadisələrinə şahidlik etdi, şəhidlər verdi. Sentyabrda 44 günlük Vətən müharibəsi başlayanda da bu kəndin övladlarından torpağı azad etməyə gedənlər az olmadı. Suqovuşan, Murovdağ uğrunda döyüşlərdə Nəsir kişinin əmisi nəvəsi Elburus Yusifov şəhid oldu.

Nəsir Yusifov nəsillərə nümunə olan oğlu Naiqlə, dəyanətli el-obası ilə, mərd qohum-əqrəbası ilə qürur duyur. Çox şaddır ki, bu gün Azərbaycanın işğaldan azad olunmuş bütün ərazilərində xoş əhvali-ruhiyyə ilə seçkilər keçirilir.

Telefon söhbətimizi də elə bu ovqatla tamamladı:

- Bu günə şükürlər olsun. Çörəyi dizi üstündə olan qonşularımız 30 ildən çox bir müddətdə dağların o tayından bizi güdür, xeyir-şər günlərimizdə də top-tüfəngə əl atırdılar. İndi artıq hənirtiləri kəsilib, səsləri gəlmir. Biz isə rahatca öz işimizdə-gücümüzdəyik. Seçkimizi də beləcə mütəşəkkilliklə keçiririk!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Gənclərə böyük diqqət və qayğı göstərən Liderə səs verdim"



7 fevral növbədənkənar prezident seçkilərində əhalinin müxtəlif yaş kateqoriyasından olan insanlar iştirak edirdilər.

Yaşlar fərqli olsa da, məqsəd və məram eyni idi - namizədlərin sırasından canımızdan da çox sevdiyimiz Azərbaycanımızı qurub-yaradan, inkişaf etdirən, müstəqilliyimizi daha da möhkəmləndirən Lideri seçmək.

Seçkilərdə iştirak edənlərin sırasında gənclərimizin də çoxluq təşkil etdiyi diqqət çəkdi. Cəmiyyətimizin gələcəyi olan gənclərimiz seçkilərdə çox fəal idilər. Elə gənclərimiz var idi ki, onlar seçkilərə ilk dəfə qatılmışdılar. Belə gənclərimizdən biri də Mahmud Xudayarlıdır. İlk dəfə səs verən Mahmud sevincini bizimlə bölüşərək dedi ki, fevralın 7-də həyatımın ən xoşbəxt anlarını yaşadım: "Növbədənkənar prezident seçkilərində iştirak etdim. 23 nömrəli Nəsimi-Səbail Seçki Dairəsinin 9 nömrəli seçki məntəqəsində səs verdim. Onu da deyim ki, məntəqədə seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hərtərəfli şərait yaradılmışdı. Hamı yaradılan şəraitdən razılıq edirdi".

Gənc Mahmud Xudayarlı onu da dedi ki, bu gün dövlətimiz gəncliyə böyük diqqət və qayğı göstərir: "Elə bir sahə yoxdur ki, orada gəncliyə önəm və üstünlük verilməsin. Gənclərimiz də çalışdıqları bütün yerlərdə onlara göstərilən etimadı doğruldurlar. Mən cəmiyyətimizin aparıcı qüvvəsi olan gənclərə daim diqqət və qayğı göstərən dövlət başçısına, layiqli Liderə səs verdim. Düşünürəm ki, bununla həyatımın ən düzgün addımını atdım, seçimini etdim. Gənc vətəndaş kimi üzərimə düşən vəzifəni layiqincə yerinə yetirdim".

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Zəfərin təntənəsi

Azərbaycan xalqının tarixində məzmununa görə dərin və miqyasına görə ölçüyəgəlməz dərəcədə nadir prezident seçkilər keçirilir. Biz ona görə nadir ifadəsini işlədirik ki, həqiqətən də sonuncu seçkilər xalqımızın tarixində bənzərsiz və unikal hadisədir.

Belə ki, müstəqilliyini elan edən, ərazi bütövlüyünü tam bərpa edən Azərbaycan ilk dəfədir ki, seçkilərə məğrur və başıuca gedir. Yəni artıq bizim düşmən tapdağı altında qalan torpağımız yoxdur. Bütün ərazilərdə, o cümlədən işğaldan azad edilən torpaqlarımızda ilk dəfə prezident seçkiləri keçirildi. Bu müqəddəs gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq və aradan qərinələr, əsrlər ötsə də, heç vaxt unudulmayacaq, yaddaşlardan silinməyəcək.

Biz müstəqillik illərində müxtəlif seçkilərdə iştirak etmişik, lakin ürək ağrıdan məqam ondan ibarət idi ki, işğal altındakı torpaqlarımızda uzun illər seçkilər keçirilmədi. Erməni işğalçıları elə sayırdılar ki, onların bu saxta "qələbə"si əbədidir və bir də heç vaxt onlar bu torpaqlardan getməyəcəklər. Elə bu ağılla da erməni quldur dəstələri işğal altında olan torpaqlarımızda at oynadır, evlərin daşlarını belə qoparıb aparır, şəhərləri və kəndləri yer üzündən silib məhv edirdilər.

Erməni quldurları bu minvalla yeni erməni tarixini yaratmağa, azərbaycanlıların min illik izlərini silməyə çalışırdılar. Ona görə də əmin idilər ki, Qarabağda yallı gedəcəklər, at oynadacaqlar. Paşinyan da Qarabağda yallı gedirdi, arvadı da az qala muğam konserti təşkil etmək istəyirdi. Hətta ağlı elə çaşmışdı ki, bu muğam konsertinə azərbaycanlıları dəvət etmək üçün əldən-ayaqdan gedirdi... Amma bacarmadı, çünki muğamın ermənilərə nə dəxli var ki?

Dünən keçirilən prezident seçkiləri bir daha sübut etdi ki, biz bütün torpaqlarımızda müstəqilliyimizi təsdiq etdik, lovğa düşməni itiqovan kimi qovduq. Buna görə də sonuncu seçkilər məzmununa və mahiyyətinə görə unikal və bənzərsizdir.



Bu adi prezident seçkiləri yox, kükrəyən, inadkar bir xalqın azadlığa, müstəqilliyə doğru hayqıran bağırtısının sədasıdır. Aradan illər, qərinələr ötəcək, ola bilər ki, çox şeylər yaddan çıxsın, unudulsun, amma heç vaxt ilk dəfə azadlığa qovuşan bir xalqın bütün torpaqlarında seçkilərin keçirilməsi unudulmayacaq, heç kimin yadından çıxmayacaq. Qarabağda yallı getməkdən keflənən erməni faşistləri indi öz küllüklərində kürt düşmək istəyən toyuqlar kimi eşələnirlər.

Əslində, bu seçkilər bizim üçün nə qədər ibrətamiz və müqəddəsdirsə, bütün dostlarımız, qardaş ölkələr üçün bir o qədər qürurvericidir. Bu bütün türk dövlətləri üçün qüdrətli tədbirdir.

Bu seçkilər mahiyyət etibarı ilə dövlətimizin müstəqillik tarixində yeni bir eranın açılmasına işarədir. Üstümüzə dişlərini qıcıyan, bizi nəyin bahasına olursa-olsun düşmənin ayağına yıxmağa çalışan böyük güclərin acizliyi də tarix üçün ən ibrətamiz hadisələrdən biridir. Biz bu seçkilərlə yalnız onu sübut etmədik ki, qalib xalqıq. Biz bu qələbə ilə həm də arxasınca dostlarını apara bilən və düşmənlərini divara dirəyən xalq kimi nadir güc sahibi olduğumuzu təsdiq etdik.

Qafqazda Azərbaycanı məğlubiyyətlərin uçurumlarına sürükləyib atmaq istəyənlər, buna asanlıqla nail olacaqlarına tam arxayın olanlar nə dərəcədə yanıldıqlarını indi ümidsiz bir etirafla boyunlarına almaq məcburiyyətindədirlər. Bu, prezident seçkiləri, sözün əsl mənasında, hər birimiz üçün möhtəşəm Zəfər seçkisidir.

Mahiyyət etibarilə biz təkcə erməni faşistlərinə qalib gəlməmişik, çünki bu müharibədə onlar sadəcə oyuncaq idi. Biz əsrlər boyu Qafqazı qan çanağına çevirən, buranı bütün müharibələrin boy vermək istədiyi məkana çevirməyə çalışan bir neçə dövlətin dizlərini qırdıq. Ermənilər isə onların əlində sadəcə oyuncaq idi.

Başımızın üstünə qaldırdığımız bayraq, bölgəyə gətirdiyimiz sülh yalnız bizə yox, regionda sülhə can atmaq istəyən xalqların hamısına gərəkdir! Ona görə də bəzi dövlətlərin arsızcasına üstümüzə diş qıcaması, hədə gəlməsi başa düşüləndir. Ağlına gətirmədikləri başlarına gəlib. İndi də elə bilirlər ki, tarixi geri döndərəcəklər, erməni faşistlərini yenə müharibələrə körükləyəcəklər. Amma onun fərqində deyillər ki, Qafqazı cəhənnəmə döndərmək istəyənlərin geriyə yolları artıq bağlıdır. Zaman elə müqəddəs hakimdir ki, güclünün və ədalətlinin haqqını tanıya bilir.

Bu baxımdan, dünənki prezident seçkiləri həm də bizim qələbəmizin təntənəsidir. Tariximizdə ilk dəfədir ki, düşmən üzərində çaldığımız möhtəşəm və əzəmətli qələbə bizi yalnız Qafqazda yox, bütün dünyada göylərə qaldırdı. Bizim planetar qələbəmizi bütün dünya etiraf edir. Biz böyük güclərin arxasınca iməkləyən və onların işinə yarımaq istəyən xalq deyilik. Heç kimdən kömək ummuruq, heç kimə yalvarmırıq, gücümüzü, bəşər tarixində yerimizi və missiyamızı dərk edirik. Düşmənlərimiz bizə qarşı nə qədər barışmaz və sərt olsalar da, onların qarşısında geri çəkilən deyilik. Ona görə ki, uğur başqalarına itaət edənin yox, qələbə çalmağı bacaranındır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Siyasi həmrəyliyin təntənəsi



Xalqın, dövlətin həyatında bütün seçkilər böyük əhəmiyyət daşıyır. Bu gün müstəqillik dövründə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda keçirilən prezident seçkiləri çox mühüm siyasi hadisə, ölkə tarixində şanlı səhifədir.

Siyasi əqidəsindən asılı olmayaraq bütün vətəndaşlar böyük coşqu ilə səsvermədə fəallıq göstərir, bununla da öz birliyini, bərabərliyini dünyaya nümayiş etdirirdilər. Xalq sülhə, sabitliyə, xoşbəxt gələcəyinə, firavan həyatına səs verir, inandığı, etibar etdiyi Liderini seçirdi.

İlkin nəticələr bütün insanların sonsuz sevincinə səbəb oldu. Azərbaycan xalqı həmişə olduğu kimi bu dəfə də doğru, düzgün, müdrik bir addım ataraq İlham Heydər oğlu Əliyevi özünə rəhbər, lider - Prezident seçdi. Bu seçim daha güclü, demokratik Azərbaycana yol açan siyasi xətti dəstəklədi. Böyük seçki zəfəri münasibəti ilə səslənən təbriklərdə, müxtəlif təşkilatların, ölkə vətəndaşlarının, siyasi partiya rəhbərlərinin müsahibələrində xüsusi vurğulanır ki, Prezidentin ölkəmizin hərtərəfli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun artırılması sahəsindəki çoxşaxəli fəaliyyəti əqidəsindən asılı olmayaraq hər bir kəsin maraq və mənafelərinin qorunmasını təmin edir. Ona görə də 7 fevral prezident seçkilərinin nəticələri xalqımızın, Azərbaycanımızın qələbəsidir.

7 fevral prezident seçkisi hər cəhətdən mühüm mənəvi-siyasi dəyərə malikdir. Bu seçkinin əsas xarakterik xüsusiyyətlərindən biri də ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşması baxımından onun tarixi bir mərhələyə çevrilməsidir.

Cəmiyyətin inkişafı üçün siyasi mədəniyyətin formalaşması çox mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətdə siyasi mədəniyyət olanda ziddiyyətlər, fikir müxtəliflikləri qarşıdurmalara deyil, diskussiya məcrasına yönəlir, mövcud problemlərin həlli üçün faydalı təşəbbüslər ortaya çıxır. Toplumun potensialı konfliktlərə yox, çətinliklərin aradan qaldırılmasına, uğurların qorunmasına, zaman-zaman daha da inkişafına həsr edilir.

Müasir dünyamızın irəlidə olan ölkələri və cəmiyyətləri öz nailiyyətlərinin əhəmiyyətli hissəsini məhz malik olduqları siyasi mədəniyyətə borcludurlar. Biz isə müstəqilliyimizin ilk illərində və sonrakı dövrlərdə siyasi mədəniyyətin məhdud səviyyəsinin, bir çox siyasi qüvvələrin qaragüruh əhvaldan qurtula bilməməsinin, müəyyən bir qismin Azərbaycana təzyiq göstərmək istəyən xarici qüvvələrin əlində alətə çevrilməsinin əziyyətini çox çəkmişik.

Azərbaycan dövləti bu illərdə həyatımızın bütün sahələrində mühüm uğurlar qazandığı kimi, milli vəhdətin əldə edilməsi, cəmiyyətimizdə siyasi mədəniyyətin inkişafı baxımından da addım-addım çox böyük nəticələr qazandı.

Təxminən 30 il işğal altında qalmış torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə tamamlanan tarixi proseslər, dövlət rəhbərliyinin bu istiqamətdə apardığı siyasətə, gördüyü işlərə ölkəmizdəki bütün siyasi qüvvələrin birmənalı dəstəyi, xalqımızın "dəmir yumruq" kimi vahid amal uğrunda birləşməsi son onilliklərdə bu istiqamətdə də əldə etdiyimiz tarixi nəticələrin əhatə dairəsini göstərir.

7 fevral prezident seçkisi kampaniyası dövründə müşahidə edilən reallıqlar bunun parlaq bir nümunəsi, cəmiyyətimizdəki siyasi həmrəyliyin təntənəsidir. Bu reallıqlar getdikcə möhkəmlənən xalq-dövlət birliyi fonunda yeni bir strateji mərhələyə daxil olduğumuzu nümayiş etdirir. Bütün hədəflərə çatmaqdan ötrü siyasi həmrəylik, mövcud resursların vahid məqsədlərə yönəlməsi, hakimiyyət qarşısında faydalı təşəbbüslərin irəli sürülməsi, hökumət institutlarının fəaliyyətinə ictimai nəzarət çox mühümdür.

Ölkəmizdə milli birlik, vətəndaşlıq məsuliyyəti daha da güclənib. Milli həmrəyliyin inkişafına xidmət edən demokratik təcrübə yaranıb. Son illərdə ölkəmizdəki siyasi partiyalar tərəfindən imzalanmış birgə bəyanatlar, müraciətlər uğurlu siyasi dialoqun təzahürüdür. Bu da həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir. "Ümummilli məsələlərdə heç bir fərqli düşüncə, fərqli yanaşma ola bilməz"- bu, əksər partiya rəhbərlərinin fikridir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ən mühümü isə ölkəmizin güclənməsidir.

Möhtəşəm qələbəni böyük coşqu və təntənə ilə qarşılayan xalq Prezident İlham Əliyevin rəhbərliyi altında sabitliyə və təhlükəsizliyə, həyat səviyyəsinin daha da yüksəldilməsinə, bir sözlə, yeni bir tarixin başlanmasına dərin inam bəsləyir. Qarabağın, Şərqi Zəngəzurun azadlığından, müstəqillik tariximizin ən böyük müşkülünün həllindən, ərazi bütövlüyümüzün bərpasından sonra bu mərhələnin strateji hədəfləri təbii ki, tamam başqadır. Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra azad yurdlarımızda dövlətimizin öz gücü, imkanları hesabına başlanmış bərpa-quruculuq işlərini uğurla davam etdirərək məcburi köçkünlərimizin yurda qayıdışını təmin etmək, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət qurmaq, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmaq, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilmək bu strateji mərhələnin ilkin və ən mühüm hədəfləridir.

Açıqlamalarda xüsusi vurğulanır ki, dövlət rəhbərimizin humanizm ideyalarına və milli dəyərlərə söykənən siyasəti müasir Azərbaycan dövlətini gücləndirir. Milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Məhz bu siyasət sayəsində Azərbaycan bütün dünyada tolerantlıq və mədəniyyətlərin, sivilizasiyaların dialoqu məkanı kimi tanınır. Məhz Azərbaycanın təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində də qorunur.

Son illərdə partiyaların davranışları, siyasi debatlar zamanı irəli sürülən təşəbbüslər, qaldırılan ideyalar artıq ölkəmizdə yeni siyasi konfiqurasiyanın meydana gəldiyini, siyasətçi nəslinin yeniləndiyini, siyasi təfəkkürün, məsələlərə baxış bucağının müsbət mənada dəyişdiyini göstərir.

Görünən odur ki, kütləyə hesablanmış populist düşüncə, qaragüruh əhval, qeyri-rasional yanaşmalar, mövcud reallıqlara qara eynəkdən baxmaq Azərbaycan siyasi həyatı üçün artıq keçmişdir. Azərbaycan insanı, seçicisi bu yolu tutanlara qətiyyən rəğbət bəsləmir. Çünki cəmiyyətdə siyasi iştirakçılıq genişlənib, kommunikasiya imkanları misilsiz dərəcədə artıb, insanların dünyagörüşü, müxtəlif məlumatlar, mövqelər arasında təhlil imkanları son dərəcə güclənib. İndi hamı dərk edir ki, tarixin bütün dövrlərində başımıza gələn faciələrin, torpaqlarımızın itirilməsinin, soydaşlarımızın öz doğma yurdlarından didərgin salınmasının, suverenliyimizin pozulmasının başlıca səbəbi milli birliyin olmaması, hərbi və iqtisadi gücümüzün zəifliyindən irəli gəlmişdir. Azərbaycanda fəaliyyət göstərən əksər siyasi partiyaların üzvləri, xüsusilə gənclərimiz ölkəmizin xoşbəxt gələcəyi naminə siyasi həmrəyliyini bildirir, xalqımızın firavanlığına, dövlətimizin əbədi suverenliyinə çalışır.

7 fevral prezident seçkisi ilə həyatımızda yeni bir səhifə açılır, yeni bir tarix başlanır. Azərbaycan xalqı milli birliyinin, siyasi həmrəyliyinin gücü ilə bu yeni strateji mərhələni də nailiyyətlər tarixinə çevirəcəkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Vətən sevgisi, vətəndaşlıq mövqeyi

Tovuzda 3 Seçki Dairəsi fəaliyyət göstərir. Onlardan biri 107 saylı Tovuz-Qzax-Ağstafa Seçki Dairəsidir. Bu dairəni əhatə edən seçki məntəqələrində 47 min 44 nəfər seçici qeydiyyatdan keçmişdir. Onlar 53 seçki məntəqəsində səs verməli idilər.

Rayonun Aşağı Öysüzlü kəndində yerləşən 2 saylı seçki məntəqəsində böyük canlanma hiss olunurdu. Məntəqədə olan veb-kamera imkan verirdi ki, istənilən şəxs seçkinin gedişini izləsin. Məntəqədə həm yaşı 80-dən çox olan, eləcə də ilk dəfə səs verənlərin siyahısı tərtib edilmiş və onlarla qabaqcadan söhbətlər aparılmışdı. Seçki günü yaşı 96-nı keçən kənd sakini Talıb Mehdiyev özü seçki məntəqəsinə gələrək səs vermişdir. Talıb kişi ilə söhbət zamanı dedi ki, uzun illər ərzində çox seçkilərdə iştirak edib: "Xalqımızın belə yüksək əhvalla səs verdiyini bəlkə də ilk dəfədir görürəm. Çünki qalib xalqımız bu seçkiyə taleyüklü məsələ kimi baxır. Yaşlı nəslin nümayəndəsi olsam da, gənclərimizə etimadım böyükdür. Ən layiqli namizədə səs verdim. Mən həyatın hər üzünü görmüşəm. Necə deyərlər, ağı qaradan seçməyi bacarıram. Cavanlara da tövsiyə edirəm ki, seçim edəndə yüz ölçüb bir biçsinlər. Talelərini kimə etibar etdiklərini bilsinlər".

Rayonda fəaliyyət göstərən digər 105 və 106 saylı seçki dairələrini əhatə edən məntəqələrdə də qələbəlik idi. Bu, onu göstərirdi ki, seçkilər mütəşəkkil, şəffaf və demokratik şəraitdə keçmişdir.

***

Həmişə olduğu kimi, fevralın 7-də keçirilən prezident seçkilərində də ağstafalılar çox böyük fəallıq nümayiş etdirdilər. Səhər tezdən seçki məntəqələrinə gələn rayon sakinləri istədikləri namizədə səs verməklə bu siyasi kampaniyada nümunə göstərdilər.

108 saylı dairə seçki komissiyasının sədri Tamerlan Eyyubovdan öyrəndik ki, dairə üzrə 48 min 845 nəfər seçici qeydə alınıb. Onlar 47 seçki məntəqəsində namizədlərə öz münasibətlərini bildiriblər. Seçkilərin şəffaf və demokratik keçməsini izləmək üçün 8 məntəqədə veb-kamera quraşdırılmışdır. Bundan başqa, 543 nəfər yerli, 2 nəfər isə beynəlxalq müşahidəçi qeydiyyatdan keçmişdir.

Ağstafa rayonu uzunömürlülər diyarıdır. Bunu seçkilərdə çoxlu sayda 100 yaşdan yuxarı vətəndaşın qeydə alındığı da təsdiqləyir. Onlardan biri 121 yaşlı Zəhra Bənnayevadır. Sağlamlıq durumu imkan vermədiyindən Zəhra nənə üçün yaşadığı ünvana daşınan qutu göndərildi. O, evindəcə istədiyi namizədə səs verərək öz vətəndaşlıq borcunu yerinə yetirdi. Ümumiyyətlə, ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da növbədənkənar prezident seçkiləri yüksək mütəşəkkilliklə keçmişdir. Rayon sakinlərinin bir amalı olmuşdur ki, dövlətin sükanını yenə də layiqli liderə etibar etsinlər.

***

Fevralın 7-nə təyin edilmiş prezident seçkilərinə Şəmkirdə fəaliyyət göstərən 102 və 103 saylı Seçki dairələrini əhatə edən məntəqələrdə də geniş hazırlıq işləri görülmüşdür. Dairələri əhatə edən bütün məntəqələrdə seçkilərə hazırlıq MSK-nın tədbirlər planına uyğun olaraq vaxtında həyata keçirilmiş, geniş təbliğat və təşviqat işləri aparılmışdır. Seçicilərlə söhbətlər öz bəhrəsini vermiş, seçki günü böyük fəallıq nümayiş olunmuşdur.

103 saylı Şəmkir kənd Seçki Dairəsi Zəyəm qəsəbəsində yerləşir. Dairəni əhatə edən məntəqələrdə 55 min 59 nəfər seçici qeydiyyata alınmışdır. 5 məntəqədə veb-kamera quraşdırılmış, dairəni əhatə edən məntəqələrdə 528 nəfər yerli və 2 nəfər xarici müşahidəçi seçkilərin gedişatını izləmişdir. Apardığımız söhbətlər zamanı məlum olmuşdur ki, seçki prosesi zamanı heç bir qanun pozuntusu qeydə alınmamışdır. Seçicilər sərbəst şəkildə məntəqələrə gələrək, istədikləri namizədə səs vermişlər.

***

Prezident seçkilərinə Goranboy rayonunun əhalisi böyük ruh yüksəkliyi ilə, siyasi fəallıqla başladılar. 96 saylı Goranboy DSK-nın sədri Arif Abbasov bildirdi ki, prezident seçkilərində iştirak etmək üçün 49 min 429 seçici qeydə alınmışdır. Seçkiləri izləmək üçün 8 məntəqədə veb-kamera quraşdırılmışdır. 3 min 216 nəfər ilk dəfə səs verir, yaşı 80-100 arası olan seçicilərin sayı isə 100 nəfər olmuşdur.

Dairənin 12 saylı seçki məntəqəsi Nadirkənddə yerləşir. Məntəqənin sədri Əhəd Fazilidən öyrəndik ki, səhər açılandan məntəqənin önündə növbədir. Hətta 91 yaşlı seçici İsmayıl Hüseynov səs verməyə gəlmişdir. Onunla söhbət etdik. Dedi ki, prezident seçkilərində hamı iştirak etməlidir, özü də gərək səhv etməyək: "Bu gün verdiyimz səs Azərbaycanın sabahıdır".

***

Səhər saat 8-də 101 saylı Samux-Şəmkir Seçki Dairəsinin seçki məntəqələrinin qapıları seçicilərin üzünə açılaraçılmaz növbə yarandı. Seçkilərə start verildikdən sonra növbədə duranlar məntəqə seçki komissiyasının üzvlərinə yaxınlaşır, müəyyənləşdirilmiş prosedur qaydalarına əməl etməklə seçimlərini edirdilər.

Məntəqələrdə seçkilərə geniş hazırlıq işləri aparılmışdı. Dairə seçki komissiyasının sədri Bayram Qasımov dedi ki, dairəni əhatə edən 56 məntəqədə 54 min seçici qeydiyyata alınmışdır. 9 məntəqədə veb-kamera quraşdırılmışdır ki, bu da seçkilərin şəffaf və demokratik keçirilməsində böyük rol oynayır.

Öyrəndik ki, dairədə 509 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir. Seçkiləri sərbəst şəkildə müşahidə etmələri üçün onlara xüsusi yer ayrılmış və rahat iş şəraiti yaradılmışdır. Ümumiyyətlə, məntəqələrdə seçkilərin mütəşəkkil keçməsi üçün heç bir problem yox idi. Hansı məntəqədə olduqsa, seçici fəallığı ilə rastlaşdıq. Söhbət zamanı müxalifət partiyalarının müşahidəçiləri seçkilərin şəffaf keçdiyini, heç bir qanun pozuntusunun olmadığını söylədilər.

***

Dünən 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsində də böyük canlanma var idi. Qeyd edək ki, dairəni əhatə edən seçki məntəqələrinin 51-i Göygöldə, 44-ü Daşkəsəndə, 3-ü Kəlbəcərdə yerləşir. Ümumilikdə 52 min 361 seçicinin səsverməda iştirakı gözlənilirdi. Seçkilərin şəffaf keçməsi üçün 13 məntəqədə veb-kamera quraşdırılmışdır. Onun 9-u Göygöldə, 4-ü isə Daşkəsəndə idi.

DSK-nın sədri İftixar Hüseynov dedi ki, bu məsul kampaniyaya ciddi hazırıq işləri görülməsinin və aparılan güclü təbliğatın nəticəsidir ki, seçkilər fəallıq şəraitində keçir. Xüsusiə yaşlı nəsil seçkilərdə daha fəal iştirak etməklə gənc nəslə nümunə göstərir.

Biz dairənin 1 saylı məntəqəsində seçkiləri izləyərkən bunun bir daha şahidi olduq. Məntəqənin sədri Cəmilə Vəliyeva demək olar dayanmadan yaşlı seçicilərə kömək göstərirdi. 80 yaşlı Vilayət Hacıyev prosedur qaydalarına əməl etməklə səs verdikdən sonra bizə yaxınlaşdı və ürək sözlərini söylədi. Dedi ki, ölmədim, bu günü də gördüm: "30 il işğalda olan Qarabağımız azad edildi. Evindən-eşiyindən didərgin düşmüş soydaşlarımız nəhayət ki, öz yurdlarına qayıtmağa başladılar. Bundan böyük sevinc olarmı? İndi azad olunmuş ərazilərimizdə böyük abadlıq və quruculuq işləri gedir. Ermənlər tərəfindən dağıdılan şəhər və kəndlərimiz inşaallah tezliklə abadlaşar və məcburi köçkünlərimiz öz ata-baba yurdlarına dönərlər".

***

104 saylı Gədəbəy seçki dairəsini əhatə edən 53 seçki məntəqəsində ümumilikdə 47 min 791 nəfər seçici qeydiyyatdan keçmişdir. Havaların soyuq keçməsinə baxmayaraq, insanlar bu vacib siyasi kampaniyada iştirak etmək üçün səhər tezdən seçki məntəqələrinə gəlir, seçimlərini edirdilər.

Bu, onu sübut edirdi ki, müstəqillik tarixində ilk dəfə bütöv Azərbaycanda keçirilən bu siyasi kampaniyada hamı öz məsuliyyətini başa düşür və seçkilərdə iştirak etməyi vətəndaşlıq borcu hesab edirdi. DSK-nın sədri Xaliq Xudaverdiyevlə söhbət zamanı məlum oldu ki, növbədənkənar prezident seçkilərinə yüksək səviyyədə hazırlıq işləri görülmüşdür.

Dairənin 2 saylı seçki məntəqəsində də əsl izdiham yaşanırdı. Məntəqədə səs verənlər arasında yaşı 100-ü keçmiş 5 nəfər ahıl insan da var idı. 104 yaşlı Gülzar Hüseynova, 100 yaşlı Səyyad Hüseynova, Güllü Cəfərova da səs verənlər arasında idilər. 104 yaşlı Gülzar nənə dedi ki, seçki məntəqəsindən yaşadığı evə daşınan seçki qutusu göndərmək istəyirdilər: "Lakin razı olmadım. Dedim ki, hələ özümü yaxışı idarə edirəm. Seçki məntəqəsinə özüm gəlib səs verəcəyəm. Elə də etdim".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Seçkilərdə medianın sərbəst fəaliyyəti təmin olunub

Seçkilərin işıqlandırılması və medianın bu prosesdə rolu demokratiklik baxımından mühüm əhəmiyyət kəsb edir. Media azadlığı və fikir plüralizmi təmin olunan Azərbaycanda kütləvi informasiya vasitələri seçkiləri maneəsiz işıqlandırmaq hüququna malikdirlər və bundan dünən istifadə edildi. Eyni zamanda, xarici media vasitələri də bu prosesdə yaxından iştirak etdilər, seçkilər barədə informasiyalar verdilər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin məlumatında qeyd edilib ki, prezident seçkisində jurnalistlərin sərbəst fəaliyyətinin təmin olunması ilə bağlı agentlik tərəfindən dəfələrlə açıqlamalar verilməsinə baxmayaraq, bəzi ekspertlər səviyyəsində ictimai rəyi yanlış istiqamətə yönləndirmək cəhdləri müşahidə olunub. Vurğulanıb ki, səsvermə günü istənilən jurnalist yalnız çalışdığı media subyektinin vəsiqəsini təqdim etməklə seçki məntəqələrində peşəkar fəaliyyətini yerinə yetirə bilər, jurnalistin informasiya əldə etmək hüququ heç bir halda məhdudlaşdırılmır.

Xatırlatmaq istərdik ki, Mərkəzi Seçki Komissiyası, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən silsilə tədbirlərdə media subyektlərinin istər seçki prosesində şəffaflığın təmin edilməsində, istərsə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü öz peşə fəaliyyətlərini yerinə yetirərkən seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət etməli olduqları bildirilib.

Mətbuat Şurasının yaydığı məlumatda isə bildirilib ki, gün ərzində səsvermə prosesini işıqlandıran media vasitələrinin təmsilçilərindən MŞ-nin qaynar xəttinə cəmi bir müraciət daxil olub. Həmin müraciət üzrə müəyyənləşdirilib ki, xarici media vasitəsi ölkəmizdə akkreditasiyadan keçmədiyindən, onun seçkini işıqlandırması qeyri-mümkündür. Bununla əlaqədar müraciət müəllifi məlumatlandırılıb, ona qanunvericiliyin tələbləri izah edilib.

Bildirilib ki, Mətbuat Şurasının İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri də paytaxtdakı və bölgələrdəki seçki məntəqələrində jurnalistlərə prosesi işıqlandırmaları üçün yaradılmış şəraiti müşahidə ediblər. Onlar jurnalistlərin sərbəst şəkildə peşə fəaliyyətlərini yerinə yetirdiklərini qeydə alıb, mövcud istiqamətdə heç bir problem aşkarlamayıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Demokratik, ədalətli seçkilər üçün hər cür şərait yaradılıb

Nərimanov rayonunun bütün seçki məntəqələrində olduğu kimi, 19 saylı birinci seçki dairəsinin 16 saylı məntəqəsində də qələbəlik idi. 193 saylı tam orta məktəbdə yerləşən bu məntəqənin həyətində səsverməyə gələnlərin sayı anbaan artırdı. İstədikləri namizədə səs verəcək bu insanlardakı xoş əhvali-ruhiyyə məmnunluq doğururdu.

Məntəqənin qarşısında səsvermədə ilk dəfə iştirak edəcək Orxan Əliyev və Aygül Mahmudova ilə həmsöhbət oluruq. Orxan deyir:

- Seçkilərdə ilk dəfədir iştirak edirəm. Açığı bir az həyəcanlıyam, qərara almışıq ki, dədə-baba torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmənlərin burnunu əzən, onlara yerini tanımağı və bilməyi öyrədən, Azərbaycan gənclərinin təhsil və sağlamlığına daim qayğı göstərən əsl rəhbərə səs verək.

Gənclərdən bir az aralı dayanan əli əsalı ağsaçlı Teyyub Əliyevlə görüşürük. O, həyat yoldaşı Hüsniyyə xanım və oğlu Səyavuşla birlikdədir. "Mən də, həyat yoldaşım da neçə illərdir yurd həsrəti ilə yaşayırıq. Ötən əsrin 80-ci illərində ermənilərin terroruna dözməyib, ata-baba mülklərimizi, ev-eşiyimizi, bir sözlə, dədə-babadan nəyimiz vardısa qoyub, canımızı götürüb o yerlərdən salamat qaçmağa məcbur edildik. Eşidəndə ki, Qərbi Azərbaycana qayıdışın mümkünlüyü mövcuddur, buna çox sevinirəm. Qulağım səsdədir ki, nə ola, bir gün, bax o Füzuliyə, Laçına, Zabuxa, Cəbrayıla doğma yurdlarına dönən qaçqınlar kimi, biz Qərbi azərbaycanlıların da öz elimizə köçü başlaya. Bax, mən də, ailəm də bu reallığı yaradan, bizi ata-baba yurdumuzla qovuşduracaq liderə səs verəcəyik.

Digər həmsöhbətimiz isə əmək veteranı Hümbət, Nərminə və Azər Əliyevlər oldu. Ürək sözlərini açıqlamaqdan məmnunluq hissi keçirən Hümbət Mustafayev dedi: - Biz torpaqlarımızı nadan erməni işğalından azad edən, ölkəmizdə separatizmi birdəfəlik məhv edən, xalqımızı firavanlığa qovuşduran, müstəqil və bütöv Azərbaycanı inkişafa və tərəqqiyə aparan "dəmir yumruğ"u formalaşdırana səs verəcəyik.

Söhbəti müsahibimizin qonşusu, sinəsini İkinci Qarabağ müharibəsinin iştirakçısı və Qubadlının azadlığı uğrunda medalları bəzəyən ucaboylu, qəddi-qamətli Sənan Nəbiyev davam etdirir: - İkinci Qarabağ savaşının iştirakçısı olmuşam. Erməni vandalları ilə savaşda neçə-neçə döyüşçü yoldaşımı itirdim, onlarla gənc əlil və qazi oldu. Bu gün torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda canından keçmiş, sağlamlığını itirmiş bəzi gənclərin əvəzinə də səs verəcəyəm.

Bu arada növbəliliyi gözləməklə, elə müsahiblərimizlə birlikdə məntəqəyə daxil oluruq. Səliqə-sahman göz oxşayır, qeydiyyatdan keçib səsvermə prosesini izləyir və müşahidəçi qismində əyləşənlərlə həmsöhbət oluruq: Milli Cəbhə Partiyasının nümayəndəsi Nərgiz Əhmədzadə və Cəmiyyətin İnkişafı Mərkəzinin nümayəndəsi Fərid Salahov bildirirlər ki, üç saata yaxındır səsvermə davam edir, hələ ki, qayda pozuntusu baş verməyib.

Məntəqə seçki komissiyasının sədri Nihal Hacıyeva söyləyir ki, məntəqədə müşahidə kameraları işləyir, seçicilər sakitliyə və növbəliliyə riayət etməklə istədikləri namizədə rahatlıqla səs verirlər.

Bir az əvvəl beynəlxalq müşahidəçi qismində seçkiləri izləyən Qoşulmama Hərəkatının Gənclər Təşkilatının nümayəndəsi, ondan az sonra ABŞ-nin "Qracle Advisoru Grup" təşkilatının nümayəndəsi səsvermə prosesinin müşahidəsinə qoşuldular, müşahidəçi və seçicilərlə təmasda oldular.

Məntəqəni tərk edərkən səsverməyə gələn insanların çoxluğunun və fəallığının bir daha şahidi oluruq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Milli Qəhrəman Mübariz İbrahimovun doğum gününə həsr olunan mərasimlər keçirilib

**Torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anadan olmasının ildönümünə həsr olunmuş anım mərasimləri keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, mərasimlərdə nazirliyin, Biləsuvar Rayon İcra Hakimiyyətinin, Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin və ictimaiyyətin nümayəndələri, müəllim-şagird heyəti, eləcə də digər qonaqlar iştirak ediblər.

Hərbi qulluqçular igidimizin məzarını ziyarət edərək üzərinə gül dəstələri qoyub, xatirəsinə ehtiram nümayiş etdiriblər. Çıxış edənlər M.İbrahimovun göstərdiyi şücaət və igidlik nümunələrindən, qəhrəmanımızın Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atmasından danışıblar.

Həmçinin hərbi qulluqçularımız tərəfindən şəhidimizin doğulub boya-başa çatdığı Biləsuvar rayonundakı evi də ziyarət olunub. Milli Qəhrəmanın ailə üzvləri M.İbrahimov haqqında xatirələrini bölüşüblər, şəhidlərə göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandana, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


Bu gün prezident seçkiləri günüdür
AZƏRBAYCAN
Azərbaycan liderini seçir
7 namizəd, 6 milyon 478 min 623 seçici, 6537 seçki məntəqəsi, 90 min 372 müşahidəçi...
Yeni sərəncam 1,1 milyon pensiyaçını əhatə edir
Fevralın 9-da pensiyaların yeni artımlarla birgə ödənişinə başlanılacaq
Qarabağda və Şərqi Zəngəzurda keçiriləcək ilk seçkinin sevinci
Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün hərtərəfli şərait yaradılıb
İmperializmin köləsi
"Azadlıq" Azərbaycanın uğurlarını niyə azaldır?
Yalan, iftira, qərəz...
Azərbaycan heç nə itirmədi

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Fevralın 8-də ölkə ərazisində 20 dərəcəyədək isti olacaq

Azərbaycanda fevralın 8-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 5-9°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 13-18° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti, bəzi yerlərdə 15° isti olacağı bildirilir.



Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 13-18° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 15-20° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 14-19° isti, dağlarda gecə 5-9°, gündüz 12-17° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əzizov Nağıyevlər ailəsinə anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elmira Süleymanova Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Mühəndislik Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayev və nazirliyin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Daşqın Əliyev, Anar Şükürov, Mahmud Nuriyev, Nadir Saraclı, Ağasəd Ağayev, Yaqub Bayramov, Rafiq Hüseynov və Mehman Qasımov Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin aparatının əməkdaşı

**ELŞƏN ABDULƏZİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Jalə Əhmədova Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İnvestisiya Holdinqinin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Nağıyevlər ailəsinə anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3923**
**Sifariş 281**

**Qiyməti 60 qəpik**